EVDƏ QAL, SAĞLAM QAL!

"Sizin kimi liderimiz olduğu üçün özümüzü xoşbəxt vətəndaşlar hesab edirik"



Bax 5

Bosniya və Herseqovina Azərbaycanı əsl dost adlandırıb



Bax 2



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

# SƏS

QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 084 (6049) 19 may 2020-ci il. Qiyməti 40 qəpik

"Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı.

## Azərbaycan və Rusiya Prezidentləri arasında telefon danışığı olub

Mayın 18-də Rusiya Federasiyasının Prezidenti Vladimir Putin Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə telefonla zəng edib.

Telefon söhbəti zamanı dövlət başçıları koronavirus pandemiyası ilə mübarizə sahəsində görülən işlərdən danışıb, bu istiqamətdə ölkələrimizin sərhəd-keçid məntəqələrində qarşılıqlı əlaqələndirmə şəraitində həyata keçirilən tədbirlər barədə fikir mübadiləsi aparıblar.

Dövlət başçıları Azərbaycanla Rusiya arasında strateji tərəfdaşlıq əlaqələrinin bütün sahələrdə...

Bax 2



## "Milli şura"nın uğursuz "siyasi tamaşa"sı və radikal ünsürlərin növbəti özünüifşası

*Dayanıqlı iqtisadi inkişafın və sarsılmaz ictimai-siyasi sabitliyin təmin olunduğu Azərbaycan tərəqqi yolundan inamla irəliləyir. Ölkəmizin Cənubi Qafqaz regionunun lider dövlətinə, müasir...*



Bax 4

## "Sağlam cəmiyyətin qurulması üçün korrupsiyanın kökünün kəsilməsi çox vacib amildir"

Bax 4



"Sağlam cəmiyyətin qurulması üçün rüşvətin, korrupsiyanın kökünün kəsilməsi çox vacib amildir". SİA xəbər verir ki, bunu "sherg.az"a açıqlamasında "Resurs" Analitik İnformasiya Mərkəzinin sədri, siyasi...

## Xarici ali təhsil ixtisasının ölkədə tanınması və nostrifikasiyası necə olacaq?

Xarici ali təhsil ixtisasının ölkəmizdə tanınması və nostrifikasiyası qaydaları ilə bağlı əsas məqamlar açıqlanıb. Təhsil Nazirliyindən "Report"a verilən məlumata görə, xarici ali təhsil ixtisasının ölkədə tanınması və nostrifikasiyası üçün Təhsildə Keyfiyyət və Təminatı Agentliyinə müraciət edilməlidir...





Bax 7

## "Rayonlara gediş-gəlişin açılması sanitar-epidemioloji vəziyyətdən asılıdır"

Rayonlara gediş-gəliş və ölkə sərhədlərinin açılması sanitar-epidemioloji vəziyyətdən asılıdır. SİA-nın məlumatına görə, bunu Nazirlər Kabinetinin mətbuat xidmətinin...

Bax 4

## "Qalatasaray"ın prezidenti yenidən əməliyyat olundu



*"Qalatasaray"ın prezidenti Mustafa Cengiz yenidən xəstəxanaya yerləşdirilib. Qol.az Türkiyə mətbuatına istinadən xəbər verir ki, klub rəhbərinin halı qəflətən pisləşdiyindən o, növbəti dəfə əməliyyat olunub. Cengizin mədəsində qanaxma olduğu bildirilib...*

Bax 16

## "Lenta.ru": Paşinyanın susması Njdenin xatirəsinin əbədiləşdirilməsinə dair mövqeyinə etiraz etməmək cəhdi kimi görünür

*Rusiyanın "Lenta.ru" internet-nəşrinin dərc etdiyi "Babanın siri" adlı materialda müəllif Konstantin Lyapunov Nikol Paşinyanın...*



Bax 12

"Eşkiyaların" sosial şəbəkə macəraları



Bax 13

Elşən Musayev: "Milli Şura"nın son videokonfransı həqiqətən rəzalət idi"



Bax 14

DİN jurnalistlərə və sosial şəbəkə istifadəçilərinə müraciət etdi



Bax 11

# Prezident İlham Əliyevlə Moldova Prezidenti İqor Dodon arasında videokonfrans formatında görüş keçirilib

***Mayın 18-də Moldova tərəfinin təşəbbüsü ilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevlə Moldova Respublikasının Prezidenti İqor Dodon arasında videokonfrans formatında görüş keçirilib. AZƏRTAC xəbər verir ki, Moldova Prezidenti İqor Dodon dövlətimizin başçısı İlham Əliyevi salamlayaraq dedi:***



-Sabahınız xeyir.

Prezident İlham Əliyev: Sabahınız xeyir.

Prezident İqor Dodon: Hörmətli cənab Prezident, hörmətli dostumuz. Sizinlə heç olmasa belə rejimdə ünsiyyət qurmaq imkanına görə çox şadam. Əvvələn, Sizi ötən böyük bayram - Qələbə Günü münasibətilə təbrik etmək istərdim. Həmçinin pandemiyaya qarşı mübarizədə bizə kömək göstərmək barədə qəbul etdiyiniz qərara görə təşəkkürümü bildirmək istərdim. Bir neçə gün bundan əvvəl, ötən həftə biz xüsusi təyyarə ilə Sizin göndərdiyiniz yardımı qəbul etdik. Bütün xalqımız adından Sizə təşəkkürümü bildirirəm ki, Bakıdan olan qardaşlarımız bu ağır vəziyyətdə bizə kömək etmək qərarına gəliblər. Bilirəm ki, Sizin ölkədə də pandemiya ilə mübarizə aparılır. Onu da bilirik ki, Siz bunun öhdəsindən layiqincə gəlirsiniz. Ümidvaram ki, əməkdaşlığımızın bu və digər bəndləri barədə bu gün biz telekonfrans rejimində söhbət açacağıq.

Prezident İlham Əliyev: Bəli. Sizi görməyimə çox şadam, hörmətli cənab Prezident. Mən də Sizi və Sizin şəxsinizdə bütün Moldova xalqını ötən Qələbə bayramı münasibətilə təbrik etmək istərdim. Bizim ölkələrimizdə bu bayram həmişə çox əziz tutulur. Bizim Qələbəmiz uğrunda canlarından keçənlərin xatirəsini əziz tutmağımız fərəhlidir. Hazırda sağ olanlar, - düzdür, onların sayı getdikcə azalır, - ölkələrimizdə böyük hörmətə sahibdirlər. Əlbəttə ki, biz ikitərəfli planda daim aktiv qarşılıqlı fəaliyyətə istiqamətlənmişik. Mən sizinlə həm Bakıda, həm də beynəlxalq məkanlarda görüşlərimizi xatırlayıram. Buna görə də Azərbaycanın bu çətin gündə Moldovaya həmrəylik göstərməsi təbiidir. Çünki məhz çətin vaxtda bir-birinə dəstək göstərilməlidir. Hamıda hər şey yaxşı olanda hamı bir-birini təbrik edir və uğurlarına sevinir. Lakin ağır dəqiqədə, əlbəttə ki, imkan daxilində biz bir-birimizi dəstəkləməliyik. Mən Sizin bununla bağlı məktubunuza və həmçinin bu gün bunu qeyd etdiyinizə görə təşəkkür edirəm. Əlbəttə ki, pandemiya bütün ölkələrdə hadisələrin gedişatına, o cümlədən beynəlxalq siyasət məsələlərinə öz təsirini göstərib. Lakin müasir texnologiyalar fəal işləməyə və hətta bu rejimdə ünsiyyət qurmağa imkan verir. Beləliklə, əminəm ki, bugünkü müzakirəmiz də çox faydalı olacaq və nəticəyə istiqamətlənəcək.

x x x

Söhbət zamanı dövlət başçıları koronavirus pandemiyasi ilə mübarizə sahəsində həyata keçirilən tədbirlər barədə fikir mübadiləsi apardılar, pandemiyanın sosial-iqtisadi fəsadlarının aradan qaldırılması istiqamətində gələcəkdə görüləcək işlərdən danışdılar.

Prezident İlham Əliyev və Prezident İqor Dodon ikitərəfli münasibətlərimizin inkişafından məmnunluq ifadə edərək siyasi əlaqələrin yaxşı səviyyədə olduğunu qeyd etdilər.

Söhbət zamanı dövlət başçıları pandemiya başa çatdıqdan sonrakı dövrdə ölkələrimiz arasındakı əməkdaşlığın müxtəlif sahələrdə inkişaf etdirilməsi məsələlərinə toxunaraq bildirdilər ki, ticarət, iqtisadiyyat, nəqliyyat, energetika və digər sahələrdə əlaqələrimizin genişləndirilməsi, eləcə də investisiya layihələrinin həyata keçirilməsi üçün əlverişli imkanlar var. Prezidentlər bu baxımdan postpandemiya dövründə hökumətlərarası komissiyanın iclasının keçirilməsinin iqtisadi əməkdaşlığımızın möhkəmlənməsi işinə töhfə verəcəyini vurğuladılar.

Dövlət başçıları, eyni zamanda, ölkələrimizin biznes dairələri arasında əlaqələrin genişləndirilməsi və gələcəkdə biznes forumun keçirilməsi perspektivlərini də müzakirə etdilər. Moldova Prezidenti dövlətimizin başçısını ölkəsinə rəsmi səfərlə bağlı dəvətini bir daha diqqətə çatdırdı. Prezident İlham Əliyev də öz növbəsində, münasib vaxtda Moldova Prezidenti İqor Dodonu Azərbaycana rəsmi səfərə dəvət etdi.

## Bosniya və Herseqovina Azərbaycanı əsl dost adlandırıb

Bosniya və Herseqovinanın Federal Xəbər Agentliyinin (FENA) saytında "Caferoviç: Azərbaycan Bosniya və Herseqovinanın səmimi dostudur" adlı məqalə yayılıb. AZƏRTAC xəbər verir ki, məqalə Bosniya və Herseqovinanın Rəyasət Heyətinin açıqlaması əsasında hazırlanıb. Qeyd olunur ki, Rəyasət Heyətinin sədri Şefik Caferoviç koronavirus pandemiyası zamanı Azərbaycandan ölkəsinə göndərilən yardıma görə təşəkkür edib. Bildirilir ki, Bosniya və Herseqovina pandemiyanın ən çətin anlarında müxtəlif yerlərdən dəstək alıb. Vətəndaşlara və qurumlara kömək üçün xüsusi iradə nümayiş etdirən ölkələrdən biri, əlbəttə, Prezident İlham Əliyevin rəhbərlik etdiyi Azərbaycan Respublikasıdır.




Diqqətə çatdırılır ki, Bosniya və Herseqovinaya Azərbaycandan çoxsaylı yardım daxil olub. Belə ki, əvvəlcə tibbi avadanlıqdan ibarət təyyarə gəlib, iki həftə sonra isə pandemiya ilə mübarizə üçün Nazirlər Şurasının xüsusi hesabına ianə edilib. Məqalədə, həmçinin Nizami Gəncəvi Beynəlxalq Mərkəzi tərəfindən Bosniya və Herseqovinaya edilmiş tibbi avadanlıqlardan ibarət yardıma da diqqət yetirilir. Rəyasət Heyətinin açıqlamasına istinadən qeyd edilir ki, əsl və səmimi dostlar çətin anlarda tanınır və bu son həftələrdə Azərbaycan Respublikası bunu nümayiş etdirdi. Rəyasət Heyətinin bu açıqlaması ölkə KİV-ləri tərəfindən geniş işıqlandırılıb.



## Azərbaycan və Rusiya Prezidentləri arasında telefon danışığı olub

Mayın 18-də Rusiya Federasiyasının Prezidenti Vladimir Putin Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə telefonla zəng edib.

Telefon söhbəti zamanı dövlət başçıları koronavirus pandemiyası ilə mübarizə sahəsində görülən işlərdən danışıb, bu istiqamətdə ölkələrimizin sərhəd-keçid məntəqələrində qarşılıqlı əlaqələndirmə şəraitində həyata keçirilən tədbirlər barədə fikir mübadiləsi aparıblar.

Dövlət başçıları Azərbaycanla Rusiya arasında strateji tərəfdaşlıq əlaqələrinin bütün sahələrdə uğurla inkişaf etdiyini vurğulayaraq əməkdaşlığımızın postpandemiya dövründə inkişaf perspektivlərini də müzakirə ediblər.

## Rəsmi xronika

Prezident İlham Əliyev Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 27 iyun tarixli 759 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Kənd təsərrüfatı məhsulları istehsalının subsidiyalaşdırılması Qaydası"nda dəyişiklik edilməsi haqqında Fərman imzalayıb.

***

Prezident İlham Əliyev Ağsu rayonunda əkin sahələrinin su təminatının yaxşılaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında Sərəncalm imzalayıb.

# ABŞ-Azərbaycan münasibətlərinin inkişafı: Trampın məktubunun geosiyasi məqamları

*Amerika Prezidenti Azərbaycanın dövlət başçısına Respublika Günü münasibətilə təbrik məktubu ünvanlayıb. Donald Tramp məktubunda iki ölkə arasındakı münasibətlərin məzmunu və perspektivləri ilə bağlı maraqlı məqamları vurğulayıb. Həcmi qısa olan məktubun məzmunu dərindir və orada geosiyasi kontekstdə əhəmiyyətli fikirlər ifadə edilib. Həmin fikirlər Azərbaycanla ABŞ arasında münasibətlərin müxtəlif istiqamətlərini, ondan hər iki ölkə xalqlarının faydalanmasının zəruriliyini və bunun bütövlükdə dünya üçün əhəmiyyətini əks etdirir. Vurğulanan məqamların üzərində geosiyasi kontekstdə geniş dayanmağa ciddi ehtiyac görürük.*




## Suveren və müstəqil Azərbaycan: Trampın etirafı

Dünya siyasi liderlərinin koronavirus pandemiyasından sonra qlobal nizam ilə əlaqəli müxtəlif fikirlər söylədiyi bir dönəmdə böyük dövlətlərin xarici siyasətdə atdıqları addımlar diqqəti çəkir. Çünki bu addımları ekspertlər postpandemiya mərhələsinin geosiyasi mənzərəsinin fraqmentləri kimi qəbul edirlər. O cümlədən ABŞ kimi böyük bir gücün xarici siyasət istiqamətindəki fəaliyyəti maraq doğurmaqdadır. Rəsmi Vaşinqtonun Çin və Rusiya ilə bağlı tutduğu mövqe məlumdur. Son bəyanatlar göstərir ki, bu istiqamətdə elə bir dəyişiklik yoxdur. Bu kimi gedişatın fonunda Amerikanın Azərbaycanla bağlı siyasəti maraq doğurmaya bilməz.

Məsələ son zamanlar Ermənistan tərəfindən bir sıra təxribatçı addımların atılması fonunda da əhəmiyyətli görünür. Rəsmi İrəvan öz qeyri-konstruktiv və təcavüzkar addımları ilə Azərbaycanı şantaj etməkdə davam edir. Belə bir şəraitdə Azərbaycanın sərt addımlar atması istisna olunmur. Mümkündür ki, Bakı İrəvanı hərbi zərbə ilə susdursun. Hamı bilir ki, Azərbaycan Ordusu bu işin öhdəsindən yüksək səviyyədə gələ bilər. Əsas məsələ beynəlxalq ictimaiyyətin Azərbaycanın təbii olaraq özünümüdafiə fəaliyyətini obyektiv qəbul etməsi ilə bağlıdır. Bu baxımdan Ağ ev administrasiyası Azərbaycanla bağlı nə düşünür?

Bu sual D.Trampın Azərbaycanın dövlət başçısına göndərdiyi məktubda ifadə edilən fikirlər prizmasından da kifayət qədər maraqlıdır. Amerika Azərbaycana inanırmı? Məktubun məzmunundan belə bir suala cavabla bağlı nəticə çıxarmaq olar. Məktub qısa, lakin çox məzmunludur. D.Tramp yığcam şəkildə ABŞ-ın Azərbaycana münasibətini, o cümlədən əməkdaşlıq əlaqələrinin perspektivini ifadə edib.

"28 May - Respublika Günü münasibətilə Sizə və Azərbaycan xalqına Amerika xalqı adından səmimi salamlarımı və təbriklərimi çatdırıram" cümləsi ilə başlayan məktubunda D.Tramp dərhal ifadə edir ki, "Birləşmiş Ştatlar Azərbaycanın suverenliyini və müstəqilliyini güclü şəkildə dəstəkləyir". Bu iki cümlə bir-birini məzmun və məqsəd baxımından qarşılıqlı surətdə tamamlayır. Belə ki, birinci cümlədə Amerikanın Azərbaycanın müstəqil dövlət olmasını tam qəbul etdiyi bildirilir ki, bu da məsələnin tarixinə Vaşinqtonun hörmətlə yanaşmasını göstərir. ABŞ Cənubi Qafqazda müstəqil Azərbaycan dövlətinin qurulmasını tamamilə təbii, zəruri və geosiyasi aspektdə faydalı hadisə adlandırır. İkinci cümlədə bu tezisin konkret siyasi arqumenti ifadə edilib. Yəni, Amerika Birləşmiş Ştatları Azərbaycanı həm də ona görə ürəkdən təbrik edir ki, bu dövlət suverenlik və müstəqilliyini təmin edə bilir!

Müasir dolaşıq geosiyasi mühitdə müstəqilliklə bərabər suverenliyi də təmin etmək hər ölkəyə müyəssər olmur. Azərbaycan bu baxımdan Cənubi Qafqazda yeganə dövlətdir ki, 1993-cü ildən bu yana həm müstəqil, həm də suveren addımlar atır. Bunu təsdiq edən çoxsaylı faktları Vaşinqtonda çox yaxşı bilirlər. O cümlədən Azərbaycan enerji sferasında qlobal enerji təhlükəsizliyi üçün əhəmiyyəti olan layihələri heç bir təhdidə, təhlükəyə, hədəyə, sui-qəsdlərə və risklərə baxmadan inamla həyata keçirməkdədir. Amerika rəsmi dairələrində buna qiymət verirlər.

Bu tezisi D.Tramp məktubunda belə ifadə edib: "Birləşmiş Ştatlar və Azərbaycan beynəlxalq təhlükəsizliyi gücləndirmək, Avropanın enerji marşrutlarını və mənbələrini şaxələndirmək və iki böyük xalqın insanlarına parlaq gələcək qurmaq naminə təxminən 30 il əməkdaşlıq ediblər". Burada qarşılıqlı münasibətlərin üç vacib aspekti öz əksini tapıb. Birincisi, Amerika-Azərbaycan münasibətləri hətta qlobal miqyasda təhlükəsizliyə müsbət təsir edən faktor-prosesdir. İkincisi, Azərbaycanın həyata keçirdiyi layihələrin Avropanın enerji marşrutlarını və mənbələrini şaxələndirdiyini Vaşinqton yaxşı anlayır. Üçüncüsü, iki ölkə arasındakı münasibətlər 30 ildir ki, yüksələn xətt üzrə davam edir və başlıca məqsəd iki böyük xalqın parlaq gələcək qurmasına xidmətdən ibarətdir.

## Perspektiv: rəsmi Vaşinqton Cənubi Qafqazın lider dövlətinə inanır

Bunlar çox vacib məqamlardır. Şübhə yoxdur ki, Amerika rəhbərliyinin bu dərəcədə yüksək fikirdə olmasının əsas səbəbi Azərbaycan Prezidentinin həyata keçirdiyi səmərəli daxili və xarici siyasətdir. Bakının enerji siyasətinə diqqət hələ keçən əsrin 90-cı illərinin ortalarından vardır. Ulu öndər Heydər Əliyevin strateji əhəmiyyətli siyasi xəttini Amerika kifayət qədər lazımi səviyyədə dərk edə bilmişdi. İndiki mərhələdə də Prezident İlham Əliyev geosiyasi dinamikanın ziddiyyətləri və mürəkkəbliyi şəraitində Ulu Öndərin müəyyən etdiyi enerji siyasətini çox uğurla inkişaf etdirir və bunu konkret layihələrin reallaşması tam təsdiq edir. Bu baxımdan deyə bilərik ki, D.Tramp, sadəcə, gerçəklikləri etiraf edir. Bu isə hər bir siyasətçi üçün müsbət keyfiyyətdir.

Bizcə, ABŞ Prezidentinin məktubunda iki ölkə arasındakı münasibətlərin qlobal təhlükəsizliyə təsirinin ayrıca vurğulanmasının kökündə məhz Azərbaycan dövlət başçısının təşəbbüsü ilə həyata keçirilən və müxtəlif sferaları (iqtisadi, enerji, humanitar, ekoloji və s.) əhatə edən layihələrin verdiyi töhfələr dayanır. Yəni, D.Tramp bu qənaətini faktları araşdıraraq ifadə edir. Bu, Azərbaycanın müstəqil və suveren dövlət kimi dünya miqyasında davamlı şəkildə statusunu yüksəltməsindən xəbər verir.

Həmin bağlılıqda Amerika Prezidentinin iki ölkənin münasibətlərinin son 30 illik inkişaf təcrübəsini xüsusi qeyd etməsi rəsmi Vaşinqtonun bu əlaqələrə yüksək siyasi qiymət verməsinin göstəricisidir. Həm də ötən illərin təcrübəsi göstərir ki, Azərbaycan-Amerika əlaqələri iki böyük xalqın rifahına xidmət edir! Əlbəttə, D.Trampın Azərbaycan xalqını böyük xalq adlandırması təsadüfi deyil. Amerika rəhbərliyi əmindir ki, Azərbaycan xalqı Cənubi Qafqazda mədəniyyətin, sivilliyin, demokratiyanın, əməkdaşlığın və tərəqqinin layiqli daşıyıcısıdır. Həmin səbəbdən də Azərbaycanla əlaqələrin inkişafı dünyanın istənilən mədəni və sivil dövləti üçün faydalıdır.

Burada biz, D.Trampın dolayısı ilə bir sıra dairələrin Azərbaycan ətrafında yaratmağa çalışdıqları yalançı mənzərəyə cavab verdiyini görürük. Amerika rəhbərliyi bu qəbildən olan qarayaxmaları qəbul etmir və müstəqil Azərbaycanla əməkdaşlığı dərinləşdirməkdə maraqlıdır. Məktubunda D.Tramp davam edir: "Bu sahələrdə Azərbaycanın mühüm töhfələrini dəyərləndirir, dəstəklənməsinə söz verdiyimiz demokratik idarəetməni təşviq edən, habelə hüquq və azadlıqları qoruyan bütün addımların atılmasına həvəsləndiririk".

Fikrimizcə, ABŞ rəhbərliyinin mövqeyi aydın ifadə olunub. Vaşinqton bundan sonra da Azərbaycanla birgə çalışmağa davam edəcək və bu prosesə çox perspektivli yanaşır. ABŞ Azərbaycanın "parlaq gələcək naminə" "mühüm töhfələrini" diqqətə almaqdadır!

Vurğulanan kontekstdə D.Tramp Azərbaycanın pandemiya ilə mübarizəsini də yüksək qiymətləndirir. Bununla bağlı məktubda qeyd olunur: "Koronavirus pandemiyası ilə üzləşdiyimiz bir vaxtda Birləşmiş Ştatlar Azərbaycan xalqının yanındadır".

Nəhayət Azərbaycan xalqı üçün çox əhəmiyyəti olan Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin danışıqlar yolu ilə və beynəlxalq hüquq normaları çərçivəsində ədalətli həlli məsələsində Vaşinqtonun hansı mövqedə olması da aktualdır. Bununla bağlı D.Tramp məktubun sonunda vurğulayıb: "Biz Minsk qrupunun həmsədrlərindən biri kimi Dağlıq Qarabağ münaqişəsinin dayanıqlı və sülh yolu ilə həlli üçün danışıqların dəstəklənməsində iştirakımızı davam etdirəcəyik".

Buradan aydın görünür ki, ABŞ Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi şərti ilə münaqişənin beynəlxalq hüquq normaları çərçivəsində həll olunmasında maraqlıdır. Onun formatı kimi isə ATƏT-in Minsk qrupunu ABŞ qəbul edir. Deməli, Vaşinqton rəsmi İrəvanın münaqişə ilə bağlı atdığı təxribatçı addımları dəstəkləmir. Bu isə müsbət hal kimi qəbul edilməlidir.

Beləliklə, Amerika Prezidenti son məktubunda Azərbaycanla əlaqələrə böyük əhəmiyyət verdiyini və onun perspektivinə tam əmin olduğunu ifadə edib. Şübhəsiz, bu məqam Azərbaycan rəhbərinin uğurlu siyasətinin növbəti təsdiqlərindən biridir.

**Newtimes.az**

# "Milli şura"nın uğursuz "siyasi tamaşa"sı və radikal ünsürlərin növbəti özünüifşası

**_Dayanıqlı iqtisadi inkişafın və sarsılmaz ictimai-siyasi sabitliyin təmin olunduğu Azərbaycan tərəqqi yolundan inamla irəliləyir. Ölkəmizin Cənubi Qafqaz regionunun lider dövlətinə, müasir beynəlxalq münasibətlər sisteminin güclü və nüfuzlu subyektinə çevrilməsini təmin edən çoxsaylı strateji faktorlar mövcuddur. Bu kontekstdə ən mühüm amil, şübhəsiz ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə milli maraqlara, müasir qlobal çağırışlara əsaslanan uğurlu daxili və xarici siyasətin həyata keçirilməsidir. Praqmatik xarakter daşıyan bu strateji kurs Azərbaycanın müstəqilliyinin möhkəmlənməsinə və qüdrətinin daha da artmasına xidmət edir._**

*Siyavuş Novruzov*
*YAP İcra katibinin müavini,*
*Milli Məclisin Regional*
*məsələlər komitəsinin sədri*



### "Beşinci kolon" anti-Azərbaycan dairələrin siyasi təzyiq aləti kimi...

Əlbəttə, Azərbaycanın dinamik inkişafı, dünya siyasətində yerinin möhkəmlənməsi və rolunun artması, o cümlədən Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində qətiyyətli mövqeyini davam etdirməsi anti-Azərbaycan, ermənipərəst dairələr tərəfindən həm ciddi narahatlıqla qarşılanır. Belə olan halda, Azərbaycanın müstəqil siyasətinə təsir etmək, müsbət beynəlxalq imicini zədələmək üçün ölkəmizə qarşı "qara piar" kampaniyası aparılır, ictimai rəyi manipulyasiyaya məruz qoymaq məqsədilə müxtəlif cəhdlər edilir. Bu zaman "beşinci kolon"un, yəni xaricdəki "sapı özümüzdən oan balta"ların - antimilli ünsürlərin və ölkəmizdəki radikal, marginal qruplaşmanın xidmətlərindən xüsusi olaraq istifadə olunur. Qərəzli xarici dairələrdən, erməniपərəst mərkəzlərdən daim siyasi direktivlər alan "beşinci kolon" isə virtual mühitdə "fəallıq" göstərərək sosial şəbəkələr vasitəsilə dövlətin əleyhinə təxribat xarakterli məlumatlar - reallıqları əks etdirməyən informasiyalar (oxu:dezinformasiya) yaymağa, qarayaxma kampaniyası aparmağa çalışsalar da, hər dəfə uğursuzluğa düçar olaraq gülünc vəziyyətə düşürlər. Belə hallardan biri də bu günlərdə "Milli şura" adlandırılan qondarma qurumun koordinasiya mərkəzinin videoiclasında qeydə alındı.

### Azərbaycan cəmiyyəti radikal düşərgədə cəmləşənlərin hansı mənəvi-əxlaqi və siyasi dünyagörüşünə malik olduqlarına bir daha şahidlik etdi

Bəhs olunan videoiclasda səsləndirilən qeyri-etik ifadələr, aparılan müzakirənin forması, irəli sürülən fikirlər bir daha radikal düşərgədə cəmləşənlərin hansı mənəvi-əxlaqi səviyyədə və siyasi dünyagörüşündə olduqlarını cəmiyyətə nümayiş etdirdi. Adlarını "siyasətçi" qoyan bu şəxslərin müzakirə etdikləri "taleyüklü məsələlər"in mahiyyəti və əhəmiyyəti növbəti dəfə onların siyasi xislətini, o cümlədən bəzi xarici dairələrin maliyyəsi və sifarişləri əsasında hərəkət etdiklərini göstərmiş oldu.

Bu adamların canlı yayım vasitəsilə qapalı iclası xaricə yaymaqla məşğul olduqları da bəlli oldu. Videoiclas zamanı "siyasi fəhmi"ni və mənəvi-siyasi dəyərlərini sərgiləyən Gültəkin Hacıbəyli də qapalı iclasda xaricdəkilərin (oxu:erməniपərəst və anti-Azərbaycan dairələrin) onlara diqqətinin olduğunu və qarşılarında tələblər qoyduqlarını ifadə etməklə hansı qüvvələrə xidmət göstərdiklərini nümayiş etdirdi. Yəni görünən budur ki, hakimiyyətə iddialı olan bu marginal qruplar üçün xalqın rəyi və mənafeyi deyil, anti-Azərbaycan dairələrin tələbləri və göstərişləri birinci dərəcəli məsələdir.

### Üzrü qəbahətindən betər və ya "Milli şura" məhz xalqdan üzr istəməli idi!

Bəhs olunan şəxslər bütün bu rəzilliklərdən sonra, heç şübhəsiz ki, xalqdan üzr istəməli idilər. Amma onlar müzakirə predmetinə çevirdikləri azlıqlardan üzr istəməklə xalqa, cəmiyyətə, milli maraqlara və mənəvi dəyərlərə çirkin və sayğısız münasibətlərini ortaya qoydular. Bu, əslində, qrant və ianə üçün bütün tapşırıqlarını yerinə yetirdikləri Avropadakı bəzi qərəzli dairələrə mesaj idi. İsmarıcın mənası isə budur: "Bizim üçün milli mənafe və millimənəvi dəyərlər anlayışı yoxdur, biz sizin sadiq xidmətçiləriniz olaraq antixalq və antidövlət mövqeyimizi davam etdiririk".

Üstəlik, bəhs olunan şəxslər nümayiş etdirdikləri rəzil tamaşanı ört-basdır etmək və ya fərqli formada təqdim etmək üçün hakimiyyəti günahlandırmağa çalışsalar da, buna nail ola - cəmiyyəti aldada bilmədilər. Sonradan tam aydın və məlum oldu ki, özləri məqsədli şəkildə xidmət etdikləri qərəzli dairələrə mesaj vermək üçün qapalı iclası canlı yayıma qoşublar. Bununla da öz daxili aləmlərini və düşüncələrini, kimlərin müdafiəçisi olduqlarını açıq şəkildə ortaya qoymuş oldular.

Baş verənlərin fonunda qondarma "Milli şura"dan müxtəlif şəxslərin istefası da onların hər hansı ciddi müzakirə aparmaq qabiliyyətində olmadıqlarını, daxili ziddiyyətlərin və konfrantasiyaların məngənəsində boğulduqlarını göstərdi. Bunlar, eyni zamanda, radikal ünsürlər üçün Azərbaycan xalqının rəyinin və mənafeyinin əsas olmadığını, ayrı-ayrı qrupların önəmli olduğu bir daha ortaya qoyuldu. Bəllidir ki, neçə illərdir, bu şəxslər ermənilərin maliyyəsi hesabına istər Azərbaycandan kənarda, istərsə də ölkə sərhədləri daxilində antiazərbaycan təbliğatı aparmaqla, saxta miqrant sənədləri satmaqla məşğuldurlar. Bu, artıq həmin şəxslərin Azərbaycan cəmiyyətində "pasportu"dur.

### İflasa məhkum olunmuş marginal qruplaşmanın "siyasi fəaliyyət"i xəyanət prinsipi üzərində qurulub

Ümumiyyətlə, radikal müxalifətin adı bu gün ictimai rəydə xəyanət və satqınlıq anlayışları ilə assosiasiya olunur. 1992-1993-cü illərdə hakimiyyətdə olan AXC-Müsavat tandeminin yarıtmaz və xəyanətkar fəaliyyəti nəticəsində Azərbaycanın müstəqilliyini itirmək təhlükəsi ilə qarşı-qarşıya qalması, Azərbaycan torpaqlarının, o cümlədən Kəlbəcərin, Şuşanın, Laçının işğal altına düşməsində bu cütlüyün rolu xalqımız tərəfindən unudulmayıb.

Həmin düşərgənin təmsilçiləri bu gün də qrant və ianələr müqabilində ermənilərə, erməniपərəst dairələrə xidmət etməklə Azərbaycan xalqına və dövlətinə qarşı aşkar düşmənçilik mövqeyi sərgiləyirlər. Hətta "gözəgörünməz düşmənlə müharibə" kimi səciyyələndirilən pandemiya şəraitində, milli həmrəyliyin zəruri olduğu bir vaxtda təxribat xarakterli informasiyalar yaymaqla və manipulyativ fikirlər səsləndirməklə dövlətin uğurlarının üzərinə kölgə salmağa, vətəndaş-dövlət birliyini sarsıtmağa çalışırlar. Çünki Azərbaycanın koronavirusla beynəlxalq səviyyədə təqdir olunan nümuvii mübarizə modeli, dövlət siyasətinə yüksək səviyyədə ictimai dəstəyin göstərilməsi, ən yüksək səviyyədə özünü göstərən milli həmrəylik və digər müsbət amillər radikal qruplaşma və onların xidmət etdikləri anti-Azərbaycan dairələr tərəfindən böyük narahatlıqla qarşılanır.

Azərbaycan xalqı isə antimilli və xəyanətkar mövqedə olan bu marginal qruplaşmaya öz yerini çoxdan göstərib, onları tarixin tozlu arxivinə göndərib. Radikal ünsürlərin bu cür vasitələrlə siyasi reabilitasiya cəhdləri isə hər zaman olduğu kimi, iflasa məhkumdur!

*Ceyhun Rasimoğlu*

## Azərbaycan Ordusu genişmiqyaslı əməliyyat-taktiki təlimlərinə başlayıb

Qoşunların 2020-ci ilin döyüş hazırlığı planına uyğun olaraq Azərbaycan Ordusu genişmiqyaslı əməliyyat-taktiki təlimlərinə başlayıb. Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, təlimlərdə döyüş hazırlığı, əməliyyatların planlaşdırılması və hərtərəfli təminatı, müxtəlif qoşun növləri və qisimlərinin idarəetmə orqanlarının qarşılıqlı əlaqəsi, həmçinin təlimlərin şərtlərinə uyğun olaraq yaradılan zərbə qruplaşmalarının atəş və manevr imkanları yoxlanılacaq.

On min nəfərədək şəxsi heyət, 120-dək tank və digər zirehli texnika, 200-dək müxtəlif çaplı raket və artilleriya qurğusu, reaktiv yaylım atəş sistemi və minaatanlar, 30-dək ordu və cəbhə aviasiyası və müxtəlif təyinatlı pilotsuz uçuş aparatları cəlb olunan təlimlər mayın 22-dək davam edəcək.

## "Rayonlara gediş-gəlişin açılması sanitar-epidemioloji vəziyyətdən asılıdır"



Rayonlara gediş-gəliş və ölkə sərhədlərinin açılması sanitar-epidemioloji vəziyyətdən asılıdır. SİA-nın məlumatına görə, bunu Nazirlər Kabinetinin mətbuat xidmətinin rəhbəri İbrahim Məmmədov deyib. O, iyun-iyul aylarında toyların bərpa olunması ilə bağlı bu gün nəsə deyə bilmədiklərini söyləyib: "Bugünkü statistika bunu deməyə əsas verir. Mütəxəssislər sonrakı günlərlə bağlı nə deyəcəksə o da olacaq".

## Növbəti modul tipli xəstəxanalar Gəncə və Sumqayıtda açılacaq



"İkinci modul tipli xəstəxananın üzərində intensiv işlər gedir". SİA xəbər verir ki, bunu Nazirlər Kabineti yanında Operativ Qərargahın təşkil etdiyi mətbuat konfransında bunu TƏBİB-in xəstəliklərin profilaktikası və kontrolu şöbəsinin müdiri Yaqut Qarayeva deyib.

Onun sözlərinə görə, növbəti modul tipli xəstəxanaların açılması Gəncə və Sumqayıt şəhərlərində gözlənilir: "Modul tipli xəstəxanaların fəaliyyətinə indiki dövrdə ehtiyac var. Bu xəstəxanaların açılması çox vacibdir. Hazırda bununla bağlı intensiv işlər gedir. Növbəti modul tipli xəstəxanaların Gəncə və Sumqayıt şəhərlərində açılması gözlənilir".

## Putinlə Ərdoğan koronavirusla mübarizəni müzakirə edib



Rusiya Prezidenti Vladimir Putinlə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan arasında telefon danışığı baş tutub. SİA-nın məlumatına görə, prezidentlər koronavirusla mübarizədə əməkdaşlıq məsələlərini, eləcə də postpandemiya dövründə atılacaq addımları müzakirə edib. Bundan başqa, danışıqlar zamanı Suriyadakı vəziyyət müzakirə olunub. Prezidentlər, həmçinin bir sıra regional məsələlər və ikitərəfli əməkdaşlıq məsələlər barədə danışıb.

## "Sağlam cəmiyyətin qurulması üçün korrupsiyanın kökünün kəsilməsi çox vacib amildir"



"Sağlam cəmiyyətin qurulması üçün rüşvətin, korrupsiyanın kökünün kəsilməsi çox vacib amildir". SİA xəbər verir ki, bunu "sherg.az"a açıqlamasında "Resurs" Analitik İnformasiya Mərkəzinin sədri, siyasi ekspert Rasim Quliyev deyib. Siyasi şərhçi bildirib ki, korrupsiya cəmiyyəti, dövləti daxildən çürüdən bir parazit, virusdur:

"Rüşvətin vüsət alması və dövlətin strukturlarında yayılması epidemiyanın bir növüdür. Bu, bir infeksiya, mənəvi xəstəlikdir. Ona görə də cənab Prezident korrupsiyaya qarşı qətiyyətli mübarizə nümayiş etdirir. Qeyd edim ki, hazırda korrupsiyaya qarşı mübarizədə Dövlət Təhlükəsizlik Xidmətinin önə çıxması, xüsusi əməliyyatlar keçirməsi təsadüfi deyil. Dövlət Təhlükəsizlik Xidmətinin rəhbəri hörmətli Əli Nağıyev korrupsiyaya qarşı mübarizə idarəsində müavin kimi fəaliyyət göstərib. Görünür, cənab Prezidentin tapşırığı belədir ki, korrupsiyanın real xəritəsi çıxarılsın və ilk növbədə daha çox rüşvətə bulaşanlar aradan qaldırılsın. Korrupsiyaya qarşı mübarizə prosesində həm hüquqi prosedurlar tətbiq olunur, cəzalar verilir, həm də dövlət tərəfindən maarifləndirmə işi aparılır. DTX tərəfindən keçirilən əməliyyatların mətbuatda geniş yayılması korrupsiya faktlarının ifşa olunması da məhz maarifləndirmə işinə xidmət edir".

R.Quliyev bəyan edib ki, dövlət xalqa mesaj verir ki, korrupsiyaya qarşı mübarizə ictimaiyyətin bütün təbəqələrində aparılmalıdır: "Bu, təkcə aidiyyatı qurumların vəzifəsi deyil. Cəmiyyətin də bu prosesdə iştirakı vacibdir. Cənab Prezident dəfələrlə qeyd edib ki, cəmiyyəti, dövləti içəridən parçalayan rüşvətxorluq kökündən kəsilməlidir. Hamı buna qarşı mübarizə aparmalı, heç kim rüşvətə göz yummamalıdır".

# “Sizin kimi liderimiz olduğu üçün özümüzü xoşbəxt vətəndaşlar hesab edirik”

*Prezident İlham Əliyevə vətəndaşlardan minnətdarlıq məktubları gəlməkdə davam edir*



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə vətəndaşlardan minnətdarlıq məktubları gəlməkdə davam edir. AZƏRTAC həmin məktubların daha bir neçəsini təqdim edir.**

Füzuli rayonunun 4-cü Zobucuq qəsəbəsinin sakini, şəhid ailəsinin üzvü Səadət Hüseynovayazır: “Möhtərəm cənab Prezident, koronavirus (COVID-19) pandemiyası ilə mübarizədə dövlətimizin həyata keçirdiyi mübarizə tədbirləri Azərbaycan vətəndaşı, eyni zamanda, bir mədəniyyət işçisi olaraq məni ürəkdən sevindirir. Sizi daim xalqın yanında görmək bizi fərəhləndirir. Bu təhlükəli virusun respublikamızda yayılmaması üçün gördüyünüz işlər olduqca təqdirəlayiqdir. Siz karantin rejimi dövründə mədəniyyət işçilərinə diqqət və qayğınızı əsirgəmədiniz. Karantin müddətində əməkhaqlarımız saxlanılmaqla növbədənkənar məzuniyyətə buraxılmağımız buna ən gözəl nümunədir. Füzuli Rayon Mərkəzləşdirilmiş Kitabxana Sisteminin kollektivi bütün sahələrdə olduğu kimi, pandemiyanın qarşısının alınması üçün verdiyiniz qərar və göstərişləri də dəstəkləyir, bu mübarizədə daim Sizin yanınızdadır.

Möhtərəm cənab Prezident, şəhid ailəsinin üzvü olaraq bu çətin günlərdə xalqımıza, o cümlədən biz mədəniyyət işçilərinə göstərdiyiniz qayğıya görə Sizə dərin minnətdarlığımı bildirirəm”.

Ağsu rayonunun Bənəcik kəndindən tələbə Qurban Babazadə: “Möhtərəm cənab Prezident, Planetimizi ənginə alan koronavirus pandemiyası nəticəsində bu gün dünya iqtisadiyyatı dərin böhran və çətinliklə üzləşib. Lakin Sizin verdiyiniz göstərişlər nəticəsində ölkəmizdə pandemiyanın geniş yayılmasının qarşısını almaq mümkün oldu.

Cənab Prezident, Sizin uğurlu siyasətinizin bariz nümunəsidir ki, Azərbaycanda sabitlik hökm sürür, yoluxma halları getdikcə azalır. Bu günlərdə Sizin və Mehriban xanımın xalqımıza böyük qayğınızın və dəstəyinizin şahidi olduq. Allah Sizi qorusun! Ali dövləti fəaliyyətinizdə Sizə uğurlar arzu edirik”.

Bakı şəhərinin Xətai rayonunda yaşayan şagird Murad İbadovun məktubunda deyilir: “Hörmətli cənab Prezident, mən 6-cı sinifdə oxuyuram. Hər gün onlayn şəkildə dərslərimə davam edirəm.

Cənab Prezident, bütün dünyada tüğyan edən pandemiyaya baxmayaraq, Sizin uzaqgörən siyasətiniz, verdiyiniz qərarlar sayəsində ölkəmizdə bu xəstəlik geniş yayılmadı. Sizin sayənizdə ölkəmiz normal həyata qayıdır.

Cənab Prezident, gördüyünüz işlər biz məktəblilərə çox böyük kömək və daha işıqlı gələcəyə ümid verir. Buna görə Sizə təşəkkürümü bildirirəm”.

Qubadlı rayonundan məcburi köçkünlər Dilarə Aydınova və Cavid Almuradov: “Möhtərəm cənab Prezident, məcburi köçkünlər Sizə duaçıdırlar. Həm sosial problemlərimizin həllinə, həm də pandemiya dövründə az itki verdiyimizə görə Sizə təşəkkür edirik.

Biz, Qubadlıdan olan məcburi köçkünlər Sizi və ailə üzvlərinizi özümüzə ən yaxın insanlar bilib həmişə dəstəkləmişik. Sizin yolunuzla ona görə gedirik ki, bu yolda inkişaf, tərəqqi var.

Sizin pandemiya ilə əlaqədar xalqa müraciətləriniz bizim üçün müstəsna rol oynadı. Dəyərli tövsiyələr, həmrəyliyə çağırış bizim bu xəstəliklə layiqli mübarizə aparmağımıza zəmin yaratdı. Sizə bir daha təşəkkür edirik, cənab Prezident”.

Cəbrayıl rayonundan şagird Ləman Həşimli dövlətimizin başçısına minnətdarlığını aşağıdakı sözlərlə ifadə edir: “Əziz və möhtərəm Prezident, mən orta məktəb şagirdiyəm. Gördüyünüz işləri sözlə ifadə etməkdə çətinlik çəksəm də, yenə də öz səmimi sözlərimi Sizə yazmaq qərarına gəldim. Hazırda bütün dünya koronavirusla mübarizə aparır. Hətta ən böyük dövlətlər belə bu pandemiyaya qalib gələ bilmir. Azərbaycan da koronavirusa hələ ki, tam qalib gəlməsə belə, itkilərimizin az olması, xəstəliklə səmərəli mübarizə aparmağımız şəxsən məni sevindirir. Sizə sonsuz minnətdarlığımı bildirirəm, əziz Prezidentim!”.

Bakı şəhərinin sakini Pərvanə Muradova: “Möhtərəm cənab Prezident, mən evdar xanımam. İki övladım var. Özümə borc bildim ki, Sizə təşəkkür edim. Siz bizim ölkəmizi həmişə qorumusunuz, bu gün də qoruyursunuz. Yaxşı ki, bizim Prezidentimiz Sizsiniz. Yaxşı ki, biz Sizi seçmişik. Mən bu gün də evimdə çox rahat yaşayıram. Ən əsası, ölkəmizdə əmin-amanlığı qoruyursunuz. Bizi COVID-19 bəlasından qoruyursunuz. Bütün ölkələrdə hər gün minlərlə insan bu xəstəliyə düçar olur. Amma biz Sizin səyiniz nəticəsində bu xəstəliyə demək olar ki, qalib gəlmişik. Biz bu gün də evdə qalırıq, çünki bu bizim xeyirimizədir. Çox sağ olun, əziz Prezidentimiz. Sizi çox sevirik. Allah Sizi həmişə var etsin!. Həmişə bizim arxamızda dağ kimi dayanasınız. Allah Sizi pənahında saxlasın!”.

Gədəbəy rayonundan İsmayıl Yuniszadə və Nofəl Qasımov yazırlar: “Hörmətli cənab Prezident, koronavirus pandemiyasının dünyanı ənginə aldığı bir zamanda ölkəmizin hər bir vətəndaşına göstərdiyiniz diqqət və qayğıya görə bütün gədəbəylilər adından Sizə təşəkkürümüzü bildiririk. Uca Allah Sizi və ailənizi qorusun! Siz bir daha sübut etdiniz ki, hər bir vətəndaşın xidmətindəsiniz, dar gündə xalqımızın yanındasınız. Biz Sizinlə fəxr edirik”.

Qaradağ rayonunun Qobustan qəsəbəsindən Nəzakət Rəhimova: “Möhtərəm Prezident, cənab Ali Baş Komandan, mən bir Azərbaycan vətəndaşı olaraq Sizinlə qürur duyuram. Mənim iki nəvəm var, onlar da Sizinlə fəxr edirlər. Siz ölkəmizi koronavirus pandemiyasından qorumaq üçün əlinizdən gələni əsirgəmirsiniz. Koronavirusla əlaqədar atdığınız qabaqlayıcı addımların nəticəsidir ki, hazırda ölkəmizdə insan itkisi çox azdır. Bu, Sizin sayənizdəndir. Sizə dərin təşəkkürümü bildirirəm. Mən hər gün Sizə və ailənizə dualar edirəm. Allah Sizi qorusun! Nə yaxşı ki, varsınız. İnşallah, bu bəla tezliklə bütün yer üzündən yox olar. Allah Sizi və ailənizi qorusun!”.

Masallı rayonunun sakinləri Bəhram Yaqubov, Simran Əliyev, Aydın Nuralıyev, Ülfət Məmmədov, Kinəxanım Əliyeva, İlkin Ağayev və Raci Məmmədov yazırlar: “Hörmətli cənab Prezident, Sizin uzaqgörən siyasətiniz, vaxtında verdiyiniz qərarlar nəticəsində Azərbaycan bu gün pandemiyadan ən az zərər çəkən ölkələrdən biridir. Çünki Sizin müdrik idarəçiliyiniz sayəsində ölkəmizdə bu bəlaya qarşı vaxtında səmərəli tədbirlər görüldü. Sizin və Mehriban xanımın xalqa müraciətləriniz hamını səfərbər etdi. Xüsusi karantin rejiminin tətbiqi, bu müddətdə evdə qalan şəxslərin maaşlarının verilməsi, bu mübarizədə zəhməti olan hər kəsin əməyinin qiymətləndirilməsi Sizin humanistliyinizdən irəli gəlir.

Cənab Prezident, Azərbaycan xalqı yaranan çətinliklərin öhdəsindən həmişə gəlib. Ölkəmizdə böyük uğurların əsas səbəbi liderlə xalqın birliyidir. Ən çətin vaxtlarda lider öz xalqının, vətəndaş isə öz liderinin yanındadır. İnanırıq ki, tezliklə bu narahat günlərimiz arxada qalacaq, rəhbərliyinizlə bu bəladan xilas olacağıq və ölkəmizdə həyat yenidən əvvəlki axarına düşəcək. Bu günlərdə vətəndaşlara göstərilən qayğı Sizin nə qədər güclü lider olduğunuzu nümayiş etdirir. Sizə məsuliyyətli və şərəfli işinizdə uğurlar arzulayırıq”.

Bakı şəhərinin sakini Nailə Qarayeva: “Hörmətli cənab Prezident, Siz hər bir azərbaycanlının Prezidentisiniz. Bunu belə ağır günlərdə xalqımızın yanında olmaqla bir daha sübut etdiniz. Çox təəssüflər olsun ki, bütün dünyanın bəlasına çevrilmiş COVID-19 Azərbaycanımızdan da yan keçmədi. Lakin Siz öz köməyinizi, qayğınızı bizlərdən, xalqımızdan əsirgəmədiniz. Ümummilli lider Heydər Əliyev xalqını böyük bəlalardan necə qorumuşdusa, Siz də bizi elə qoruyursunuz. Çünki Siz Ulu Öndərin layiqli davamçısısınız. Biz əminik ki, müdrik qərarlarınız sayəsində ölkəmiz koronavirus pandemiyası ilə mübarizdən üzüağ çıxacaq və biz firavan həyatımıza davam edəcəyik. Əziz Prezidentim, biz Sizinlə fəxr edirik. Tanrı Sizi və ailənizi qorusun!”.

Göygöl rayonunun sakinləri Fəridə Rəhimova, Cəmilə Zeynalova, Qədir İmanov, Zəri İbrahimova, Cəmilə İmanova, Hüseyn İbrahimov, Barat Paşayev və Şamil Həsənov yazırlar: “Hörmətli cənab Prezident.

Son zamanlar bütün dünyanı bürümüş koronavirus pandemiyası dövlətimizi də qayğılandırdı. Lakin Sizin qətiyyətiniz ölkəmizi böyük ziyanlardan qorudu. Əminik ki, Sizin rəhbərliyinizlə bu vəziyyətdən şərəflə və üzüağ çıxacağıq. Siz dövlətimizin bütün maddi imkanlarını məhz bu epidemiyanın aradan qaldırılmasına yönəltdiniz. Epidemiyaya qalib gəlmək üçün genişmiqyaslı və davamlı tədbirlər həyata keçirilir.

Hörmətli cənab Prezident, koronavirusla əlaqədar xalqımızın sağlamlığını qorumaq üçün verdiyiniz uzaqgörən qərarlarınız sayəsində dövlətimiz bu bəladan minimum itki ilə qurtulmaqdadır. Verdiyiniz tapşırıqların və qərarların nəticəsi olaraq virusun ölkəmizdə yayılmasının qarşısı alındı.

Ardı Səh. 6

# “Sizin kimi liderimiz olduğu üçün özümüzü xoşbəxt vətəndaşlar hesab edirik”

*Prezident İlham Əliyevə vətəndaşlardan minnətdarlıq məktubları gəlməkdə davam edir*

Əvvəli Səh. 5

Cənab Prezident, bizlərin sağlamlığına göstərdiyiniz diqqət və qayğıya görə Sizə minnətdarıq. Tanrı Sizi qorusun!”.

Gəncə şəhərindən müəllim Günay Abbasova: “Hörmətli cənab Prezident, Sizi Gəncə şəhər 1 saylı orta məktəbin ingilis dili müəllimi olaraq salamlayır və Sizə minnətdarlığımı bildirmək istəyirəm.

Hazırda tətbiq edilən xüsusi karantin rejimi müddətində Sizin tövsiyələrinizə uyğun olaraq evdə qalmağa davam edirik. Koronavirusla əlaqədar məktəblərimiz müvəqqəti bağlandığı üçün dərsləri də onlayn formatda keçirik. Məqsədimiz isə şagirdlərimizin evdə qaldıqları müddətdə dərslərindən geri qalmamalarıdır.

Möhtərəm cənab Prezident, COVID-19 pandemiyasının dünyanın bir sıra ölkələrində bəşəriyyət üçün necə fəlakətli nəticələr törətdiyinin şahidiyik. Buna rəğmən, Sizin uzaqgörən qərarlarınızla vaxtında görülən qabaqlayıcı tədbirlər nəticəsində koronavirusun Azərbaycanda geniş yayılmasının qarşısı alınmaqdadır. Siz bu çətin günlərdə xalqımızın sağlamlığını qorumaqla bərabər, virusa yoluxmuş vətəndaşlarımızın müalicəsi və tez bir zamanda sağalması istiqamətində də çox böyük işlər görürsünüz. Gördüyünüz bu misilsiz işlər xalqımız tərəfindən yüksək qiymətləndirilir. Pandemiya dövründə yorulmaz fəaliyyətinizlə xalqımıza göstərdiyiniz diqqət və qayğıya görə Sizə dərin minnətdarlığımı bildirirəm. Biz Azərbaycan kimi gözəl bir ölkədə yaşamağımızla fəxr edir və Sizin kimi liderimiz olduğu üçün özümüzü xoşbəxt vətəndaşlar hesab edirik. Bəşəriyyət üçün çətin bir dövrdə bizə göstərdiyiniz diqqət və qayğıya görə Sizə minnətdaram”.

Quba rayonunun sakinləri Xəzər Lalayev, Hacı Şabanov, Tərlan Abdürrəhmanov və Qəmbər Vəliyev yazırlar: “Hörmətli cənab Prezident, koronavirusla mübarizədə ölkəmiz üçün en doğru qərarları verdiniz. Sizin vaxtında və doğru qərarlarınız xalqımızı ağır itkilərdən qorudu. Uca Rəbbimizin köməyi, Sizin müdrik qərarlarınız, həkimlərimizin fədakarlığı sayəsində koronavirus təhlükəsi ölkəmizdən geri çəkilir. Biz hər zaman Sizin yanınızdayıq, necə ki, Siz hər zaman Azərbaycan xalqının yanındasınız. Əminik ki, bundan sonrakı fəaliyyətiniz, gələcək addımlarınız da xalqımızın rifahını yüksəltməyə xidmət edəcək. Biz Sizinlə fəxr edirik, cənab Prezident”.

Qazax rayonunun sakinləri Əskinaz Namazova və İlhamiyyə Əsədova yazırlar: “Hörmətli cənab Prezident, Siz bizim dəyərli, sevimli liderimizsiniz. Xalqımızı koronavirus bəlasından qoruduğunuza görə Sizi dünyalar qədər sevən analar adından minnətdarlığımızı bildiririk.

Siz bizim sağlamlığımız naminə böyük işlər görürsünüz. İşsizlərə, tənha qalanlara edilən yardımlar həm maddi, həm mənəvi kömək oldu. Siz xalqımızın xilaskarı, bütün anaların fəxrisiniz. Uca Allah Sizi və ölkəmizi bəd nəzərdən qorusun, Sizin kölgənizi xalqımızın başının üzərindən əskik etməsin!”.

Xırdalan şəhərinin sakini Rauf Rəhimovun məktubunda deyilir: “Hörmətli cənab Prezident, bəşəriyyəti cənginə almış koronavirusla mübarizədə dünyanın aparıcı dövlətləri belə çətinliklərlə üzləşiblər. Sizin iqtisadi və siyasi sahələrdə yürütdüyünüz düzgün və məqsədyönlü siyasət, həyata keçirilən qətiyyətli və qabaqlayıcı tədbirlər xalqımızın bu bəladan az itkilərlə çıxmasına zəmin yaratdı. Əminik ki, dünyanı cənginə alan xəstəlikdən tezliklə qurtulacağıq. Ölkə əhalisinə göstərdiyiniz maddi və mənəvi dəstəyə görə Sizə təşəkkür edirik. Allah xalqımızı bəlalardan qorusun! Sizə uzun ömür, cansağlığı arzu edirik”.





Ağdam rayonundan Eldəniz Mustafayev, Sadiq Süleymanov, İlqar Cəfərov və Rəyis Həsənov yazırlar: “Hörmətli cənab Prezident, dünyanın koronavirus qarşısında aciz qaldığı bir dövrdə Sizin müdrikliyiniz və yüksək idarəçilik bacarığınız sayəsində Azərbaycan bu bəladan qurtulmaqdadır. Bütün dünya ölkəmizdə xalqın iqtidara olan inamını və rəhbərliyə olan sevgisini, etibarını gördü. Bu ağır dövrdə Sizin rəhbərliyinizlə bütün qurumlar var gücü ilə çalışdı.

Rayonumuzun sakinləri xüsusi karantin rejimi dövründə qoyulan qaydalarına ciddi riayət etdilər, bu müddətdə xüsusi diqqət və qayğı ilə təmin olundular. Bütün bunlara görə, cənab Prezidentimiz, başda Siz olmaqla, əməyi keçən hər kəsə dərin minnətdarlığımızı bildirir, Sizə ölkəmizin inkişafı naminə fəaliyyətinizdə bol- bol uğurlar arzulayırıq”.

Siyəzən rayonunun Həmyə kəndindən Nəzrin İskəndərova: “Cənab Prezident, Sizin rəhbərlik etdiyiniz ölkənin vətəndaşı olmaqdan, doğma Azərbaycanımızda yaşamaqdan qürur duyuram.

Azərbaycan xalqının sağlamlığı və ölkəmizin təhlükəsizliyi üçün gördüyünüz tədbirlər, vətəndaşlarımızın rifahı naminə aparılan işlər təqdirəlayiqdir. Xüsusi karantin rejiminin tətbiqi, kütləvi və ictimai yerlərdə bir müddət qadağaların və məhdudiyyətlərin olması öz səmərəsini verdi. Bu tədbirlər koronavirusun ölkəmizdə geniş yayılmasının qarşısının alınmasında həlledici oldu. İnanıram ki, həmin qadağa və məhdudiyyətlər tədricən aradan qaldırıldıqdan sonra da vətəndaşlarımız virus təhlükəsinə qarşı ayıq-sayıq olacaq, həssas davranacaqlar. Çünki hamımız başa düşürük ki, bu, koronavirusa qarşı mübarizədə uğurumuzun əsas şərtidir. Cənab Prezident, bu çətin mübarizə dönəmində gördüyünüz çoxsaylı təqdirəlayiq işlərə görə Sizə minnətdarlığımı bildirirəm”.

Hacıqabul rayonunun Atbulaq kəndinin sakini Babək Ramazanov: “Hörmətli cənab Prezident, COVID-19 pandemiyası ilə əlaqədar gördüyünüz işlərə görə Sizə həm öz adımdan, həm də ailəm adından dərin təşəkkürümüzü bildiririk. Cənab Prezident, dünya iqtisadiyyatının demək olar ki, çökdüyü bir dövrdə Azərbaycan vətəndaşının sağlamlığını düşünərək atdığınız addımları hər bir vətəndaş kimi biz də yüksək qiymətləndiririk. Pandemiya ilə əlaqədar olaraq qısa zamanda yeni laboratoriyaların quraşdırılması, süni nəfəs aparatlarının ölkəmizdə gətirilməsi, həmçinin qoruyucu tibbi maska və sport istehsalı müəssisələrinin istifadəyə verilməsi, ölkə vətəndaşlarının bu məhsullara olan tələbatının yerli istehsal hesabına ödənilməsi Sizin siyasətinizin növbəti uğurudur. Həmçinin pandemiya ilə əlaqədar işsiz qalan vətəndaşlara birdəfəlik ödənişin edilməsi Azərbaycan vətəndaşına verdiyiniz yüksək qiymətin əyani sübutdur. Bu gün hər bir vətəndaş tam əmindir ki, Azərbaycan Prezidenti daim onun yanındadır və daim onu düşünür.

Cənab Prezident, sağlamlığımız üçün atdığınız bütün addımlara görə bir daha Sizə dərin minnətdarlığımızı bildirir, Uca Tanrıdan sağlam və uzun ömür diləyirik. Allah Sizi və ailənizi qorusun!”.

# Politoloq: "ABŞ Prezidenti beynəlxalq təhlükəsizlik məsələləri ilə bağlı Azərbaycanın siyasətini dəstəkləyir"

***Prezident İlham Əliyevin videokonfans şəkildə növbəti görüşü texnologiya sahəsində dünyanın nüfuzlu şirkətlərindən CISCO-nun rəhbərləri ilə oldu. Görüş zamanı şirkət rəsmisi ölkəmizə xoş münasibətini ifadə edərək Azərbaycan Prezidentinin liderlik keyfiyyətlərini yüksək qiymətləndirdi.***



Bu fikirləri AZƏRTAC-a açıqlamasında politoloq Tofiq Abbasov bildirib. Diqqətə çatdırıb ki, CISCO şirkətinin icraçı vitse-prezidenti və baş maliyyə direktoru xanım Kelli Kramer Prezident İlham Əliyevin COVID-19 virusu ilə əlaqədar gördüyü işlərdən məmnunluqla danışaraq təqdir edib. Həmçinin Azərbaycan rəhbərinin Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının toplantısında və Qoşulmama Hərəkatının görüşünün təşkil edilməsində liderlik səyləri nümayiş etdirdiyini vurğulayıb.

Politoloq xatırladıb ki, Azərbaycan ilə ABŞ arasında əlaqələrin əsası ümummilli lider Heydər Əliyevin dövründə qoyulub. Məhz həmin dövrdə ABŞ-ın iri şirkətləri Xəzər dənizinə investisiya qoymağa başlayıblar. Ulu Öndərin irəli sürdüyü enerji strategiyası təkcə Azərbaycan üçün deyil, digər ölkələr üçün də strateji əhəmiyyət kəsb edirdi. ABŞ ilə Azərbaycan arasında enerji strategiyasının ikinci mərhələsi Prezident İlham Əliyev tərəfindən reallaşdırılıb. "Biz bu gün görürük ki, müasir dövrdə Avropanın enerji təhlükəsizliyi Azərbaycanın hesabına təmin olunur. Hazırda "Cənub Qaz Dəhlizi" layihəsi üzərində iş gedir. Prezident İlham Əliyevin gələcəyə hesablanmış baxışları, ideyaları, strateji prioritetləri bu gün özünü doğruldur. Ölkədə aparılan islahatlar nəticəsində əlverişli iqtisadi zona yaranır, biznes mühiti şəffaflaşır.

Düşünürəm ki, dünyanın supergücləri ilə dostluq etmək, onlarla düşmənçilik etməkdən daha çətindir. Azərbaycan suveren ölkə kimi müstəqil siyasət yürüdərək öz baxışlarını ortaya qoyur. ABŞ Prezidenti beynəlxalq təhlükəsizlik, enerji təchizatının şaxələndirilməsi, aparılan islahatlarla bağlı Azərbaycanın siyasətini dəstəkləyir", - deyə Tofiq Abbasov vurğulayıb.

O əlavə edib ki, D.Tramp Azərbaycanın beynəlxalq aləmdə rolunu yüksək qiymətləndirir və Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsində ölkəmizi dəstəkləyir. ABŞ-Azərbaycan münasibətləri yeni inkişaf mərhələsinə qədəm qoymaq üzrədir. Bunu ABŞ Prezidenti Donald Trampın 28 May - Respublika Günü ilə bağlı Azərbaycan Prezidentinə təbrik məktubunda yer alan fikirlər və CISCO şirkətinin rəhbərlərinin görüşü də təsdiqləyir. ABŞ rəhbərinin səciyyəvi məzmunda məktubu onu deməyə əsas verir ki, ABŞ Azərbaycanı özünün etibarlı tərəfdaşı kimi görür və adekvat, rasional siyasət yürüdən bir ölkə kimi dəyər verir. D.Tramp bir sıra mühüm məqamlara toxunaraq ölkəmizin rəhbərinə, onun apardığı siyasətə, əməkdaşlıq əlaqələrinə mühüm əhəmiyyət verir. Məktubda Azərbaycanın dövlət suverenliyi xüsusi vurğulanır.

"Hər bir ölkənin xarici siyasətindəki uğurlar onun daxilindəki uğurlarının davamıdır. Azərbaycan dövlətinin rəhbəri dünyada gedən proseslərə aktual baxışları ilə başqalarından fərqlənir. Azərbaycan Prezidenti hər zaman çıxışlarında, bəyanatlarında bildirib ki, dövlətimizin əsas qayəsi sülhün, əmin-amanlığın bərqərar olmasıdır. İlham Əliyev şəxsi nümunə göstərərək hətta ən çətin şəraitdə belə təşəbbüskarlığın, yaradıcılığın mümkünlüyünü və gərəkli olmağın zəruriliyini göstərdi. Məhz bu səbəbdən Azərbaycan Prezidentinin liderlik keyfiyyətləri dünya miqyasında yüksək qiymətləndirilir", - deyə politoloq fikrini yekunlaşdırıb.

# Eldar İbrahimov: "Azərbaycan-ABŞ münasibətləri strateji tərəfdaşlığa əsaslanır və bu istiqamətdə inkişaf edir"

***"Azərbaycan-ABŞ münasibətləri strateji tərəfdaşlığa əsaslanır və bu istiqamətdə inkişaf edir. 28 May Respublika Günü münaibətilə ABŞ Prezidenti Donald Trampın Azərbaycan Prezidenti İlham Əliyevə göndərdiyi təbrik məktubunda da ölkələrimiz arasında əlaqələrin əhəmiyyəti vurğulanır". Bu fikirləri Milli Məclisin İntizam komissiyasının sədri, YAP İdarə Heyətinin üzvü Eldar İbrahimov deyib.***



Eldar İbrahimov bildirib ki, təbrik məktubunda Birləşmiş Ştatların Azərbaycanın suverenliyini və müstəqilliyini güclü şəkildə dəstəklədiyinin vurğulanması, eləcə də beynəlxalq təhlükəsizliyi gücləndirmək, Avropanın enerji marşrutlarını və mənbələrini şaxələndirmək sahəsində əməkdaşlığın xüsusi qeyd olunması böyük əhəmiyyət kəsb edir. Onun sözlərinə görə, 2001-ci ilin sentyabrında ABŞ-da törədilən terror hadisəsindən sonra Azərbaycan Birləşmiş Ştatlara tam dəstəyini ifadə edib: "Bu gün də beynəlxalq antiterror koalisiyasında Azərbaycan hərbçiləri ABŞ əsgərləri ilə çiyin-çiyinə terrorizmə qarşı birgə mübarizə aparırlar. Azərbaycanın terrorizmə qarşı mübarizədə öz logistik imkanlarını ortaya qoyaraq ABŞ-a xüsusi dəstək verməsini nəzərə alsaq, bu, münasibətlərimizin nə dərəcədə əhəmiyyətli olmasına dəlalət edir".

YAP İdarə Heyətinin üzvü qeyd edib ki, belə yüksək səviyyədə formalaşmış münasibətlərlə yanaşı, Azərbaycanın ABŞ-dan öz gözləntiləri var və bu gözləntilər içərisində ən əsası Birləşmiş Ştatların Azərbaycan ərazisinin bir hissəsinin işğal altında olmasına münasibətidir: "ABŞ Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasında səylərini daha da artırmalıdır. ABŞ-ın ATƏT-in Minsk qrupunun həmsədri kimi fəaliyyəti əlaqələrimizə ciddi təsir edən amildir. Vaxtilə Ümummilli Lider Heydər Əliyevin təşəbbüsü ilə ABŞ-ın Minsk qrupunun həmsədrlərinin tərkibinə daxil edilməsi üçün böyük iş görülüb ki, bu qurumun daxilində obyektivlik, balanslaşdırılmış düzgün siyasət daha qabarıq şəkildə özünü göstərsin. ABŞ Prezidentinin təbrik məktubunda Azərbaycanın suverenliyinin dəstəkləndiyinin vurğulanması bu ölkənin münaqişənin həlli istiqamətində daha fəal olacağına ümid verir".

Millət vəkili həmçinin, Azərbaycanla ABŞ arasında iqtisadi, ticari və enerji layihələrinin reallaşmasında əməkdaşlığının da əhəmiyyətini vurğulayıb.

## "Aşınmış qurumun Azərbaycana verə biləcəyi heç nə yoxdur"

Son günlər "Milli Şura" ətrafında baş verənlər bu qurumun mənəvi cəhətdən nə qədər deqradasiyaya uğradığını bir daha göstərir. Bu sözləri SİA-ya mü- sahibəsində siyasi şərhçi Azər Həsrət deyib. Siyasi şərhçi qeyd edib ki, bu adamlar çox ciddi qlobal problemlər müzakirə olunmaqda ikən durub hansısa cinsi azlıqlar məsələsini gündəmə gətirirlər və bunun ətrafında müzakirə aparırlar, biriləri küsür, ayrılır, başqaları cinsi azlıqları müdafiə etməklə məşğul olur.

"Açığını deyim ki, Azərbaycan siyasi gündəminin belə bir problemi olmadığı hal- da bunlar niyə məhz belə bir mövzuya yön veriblər, bunu anlamaqda çətinlik çəkirəm. Yəni, bu saat dünya, eləcə də Azərbaycan koronavirus pandemiyasının müzakirəsi ilə məşğuldur. Yəni, bu bəladan necə qurtulmağın yolları haqqında müzakirələr apa- rılır. Hakimiyyətdə, müxalifətdə olmasından asılı olmayaraq hər kəs xalqımızın, dün- yanın bu bəladan qurtulması üçün çalışmaqdadır. Yəni, insanlar demək olar ki, bütün işlərini kənara qoyub, məhz bu problemlə məşğuldurlar. Amma bu "Milli Şura" adla- nan qurumun başında duran yaşlı-balı adamların müzakirə etdiyi cinsi azlıqlar kimi mövzulara baxın. Heç Amerikada, Avropada belə bu məsələlər müzakirə olunmur ki, oralarda bu məsələlərin müzakirəsi adi haldır. Azərbaycan cəmiyyətinin isə belə bir dərdi, belə bir problemi yoxdur. Ümumiyyətlə, belə bir istəyi yoxdur ki, cinsi azlıqlar müzakirə olunsun. Bunlarsa müzakirə açırlar. Görünür, bütün vasitələri tükənib. Gö- rünür özlərinə diqqət cəlb etmək üçün kontingent, yeni kontingent axtarışındadırlar və təbii ki, əvvəlki kontingentləri aldatdıqlarına görə, ümidlərini doğrultmadıqlarına görə onlardan əllərini üzüblər, yeni contingent axtarışındadırlar və eyni zamanda da xüsu- sən də Qərb ölkələrində bu tip məsələlərə həssas olan böyük pullara sahib mərkəz- lərin diqqətini cəlb etmək istəyirlər. Əlbəttə ki, belə bir aşınmış, deqradasiyaya uğra- mış siyasi təşkilatın Azərbaycana verə biləcəyi heç bir şey yoxdur. Ona görə də on- lar lağlağa obyektinə çevriliblər. Mən social mediada görürəm ki, onların videoları paylaşılır, ətrafında da həqiqətən də xoş olmayan müzakirələr gedir. İndi bu adamla- ra bu xoşdursa, belə müzakirələrə səbəb olmaq davam etsinlər. Yəni, biz qarışmırıq. Sadəcə olaraq onu deyə bilərik ki, belə bir siyasi qurum mövcud deyil. Sadəcə ola- raq bu, hansısa üç-beş blogerin bir klubudur, onlayn fəaliyyət göstərən klubu ki, ara- sıra ortalığa bir mövzu atıb özlərini gülünc vəziyyətə qoyurlar", deyə Azər Həsrət bil- dirib.

## Elmar Məmmədyarov həmsədrlərlə videokonfrans formatında görüş keçirib





Mayın 18-də Azərbaycan Respublikasının Xarici İşlər naziri Elmar Məmmədyarov ATƏT-in Minsk qrupunun həmsədrləri, İqor Popov (Rusiya), Stefan Viskonti (Fransa) və Endryu Şafer (ABŞ) və ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi Anji Kaspşik ilə videokonfrans formatında görüş keçirib. Görüşdə, həmçinin Fransa və ABŞ-dan olan həmsədrlərin köməkçiləri iştirak ediblər.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, görüşdə tərəflər Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsi prosesinin cari vəziyyətini, eləcə də qarşıdan gələn aylarda, qlobal pandemiya sonrası atılacaq addımları müzakirə ediblər. Tərəflər pandemiya zəiflədikdən sonra Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin Minsk qrupu həmsədrlərinin vasitəçiliyi ilə növbəti görüşünün keçirilməsi vaxtının və yerinin müəyyən edilməsi üzrə razılaşıblar.

## Xarici ali təhsil ixtisasının ölkədə tanınması və nostrifikasiyası necə olacaq?



Xarici ali təhsil ixtisasının ölkəmizdə tanınması və nostrifikasiyası qaydaları ilə bağlı əsas məqamlar açıqlanıb. Təhsil Nazirliyindən "Report"a verilən məlumata görə, xarici ali təhsil ixtisasının ölkədə tanınması və nostrifikasiyası üçün Təhsildə Keyfiyyət və Təminatı Agentliyinə müraciət edilməlidir.

Ərizələrin qəbulu yalnız elektron qaydada www.tkta.edu.az internet səhifəsi vasitəsilə həyata keçirilir. İnternet səhifəsində "Nostrifikasiya - Tələb olunan sənədlər" bölməsində müvafiq sənədlərin siyahısı və yüklənmə qaydası barədə məlumat verilir.

Proses zamanı rast gəlinən hər hansı problemlə bağlı şəxsiyyət vəsiqəsinin FİN kodu qeyd edilməklə,esupport-@tkta.edu.az ünvanına müraciət etmək olar.

Agentliyin fəaliyyəti istiqamətində dövlət xidmətlərinin göstərilməsini təmin etmək üçün 31 may tarixinədək müraciətlər 146-1 Telefon Məlumat Mərkəzi, eləcə də qebul@tkta.edu.az və ya info@tkta.edu.az elektron poçt ünvanarı vasitəsilə cavablandırılacaq. Vətəndaşların Agentliyin internet saytının (www.tkta.edu.az) "Nostrifikasiya" və "Mütəmadi verilən suallar" bölmələri ilə tanış olması tövsiyə olunur.

## Ünvanlı sosial yardım özünüməşğulluq proqramına inteqrasiya olunacaq



Ailələr ünvanlı dövlət sosial yardım almaq üçün müraciət etdikdə onların evlərinin maddi-məişət şəraitinin müayinəsi artıq həm də Dövlət Məşğulluq Xidmətinin yerli nümayəndələri ilə birlikdə keçiriləcək. SİA-nın məlumatına görə, bunu Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Sosial təminat siyasəti şöbəsinin müdiri Babək Hüseynov deyib.

Bu məsələnin "Ünvanlı dövlət sosial yardım haqqında" qanuna dəyişikliklərin edilməsi məqsədilə hazırlanan təkliflər layihəsində öz əksini tapdığını deyən B.Hüseynov qeyd edib ki, təklif edilən dəyişikliyə əsasən, artıq ünvanlı sosial yardım özünüməşğulluq proqramı ilə vəhdət təşkil edərək ona inteqrasiya olunacaq:"Ailələr sosial yardım üçün müraciət etdikdə onların evlərinin maddi-məişət şəraitinin müayinəsi zamanı vətəndaşın özünüməşğulluğa cəlb edilmə imkanları da qiymətləndiriləcək. Əgər ailənin hər hansı üzvünün belə bir imkanı olarsa, ona təklif ediləcək ki, ünvanlı sisial yardımla bərabər özünüməşğulluq proqramına cəlb edilsin. Belə şəxslər layiqli əməklə məşğul olmaqla gəlirlərini artıra biləcəklər".

# “Gaygate” hadisələri “Milli Şura”nı necə parçalayır?..



**Vüqar Rəhimzadə,**
***Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvü, “İki sahil” qəzetinin baş redaktoru Yaxud məlum biabırçı onlayn iclas özlərini demokrat adlandıranların əxlaq və mənəviyyatdan uzaq olduqlarını bir daha nümayiş etdirdi***

***Məlum olduğu kimi, bir neçə gün öncə özünü Demokratik Qüvvələrin “Milli Şura”sı adlandıran amorf qrup “Zoom” proqramı üzərindən onlayn iclası keçirmişdi. Həmin iclasdan sosial şəbəkələrdə yayılan müxtəlif kadrlardan aydın şəkildə görünür və eşidilirdi ki, “Milli Şura”nın Koordinasiya Mərkəzinin üzvləri Gültəkin Hacıbəyli və Rafiq Manaflı açıq şəkildə ReAL və Müsavat partiyalarını və onların rəhbərliyini, eləcə də onları ifşa edən, eyiblərini aşkara çıxaran digər müxalifət düşərgəsindən olan bir sıra şəxsləri təhqir edirlər.***

Videoda “Milli Şura”nın Koordinasiya Mərkəzinin üzvü Gültəkin Hacıbəyli AXCP sədri Əli Kərimlinin tapşırığı ilə Qabil Məmmədovu və İsmayıl Cəlilovu təhqir edir. Oxuculardan üzr istəyərək yeri gəldi-gəlmədi başqalarına əxlaqdan, mənəviyyatdan moizə oxuyan bu xanımın etikadan, mədəniyyətdən kənar həmin sitatını diqqətə çatdırmaq istəyirəm: “Qərbin bir nömrəli prioriteti bu azlıqların hüquqlarıdır, bu üzdəniraqlardır. Ona görə də onlara çox həssas yanaşırlar. İsmayıl Cəlilovun səhifəsinə baxın, facebookda profili var, orda nə şüvənlik edir. Deməli, Xalq Cəbhəsinin tərəfdarı Eldəniz Quliyev bizi belə elədi, Xalq Cəbhəsinin tərəfdarı Qabil Məmmədov belə elədi. Bizi qoruyun Əli Kərimlinin əlindən, bizi qoruyun cəbhənin əlindən, cəbhə bizi öldürür, cəbhə bizi məhv edir, cəbhənin əlacı olsa, ölkədəki bütün üzr istəyirəm, geyləri yığar yandırar, öldürər. Çox-çox üzr istəyirəm deyir, mən və ərim neçə günlərdir bu statusa görə dəhşətli stress yaşayırıq özümüzə gələ bilmirik... Qabildi, Qalibdi nədi o yaramaz gədənin adı. Onun nə aidiyyatı var Xalq Cəbhəsinə”.

“Milli Şura”nın Koordinasiya Mərkəzinin digər üzvü Rafiq Manaflı isə Gültəkin Hacıbəylinin sözlərini qüvvətləndirmək üçün İsmayıl Cəlilovu təhqir edir və deyir ki, Gültəkin xanım, mən çox təəssüflənirəm ki, 1941-1945-ci illərdə Hitler o geyləri qırıb qurtarmadı.

Məsələnin ən maraqlı tərəfi isə o idi ki, bütün bu təhqirləri “Milli Şura”nın sədri Cəmil Həsənli və Qənimət Zahid sakitcə dinləyir və gülürdülər. Məhz həmin videoya diqqətlə baxdıqda bir daha anlaşılır ki, orada çıxış edənlər öz danışıq səviyyələri ilə bütün əxlaqi və mənəvi dəyərləri tapdalayırlar. Bu video Cəmil Həsənlinin, Gültəkin Hacıbəylinin, İbrahim İbrahimlinin, Vahid Məhərrəmlinin, Eldəniz Quliyevin, Vidadi Mirkamalın, Rafiq Manaflının və başqalarının ümumilikdə mənəvi dünyasını, heç bir mənəviyyata, əxlaq çərçivəsinə sığmayan təhqirləri ilə Azərbaycan xalqına hörmətsizliklərini nümayiş etdirirdi. Bunlar həmin şəxslərdirlər ki, yeri gəldi-gəlmədi həmişə başqalarına əxlaq dərsi keçirlər. Bunlar həmin şəxslərdirlər ki, Azərbaycana “demokratiya” gətirmək istədiklərini bəyan edirlər. Bunlar həmin şəxslərdirlər ki, Əli Kərimli öz avantürist, qaragüruhçu siyasətində onlara arxalanır. Bunlar həmin şəxslərdirlər ki, hər gün Qənimət Zahidin və Sevinc Osmanqızının youtube kanallarında “ekspert” qismində çıxış edirlər. Məhz bu video ilə bir daha bəlli oldu ki, üzdəniraq “Milli Şura”, onun rəhbərliyi, AXCP, Əli Kərimli, Sevinc Osmanqızı və Qənimət Zahid kimdirlər, hansı düşüncənin sahibidirlər, onların mənəviyyatları, əxlaqları hansı səviyyədədir... Bir anlıq fərz edək ki, bu cür düşüncə sahibləri hakimiyyətə gəlirlər və o zaman bu dövlətin və xalqın taleyi necə olar?

Məsələnin ən maraqlı tərəfi odur ki, “Milli Şura”nın onlayn iclasında Gültəkin Hacıbəylinin və Rafiq Manaflının təhqirləri bütün Azərbaycan ictimaiyyətində olduğu kimi, müxalifət düşərgəsində də kəskin etirazla qarşılanıb. “Oyan” Hərəkatının konsullarından biri Nahid Cəfərov, ABŞ-da yaşayan müxalifyönlü jurnalist İsmayıl Cəlilov, mühacir Ali Oğuz, bir zamanlar onlarla eyni düşərgədə olan Xədicə İsmayıl və başqaları Gültəkin Hacıbəylini qınayıblar. Hətta, Xədicə İsmayıl “Milli Şura”nı salam verilməyəcək qrup adlandırıb. Nahid Cəfərov “Milli Şura”nı ələ salaraq deyib ki, “bu adamlar xalqı demokratiyaya aparırmışlar.” Ali Oğuz Qabil Məmmədova yönəlik qeyd edib ki, “Ay Qabil, dədən Cəmil, bacın Gültəkin, atan Əli səndən imtina etdi”.

Diqqəti daha çox cəlb edən məqamlardan biri də odur ki, qondarma “Milli Şura”nın onlayn iclasında Gültəkin Hacıbəylinin və Rafiq Manaflının ədəbsiz sözlər işlətmələri, insanları təhqir etmələri Əli Kərimlinin başçılıq etdiyi marginal qrupu da çaş-baş salıb. “Facebook” hesabında əvvəlcə üzr istəyən Gültəkin Hacıbəylidən sonra Cəmil Həsənli və Sevinc Osmanqızı 180 dərəcəlik dönüş etməklə iddia ediblər ki, guya bu, kibercinayətdir. Lakin belə bir gülünc iddianın ortaya atılması da onları xilas etmədi və növbəti dəfə savadsızlıqlarının, məntiqsizliklərinin göstəricisi oldu. Çünki birincisi, “Zoom” vasitəsilə “Milli Şura”nın iclasının canlı yayımlandığını Qənimət Zahid deyib. İkincisi, bu videonu 6 saat öncə “Facebook”dakı “Mozalan”, 5 saat əvvəl İsmayıl Cəlilov yayıb, YAP Gənclər Birliyi isə 1 saat öncə. Yəni, bu üzdəniraq “siyasətçi”lərin düşüncələrində adi mühakimə yürütmək qabiliyyəti belə yoxdurmu ki, məntiqə söykənib sadə müqayisə aparsınlar? Üçüncüsü, kim zəmanət verə bilər ki, sözügedən videonu “Milli Şura”nın daxilində söz sahibi olmaq üçün hətta biri-birini didib-parçalamağa hazır olan, satqınlıq, işverənlik canlarına, qanlarına hopmuş qruplar yaymayıblar? Axı, satqınlıq, işverənlik, biri-birinin ayağının altını qazmaq işi-peşəsi xaricdəki ağalarına danos ötürmək olan “beşinci kolon”un iş prinsipidir. Və yaxud da kimi inandırmaq olar ki, “Milli Şura” içərisində çevriliş etmək istəyənlər Cəmil Həsənlini və Əli Kərimlini oradan uzaqlaşdırmaq üçün belə bir plan qurmaq fikrinə düşməyiblər?..

Göründüyü kimi, suallar çox, cavablar isə hələlik yoxdur. Amma bütün bunlara rəğmən görünən odur ki, elə gözlənildiyi kimi, dağıdıcı müxalifət düşərgəsinin baş qaragüruhçusu Əli Kərimlinin əsas məqsədi kimlərisə kibercinayətkarlıqda suçlandırmaq olan növbəti kiberhücum tezisləri də işə yaramadı... Əvəzində isə kumirini vəziyyətdən çıxarmağa çalışan Əli Kərimlinin əsas təbliğat ruporu Sevinc Osmanqızı canlı yayımda Gültəkin Hacıbəylinin İsmayıl Cəlilovun ünvanına söylədiyi təhqirlərə haqq qazandırıb, eyni zamanda, İsmayılın bu təhqirlərə layiq olduğuna eyham vurdu. Sevinc Osmanqızı, həmçinin İsmayıl Cəlilovun LGBT üzvü olması faktını ələ saldı və israrla dedi ki, “Milli Şura” rəhbərliyi İsmayıl Cəlilovu təhqir etməkdən əsla çəkinməməlidir, əksinə irəli getməlidir. Bununla da əslində, “təhqir maşını”funksiyasını “məharətlə” yerinə yetirən Sevinc Osmanqızı söyüşə, böhtana meyilli olduğunu Gültəkinin ədəbsizliyinə dəstək verməklə bir daha nümayiş etdirdi.

Beləliklə, “Gaygate” hadisəsinin qondarma “Milli Şura”nın dəfn üçün hazır olan tabutunun son mismarına çevrilə biləcəyi artıq hər kəsə bəllidir. Təhqiri kiberhücumla əvəzləmək hoqqabazlığı da elə AXCP sədri Əli Kərimlinin planı idi. Məhz bu antimilli ünsürün tapşırığından sonra onun sözçüləri- Cəmil Həsənli, Gültəkin Hacıbəyli, Sevinc Osmanqızı, Qənimət Zahid guya qapalı iclasa kiberhücum olması haqqında yalanlar danışmağa başladılar. Lakin burada Əli Kərimli özü də bilmədən başqa çox kobud bir səhvə yol verdi və onlayn iclasda təhqir olunmuş Qabil Məmmədova da məsələni pərdələməyi, təhqirə reaksiya verməməyi tapşırdı. Maraqlıdır ki, dağıdıcı düşərgənin baş qaragüruhçusu Əli Kərimli sözügedən iclasın videosunu isə özünün təbliğat ruporlarından biri olan Fatimə Mövlamlı vasitəsilə “söyüş mühaciri” yarlığını qazanmış Məhəmməd Mirzəliyə göndərib. Öz növbəsində Məhəmməd Mirzəli də həmin videonu olduğu kimi Qabil Məmmədova “Facebook” vasitəsilə çatdırıb. Savadsız, səviyyəsiz, bacarıqsız, leksikonu yalnız təhqirlə, söyüşlə zəngin olan Qabil Məmmədov isə, necə deyərlər, tapşırığı üzünə-gözünə bulaşdırıb. Maraqlıdır ki, bu səviyyəsiz ünsür həmin təhqir videosunu canlı yayımda nümayiş etdirərkən heç özü də bilmədən tapşırığın kimdən gəldiyini də göstərib.

Bununla da Əli Kərimlinin növbəti manipulyasiya cəhdi ifşa edilib. Amma bu hadisədə ortaya çox maraqlı suallar da çıxdı. Məsələ burasındadır ki, “Gaygate” hadisələrinə qədər cəbhə trolları və elə Əli Kərimlinin özü deyirdi ki, guya Qabil Məmmədovu tanımırlar və onunla heç bir əlaqələri yoxdur. İndi, necə deyərlər, artıq xoruzun quyruğu görünməkdədir. Yalançılqda, başqalarına böhtan atmaqda mahir olan Əli Kərimli bir qayda olaraq “daş atıb başını tuturdu” ki, AXCP-də, “Milli Şura”da söyüş və təhqir yoxdur. Bəs belə isə söyüşün, təhqirin birinin, necə deyərlər, bir qəpik olduğu qondarma “Milli Şura”nın sonuncu onlayn iclasında baş verən “Gaygate” hadisələri kimin ayağına yazılmalıdır? Görünən odur ki, qaragüruhçu Əli Kərimli və onun özünəbənzər ətrafı nə qədər “sudan quru çıxmağa” çalışsalar da özlərini növbəti dəfə ifşa etdilər və ictimaiyyət kimin kim olduğunu gördü.

“Gaygate” hadisələri bir maraqlı məqamı da üzə çıxardı. Məlum oldu ki, Əli Kərimlinin və ətrafının indiyədək Müsavat Partiyası ilə eyni düşərgədə olmaları barədə dedikləri gözə kül üfürməkdən başqa bir şey deyilmiş. Sözügedən videoda Gültəkin Hacıbəyli və Cəmil Həsənli Müsavat Partiyasını, necə deyərlər, “ağ yuyub qara sərdilər”. G.Hacıbəyli çıxışında qeyd etdi ki, bəziləri tənqidçilik ruhunu itirməmək üçün vaxtaşırı olaraq onların üzərində sınaqlar aparırlar: “Bunlardan biri də Müsavat Partiyasıdır. Ölkədə yaşanan bu cür dəhşətlərdən heç nə yazmırlar. Amma kütləvi şəkildə Eldəniz bəy məsələsinə görə bizim üstümüzə hücuma keçiblər. Mustafa Hacılı bu gün sərsəm bir yazı yazıb. Bildirir ki, Əli Kərimlinin internet məsələsini ona görə diqqətə gətirirlər ki, Tofiq Yaqublunun həbsi arxa plana keçsin. Guya ki, Müsavat Tofiq Yaqublunu bu qədər çox sevir. Bu, riyakarlıqdan başqa bir şey deyil. Məqsəd sadəcə Əli bəyi gözdən salmaqdır. Bu gün onun yubileyidir. 55 yaşı tamam olur. Bu yaramazlar da onun üzləşdiyi təqiblərə heç bir dəstək vermirlər. İndi guya ki, Tofiq bəyin hüquqlarının müdafiəçisi olublar. Çox biabırçı yanaşmadır. Hesab edirəm ki, ReAL-ın aqibəti aşağı-yuxarı səviyyədə Müsavat Partiyasını da gözləyir”.

Qondarma “Milli Şura”nın qondarma sədri Cəmil Həsənli isə G.Hacıbəylinin sözlərinə belə reaksiya verib: “Burada belə bir fərq var. Yenə ReAL nəyisə əldə edib o vəziyyətə düşüb. Bu bədbəxtlər heç nə etməyib o vəziyyətə düşüblər.” G.Hacıbəyli isə C.Həsənliyə mühacir məsələsi ilə bağlı xatırlatma edib: “Bunlar da mühacir alverindən nəsə etmişdilər. Gəlin küçümsəməyək. Bunların da Avropada əldə etdikləri çox idi”.

Onlayn iclasda Müsavatın ünvanına səsləndirilən təhqir dolu ittihamlara əks düşərgədən gələn reaksiyalar göstərir ki, dağıdıcılar arasında qarşıdurmanın gedişində “bu xəmir hələ çox su aparacaq.” Məsələ burasındadır ki, Müsavat Partiyası başqanının müavini Səxavət Soltanlı yayılan videoda Müsavatın ünvanına işlədilən ifadələrə görə Cəmil Həsənlinin üzr istəməsini tələb edib: “Bunların iclaslarına, etdikləri müzakirələrə, ritorikalarına diqqət edin. Mən əlavə şərh etmək istəmirəm. Digərlərinin işi-gücü Müsavata qarşı şər-böhtan danışmaq və yaymaq olduğu üçün, faktiki Müsavata qarşı trolluqla məş-

# "Gaygate" hadisələri "Milli Şura"nı necə parçalayır?..

ğul olduqlarından onlarla işim yoxdur. Bir daha Cəmil Həsənlidən Müsavat Partiyasından üzr istəməsini tələb edirəm!".

Qondarma "Milli Şura"nı onlayn toplantıda baş verənlərə görə ittiham edənlərdən və Cəmil Həsənlini üzr istəməyə çağıranlardan biri də Müsavat Partiyasının başqanı Arif Hacılı oldu. O, özünün "Facebook" hesabında yazdığı statusda bununla bağlı bildirir: "Milli S?ura Koordinasiya Mərkəzindəki mu?zakirələr bu qurumun bəyan etdiyi demokratik dəyərlərə ho?rmətlə yanas?madıg?ını, o?lkənin digər mu?xalifət partiyalarına qars?ı bo?htan kampaniyası və nifrət təblig?atı apardığını təsdiq etdi. Mu?savat Partiyasına qars?ı təs?kil edilən və bo?htan oldug?u aras?dırma, istintaq və məhkəmələr tərəfindən c?oxdan təsdiq edilmis? ən iyrənc kampaniyanın da mənbələrindən birinin Milli S?ura, ən azı Milli S?uranın bəzi rəhbər s?əxsləri oldug?u u?zə c?ıxdı. Lent yazısının o?zu?ndə yayımın kim tərəfindən təs?kil olundug?u aydın deyildikdən sonra da burada kibercinayət simulyasiyası c?ox gu?lu?nc go?ru?nu?r. Gizli yayım olsaydı belə demokrat, c?oxpartiyalı sistemin, azad rəqabət s?əraitinin tərəfdarı olan hec? kəs, hətta yuxusunda da s?ovinizm, ksenofobiya, rasizm təblig?atı aparmaz, Hitlerin uğursuzluqlarına təəssüflənməz, kütləvi qırğını təbliğ etməz, rəqib hesab etdiklərinə bo?htan atmaz... I?nanmaq istəyirəm ki, onların, xu?susilə Milli S?ura sədrinin Mu?savat Partiyasına qars?ı ho?rmətsiz davranıs?lara və bo?htanlara go?rə u?zr istəməyə siyasi iradəsi c?atacaq." Göründüyü kimi, antimilli düşərgənin öz əqidədaşları belə onlayn iclasdan yayılan videonun guya kibercinayətkarlıq olması barədə qaragüruhçu Əli Kərimlinin və onun ətrafının ağlasığmaz iddialarını gülünc adlandırırlar.

Biz nəinki ölkəmizin, hətta Cənubi Qafqaz regionunun ən aparıcı siyasi qüvvəsi hesab edilən Yeni Azərbaycan Partiyası olaraq dəfələrlə bu gün antimilli cəbhənin cəmləşdiyi qondarma "Milli Şura"nın xarici anti-Azərbaycan dairələrin layihəsi olduğunu bəyan etmişik. Partiyamızın Sədri, möhtərəm Prezidentimiz İlham Əliyev dövlətimizin və xalqımızın milli mənafelərini xarici ağalarından aldıqları qrantlara satanları "beşinci kolon", vətən xaini, xalq düşməni adlandırıb. Dövlətimizin başçısının uzun illərdir real faktlara və dəlillərə söykənərək bəyan etdiklərini bu gün vaxtilə həmin antimilli ünsürlərlə bir düşərgədə olmuş siyasi qüvvələr də təsdiq edirlər. Bu baxımdan ReAL Partiyasının mövqeyi böyük maraq doğurmaqdadır. ReAL-ın icra katibi Natiq Cəfərli qondarma "Milli Şura"nın Koordinasiya Mərkəzinin üzvü Gültəkin Hacıbəylinin və bu amorf qurumun rəhbəri Cəmil Həsənlinin təmsil etdiyi partiya ilə bağlı videoda səsləndirdikləri fikirlərə münasibət bildirərkən deyib ki, bu təşkilatla bağlı şəxsən ona 2013-cü ildən hər şey aydın olub: "O zaman 7 dəfə danışıq apardıqdan sonra o mənasız, ipi yüz əldə olan quruma qoşulmaqdan imtina etdik. Hətta həbsdə olan sədrin təkidinə baxmayaraq, imtina etdik. Çünki dəyərləri, prinsipləri, aydın planı-proqramı olmayan, şəxs və şəxslər ətrafında bütpərəst təfəkkürlə qurulan təşkilata qoşulmaq axmaqlıq olardı. Sonradan da, indi də nə qədər haqlı olduğumuz öz təsdiqini tapdı. Gənc olmayan Hitlerçilərə geniş cavab vermək istəmirəm, amma Gültəkinin layklar, şərhlərdə olan söyüşlər və internet baxışları haqqındakı cümlələri bir daha təsdiq etdi ki, bunlar 100 nəfərin hərəsinə 15-20 saxta profil açmaqla layklar və disklayklar qoyurlar, şərhlərə söyüş yazdırırlar ki, sonradan bunu öz cılız və axmaq "arqumentlərinə" çevirsinlər. Bunu hamı bilirdi, amma indi daha aydın və aşkar göründü. Onların ReAL və Müsavat haqqında dedikləri alçaq cümlələr olmasaydı, yəqin ki, belə geniş şərh yazmazdım...Onların siyasət anlayışı o qədər primitiv, keçmişləri o qədər qaranlıqdır ki, istənilən başqa cür düşünən-davranan siyasi təşkilatı həmən düşmən görüb sıradan çıxartmağa çalışırlar".

Göründüyü kimi, cəmi 2-3 gün ərzində cərəyan edən "Gaygate" hadisələri çərçivəsində Gültəkin Hacıbəylinin və Cəmil Həsənlinin sayəsində müxalifət daxilində ciddi qarşıdurmalar başlandı. Həm müxalifət partiyalarının, həm də ictimaiyyət nümayəndələrinin tələbi ondan ibarət idi ki, Cəmil Həsənli və Gültəkin Hacıbəyli üzr istəsin, qondarma "Milli Şura" isə buraxılsın. Amma Cəmil Həsənli özünü xilas etmək üçün Eldəniz Quliyevi qurban verdi. Ümumiyyətlə, bu antimilli düşərgədə gedən proseslər, sənginmək bilməyən təhqir və söyüş dolu qarşılıqlı ittihamlar o dərəcədə geniş vüsət alıb ki. şübhə yoxdur ki, bu gedişlə onlar yaxın gələcəkdə bir-birlərinin axırına çıxıb siyasi səhnəni birdəfəlik biabırçı vəziyyətdə tərk edərək özlərinin əbədi ünvanlarına-tarixin zibilliyinə gömüləcəklər. Təsadüfi deyildir ki, dağıdıcı düşərgədə cərəyan edən prosesləri şərh edən tanınmış politoloqların və ekspertlərin yekdil fikirləri belədir ki, bu amorf qurumun məlum onlayn rüsvayçılığından sonra yaranmış vəziyyət Fuad Qəhrəmanlının həyat yoldaşına və qızına qarşı törətdiyi zorakılığın ictimailəşməsindən sonra AXCP ətrafında gedən prosesləri xatırladır. Həmin vaxt ictimaiyyətin tələbi ondan ibarət idi ki, AXCP sədri Əli Kərimli Fuad Qəhrəmanlı kimiləri yanında saxladığı üçün istefa verməlidir. Lakin o zaman kələkbaz kombinasiyalar ustası olan Əli Kərimli son anda Fuad Qəhrəmanlını qurban verməklə sudan quru çıxa bildi. İndi də eyni taktikadan Cəmil Həsənli istifadə edir. O da özünü qorumaq üçün Eldəniz Quliyevi qurban verdi və onu "Milli Şura"dan istefa verməyə məcbur etdi. Doğrudur, Eldəniz Quliyev budəfəki prosesdə Fuad Qəhrəmanlıdan daha fərasətli tərpəndi və Cəmil Həsənlini ifşa etdi.

Lakin mənim qənaətimə görə, hazırda ictimaiyyəti düşündürən məsələlər tamamilə başqadır. Məsələn, az-çox ciddi siyasətlə məşğul olan insanlar belə bir suala cavab axtarırlar ki, nə üçün Eldəniz Quliyev qurban verildi? Axı, belə götürəndə həmin biabırçı iclasın ona aidiyyəti olmamalı idi. İndi ağlı başında olan hər kəs sual edir ki, həmin onlayn iclasda təhqirlər yağdıran Gültəkin Hacıbəyli deyildimi? Onların təhqirlərinə gülüşü ilə rəzılıq verən Cəmil Həsənli və Qənimət Zahid deyildilərmi? Bu biabırçılığa görə dərhal istefa verməli alan Cəmil Həsənli və Gültəkin Hacıbəyli niyə fərarilik edib Eldəniz Quliyevin arxasında gizlənirlər? Axı, bu şəxslər hər gün yeri gəldi-gəlmədi istefa mədəniyyətindən danışırlar. Bəs, özləri niyə "nümunə" göstərmirlər?

Məlum olur ki, bütün bunların altında çox gizli məqamlar yatırmış və onun da üzərinə qeyri-ixtiyari olaraq Qənimət Zahidin "Azərbaycan saatı"ndakı kölgəsi, AXCP-nin mühacir alverinin əsas həlqələrindən biri olan Fikrət Hüseynli işıq salıb. O, özünün "Facebook" səhifəsində Eldəniz Quliyevə xitabən yazdığı "Yeri gələndə hakimiyyətin qapısını döyüb siyasi məhbusların yaxınlarının ağır durumunu onlara çatdırıb. Kimlərinsə azadlığına nail olub" cümlələri ilə özü də bilmədən dolayısı ilə "Milli Şura"nı və Əli Kərimlini ifşa edib.

Bu məqamda ictimaiyyəti düşündürən başqa suallar da meydana çıxır: Görəsən, Eldəniz Quliyev kimə görə hakimiyyətin qapısını döyüb? O, kimlərin azad edilməsinə nail olub? Bu xahişləri kimin göstərişi ilə edib? Bu oyunlarda Cəmil Həsənli və Əli Kərimli hansı roldadırlar? Şübhə yoxdur ki, "mövcudluğu" dövründə yalnız "qaranlıq işlər"lə məşğul olan qondarma "Milli Şura"nın ətrafında sular durulduqca bu suallara cavab tapılacaq.

Məlum "Gaygate" hadisəsinin gedişatında Eldəniz Quliyevdən sonra öz radikallığı ilə seçilən Rafiq Manaflının da istefa verməsi belə bir qəti qənaətə gəlməyə əsas verir ki, şər-böhtan yuvası olan bu amorf qurumun daxilindəki gərginlik səngiməyəcək. Əksinə, bütün bunlar hələ başlanğıcdır, necə deyərlər, əsl hengamə irəlidədir. Əlbəttə, bəlkə də "Milli Şura" rəhbərliyi bu iki nəfərin istefası ilə məsələni bağlamağa cəhd göstərə bilər. Amma Azərbaycan ictimaiyyəti birinci videonun şokundan ayılmamış yayılan və sabiq ReAL-çı Altay Göyüşovun "professor eşşək" adlandırıldığı, vəkil Aslan İsmayılovun və ümumən müəllimlərin təhqir olunduğu ikinci video onu göstərdi ki, "Gaygate" hadisəsi hələ çox istefalara gətirib çıxaracaq.

Mənim fikrimcə, onlayn iclas rüsvayçılığından sonra artıq Azərbaycan cəmiyyəti və onun bir hissəsi olan konstruktiv müxalifət partiyaları bir daha əmin oldular ki, qaragüruhçuluğu ilə ad çıxarmış AXCP və onun qapazaltısı olan "Milli Şura" heç vaxt islah edilməyəcək, əxlaq, ədəb yoluna gəlməyəcəklər. Onların 1992-ci ildə silah gücünə hakimiyyəti ələ keçirmək düşüncəsizliyi aradan qalxmayacaq. Ona görə də hesab edirəm ki, son biabırçı hadisələrə görə Cəmil Həsənlinin üzr istəməsi, xarici anti-Azərbaycan dairələrin layihəsi olan və Azərbaycan siyasi səhnəsində "qara yara" rolunu oynayan "Milli Şura"nın buraxılması ictimai tələbə çevrilməlidir. Əgər həqiqətən də "Milli Şura" özünün bəyan etdiyi kimi, demokratiya tərəfdarıdırsa, o zaman onun rəhbərliyi özündə cəsarət tapacaq və üzr istəyərək bu amorf qurumu buraxacaq. Nəyin bahasına olursa-olsun qondarma "Milli Şura"nı qoruyub saxlamaq istəyən qaragüruhçu Əli Kərimli isə mənasız çabalarından vaz keçəcək, ən yaxşısı üzü sulu ikən (əgər üzündə su varsa) siyasətdən uzaqlaşacaq.



MƏTLƏB
Metlebsalahov@mail.ru

## Ağlamaq Şuşanı qaytarmır...

***Hər dəfə Azərbaycan tarixindəki hansısa qara səhifəni, tarixi faciələrimizi və ən əsas da işğal günlərimizi qeyd edəndə, ovqatım həddindən artıq pis olur. Təbii ki, hər br qara gün, hər bir tarixi faciəmiz bütün azərbaycanlılar kimi məni də sarsıdır. Axı necə ola bilər ki, öz doğma xalqının, torpağının başına gətirilən faciələrə, qara səhifələrə üzülməyəsən?. Məsələ bunda deyil. Məsələ ondadır ki, həmin anım günlərində erməni işğalına görə kədərlənməyim, bizim TV-lərdə düşmənə nifrət əvəzinə ağı demək mərasimlərinin boy göstərməsi üzündən baş qaldırır.***

Hər dəfə faciəli tariximiz vərəqlənəndə həm də ona görə sarsıntı keçirirəm ki, cəmiyyətimiz bu faciələrə əsl vətənpərvər, həqiqi vətən sevgisi ilə yanaşmır. Yüz illərdir bizimlə yol gələn milli qüsurlarımız yenə də özünü hər saniyə daha qabarıq ortaya çıxarır, sanki "mən varam, hələ də sizinləyəm" mesajı verir bizə. Hər faicəli günlərimizin ildönümlərində TV-lərimizdə ağlaşmalar qurulur, əsl mərsiyə məclisləri təşkil olunur. İşğal olunan torpağımızı geri almaq, uşaq və gəncləri düşmənə qarşı nifrət ruhunda tərbiyə edib, torpağına və ölkəsinə sahib olmaq üçün səfərbər etmək əvəzinə, onlarda qorxaqlıq yaratmağa, düşmənin amansız və qorxunc obrazını formalaşdırmağa çalışırlar. Sanki erməni daşnakları, uşaq nağıllarında deyildiyi kimi, "xoxandır", basılmazdır, qorxuncdur və sairə, və sairə...

10-12 yaşlı məktəbli qızların başına qara yaylıqlar bağlayıb ağı söylətməklə, yeniyetmə oğlanlara mərsiyə xarakterli şeirlər əzbərlətməklə biz ancaq və ancaq özümüzə, milli qürurumuza, vətənpərvərlik hisslərimizə balta endiririk, vəssalam!. Axı yeniyetmə uşaqlara qorxaqlıq və təslimçilik ruhu aşılamaq, onlara vətəni geri qaytarmaq əvəzinə ağı söylətmək, nisgil, ağlaşma dolu şeirlər əzbərlətmək ŞUŞANI, QARABAĞI, XANKƏNDINI, LAÇINI bizə geri qaytarmır!.

Şuşanın işğalı günü TV efirlərində deyilən ağılar, Qarabağlı xanəndələrin nisgilli ifaları gəncliyimizdə vətənpərvərliyi, torpaq həsrətini deyil, ancaq və ancaq təslimçiliyi, əzbərçiliyi və ən dəhşətlisi döyüş meydanına atılıb öz torpağını qanı ilə geri qaytarmaq əvəzinə, bir ömür ağı deyib şeir əzəbərləməyi aşılayır.

Neçə illərdir ki, məktəblərimizdə həqiqi vətənpərvərlik, torpaq sevgisi əvəzinə şablon şeirlər, hər faciəli tariximizin anım ildönümündə isə, divar qəzetinə vurulan yazılar, məktəb səhnəsində göz yaşlarından düzəldilən səhnəciklər "göz doldurur". Ancaq və ancaq ŞABLON, vəssalam! Həqiqi vətənpərvərlik, düşmənə ölümcül zərbə vurmaq, vətəni necə azad etmək barədə düşünmək gənc nəslin şüuruna güllə kimi daxil olmalıdır. Yalnız həqiqi vətənpərvərliklə qidalanan gənclik bizə əsrlər boyu itirdiklərimizi geri qaytara bilər. Ağlaşma qurmaq hələ heç kimə TORPAQ QAYTARMAYIB cənablar!.

# Prezidentin təşəbbüsü ilə keçirilən Zirvə görüşü zamanın həmrəylik çağırışıdır

***Hər bir xalqın dünyada tanınmasında, uğurlar əldə etməsində və təbii ki, dünyada cərəyan edən qlobal proseslərin öndə gedənlərinə çevrilməsində liderlərin xüsusi əhəmiyyəti mövcuddur. Liderlik amili elə bir şəxsiyyətlərə aid olunur ki, onlar xalqın və dövlətin maraqlarını müdafiə etməklə yanaşı, həm də inkişaf etdirir. Məhz bu kimi önəmli faktorun təhlilini apararkən, Azərbaycanın bu siyahıda birinci olması şəksizdir. Çünki Azərbaycanın inkişaf və tərəqqi, eləcə də, xalqın rifahı faktorun da Azərbaycan Prezidenti İlham Əliyev Liderliyi amili mövcuddur.***



*ZƏRİFƏ QULİYEVA,*
*YAP Qadınlar Şurası İdarə Heyətinin üzvü*

Artıq 17 ilddir ki, Azərbaycan xalqının etimadı əsasında ölkəyə rəhbərlik edən Prezident İlham Əliyev Ümummilli Lider Heydər Əliyevin siyasi kursunu şaxələndirərək, uğurla reallaşdırması nəticəsində, perspektiv baxımdan əhəmiyyətli nəticələrin əldə olunmasında öz uğurlu sözünü deyir. Məhz Prezident İlham Əliyevin həyata keçirdiyi sosial-iqtisadi və siyasi islahatlar müasir Azərbaycanın müstəqilliyini daha da möhkəmləndirib, regional gücünü və qlobal əhəmiyyətini kifayət qədər artırmış olub. “Güclü iqtisadiyyata malik olan dövlət hər şeyə qadirdir”. Bəli, həqiqətən də bu danılmaz aksiomadır. Məhz ölkəmizin iqtisadiyyatın inkişaf tempinə görə regionda lider dövlətə çevrilməsi də təsadüfi deyil. Azərbaycan hökumətinin yürütdüyü müstəqil siyasət həmişə birmənalı olub: “Güclü dövlət, güclü iqtisadiyyat və sosial rifah. Bax, bu prinsiplərin vəhdəti bu gün Azərbaycanı dünyada seçilmiş ölkələrin sırasına daxil edibdir. Bunun nəticəsində, biz uğurla inkişaf edirik”.

### Dövlətləri və millətləri birləşdirən uğurlu siyasət

Və bugünlər dünyanı çalxalayan koronavirus pandemiyası zamanında Qoşulmama Hərəkatının sədri kimi Prezident İlham Əliyevin təşəbbüsü ilə Qoşulmama Hərəkatının Təmas Qrupu formatında videokonfrans vasitəsilə Zirvə görüşününü keçirilməsi, ilk növbədə dövlət başçısının dünyada böyük nüfuza malik lider olmasının göstəricisidir. Qoşulmama Hərəkatının Bakıda keçirilən XVIII Zirvə görüşündə təşkilata sədrliyi öz üzərinə götürən zaman Prezident İlham Əliyev bəyan etdi ki, Azərbaycan beynəlxalq arenada üzv ölkələrin maraqlarının müdafiə edilməsi üçün əməli addımlar atacaq, həmrəyliyin gücləndirilməsini və qarşılıqlı dəstəyi rəhbər tutacaq. Göründüyü kimi, bu Zirvə görüşü də bir daha göstərdi ki, Azərbaycan Prezidentinin sözü ilə əməli birdir. Zirvə görüşündə ölkə başçısı Azərbaycanın koronavirusla mübarizə modelini dünyaya təqdim edərkən faciənin qarşısının alınması üçün həmçinin, dünyaya yol göstərdi. Və konfransda ölkə başçısı bəyan etdi ki, dövlətlər bir-birindən təcrid olunmalı deyillər. Çünki pandemiya ilə əlaqədar qlobalizasiya prosesi dayandırılıb.

Bu faktoru da böyük hərflərlə qeyd etmək istərdim ki, bu gün bütün sahələrdə olduğu kimi, koronavirusla mübarizə tədbirlərində də ölkəmiz dünyada özünəməxsus imic formalaşdırıb - AZƏRBAYCAN MODELİ. Bu reallıqdır. Çünki Azərbaycanın unikal təcrübəsi dünya tərəfindən qəbul edilir, bəyənilir. Həmçinin, reallaşdırılan sosial-iqtisadi dəstək proqramları, genişmiqyaslı anti- böhran tədbirlər də beynəlxalq qurumlar tərəfindən yüksək qiymətləndirilir. Çünki Azərbaycan artıq beynəlxalq aləmdə inkişaf, tərəqqi, yüksəliş simvoluna çevrilir. Və bütün dünyanın etiraf etdiyi bu reallıq Prezident İlham Əliyevin fəaliyyətinə verilən haqlı və real qiymətdir. Və Azərbaycan dünya üçün qlobal düşüncəni təqdim etdi. Bu, həmçinin dövlətləri və millətləri birləşdirən siyasət oldu. Bu siyasət Azərbaycan tərəfindən təqdim olundu. Azərbaycanın gördüyü işlər təkcə bu gün yox, gələcəkdə də öyrəniləcək.

Prezident İlham Əliyev Zirvə görüşündə çıxışı zamanı bildirdi ki, koronavirus pandemiyası dünyada vəziyyəti tamamilə dəyişib və nəticədə yeni reallıqlar meydana çıxıb. Azərbaycan yeni vəziyyətə çevik və adekvat reaksiya verir. Azərbaycanın təşəbbüsü ilə keçirilən Qoşulmama Hərəkatının koronavirusa qarşı Təmas Qrupunun Zirvə görüşü də bunu göstərir. Və Zirvə görüşündə Prezident İlham Əliyev ölkəmizdə koronavirus pandemiyasına qarşı aparılan tədbirlər haqqında ətraflı məlumat verdi. Cənab Prezidentin qeyd etdiyi kimi, pandemiyanın dünyanı bürüdüyü indiki şəraitdə əməkdaşlığa böyük ehtiyac var. Zirvə görüşündə Prezident İlham Əliyev koronavirus pandemiyasının bütün dünya dövlətlərinə mənfi təsir göstərdiyini xatırladaraq, bu bəlanın və onun fəsadlarının aradan qaldırılması Hərəkata üzv dövlətlərin və bütün bəşəriyyətin qarşısında duran ən vacib problem olduğu kimi, ölkəmizdə də koronavirus infeksiyasının yayılmasının qarşısının alınması üçün vaxtında həyata keçirilən təxirəsalınmaz, çevik və zəruri qabaqlayıcı tədbirləri diqqətə çatdıraraq, pandemiya dövründə insanların sağlamlığının və onların sosial müdafiəsinin təmin edilməsinin Azərbaycan dövləti üçün prioritet məsələ olduğunu qeyd etdi.

### Prezident İlham Əliyevin düşünülmüş diplomatik siyasəti beynəlxalq səviyyədə

Görüşdə BMT-nin Baş katibi Antonio Quterreş və Avropa İttifaqının Ali nümayəndəsi və Avropa Komissiyasının vitse-prezidenti Cozef Borel videomüraciətlə çıxışlarında pandemiya ilə mübarizədə Azərbaycan Prezidentinin bu təşəbbüsünü yüksək qiymətləndirdilər. Zirvə görüşündə həmçinin, BMT Baş Assambleyasının 74-cü sessiyasının prezidenti Ticani Məhəmməd-Bande, Ümumdünya Səhiyyə Təşkilatının Baş direktoru cənab Tedros Adhanom Qebreyesus, Afrika İttifaqı Komissiyasının sədri Musa Faki Mahamat və təşkilata üzv olan bir çox ölkələrin dövlət və hökumət başçıları çıxış edərək koronavirus pandemiyası ilə mübarizə yolları haqqında fikirlərini bildirdilər, bu mübarizədə əməkdaşlığın əhəmiyyətini vurğuladılar. Demək olar ki, bütün çıxışlarda Azərbaycan Prezidentinin təşəbbüsləri yüksək qiymətləndirildi. Bu, bizim üçün qürurverici haldır. Və Zirvə görüşü bir daha göstərdi ki, Azərbaycan nəinki milli səviyyədə COVID-19-la mübarizədə səmərəli tədbirlər görür, eyni zamanda, regional və qlobal miqyasda da koronavirusa qarşı həmrəyliyin və əməkdaşlığın gücləndirilməsinə özünün mühüm töhfəsini verir.

Göründüyü kimi, çoxtərəfli diplomatiyanın təşviq edilməsi, Qoşulmama Hərəkatının üzv dövlətləri arasında əməkdaşlığın və həmrəyliyin gücləndirilməsi Prezident İlham Əliyev tərəfindən Azərbaycanın Qoşulmama Hərəkatında sədrliyinin prioritetlərindən biri kimi müəyyən edilib.

Beləliklə, hər bir ölkənin inkişafı və xalqın təhlükəsizliyi o ölkənin prezidentinin həyata keçirdiyi uğurlu siyasətin nəticəsində həyata keçirilir. Məhz əvvəlki beynəlxalq tədbirlərdə olduğu kimi, bu mötəbər Zirvə görüşündə də Prezident İlham Əliyevin düşünülmüş diplomatik siyasəti bir daha yüksək dəyərləndirildi.

Bir sözlə, Azərbaycan nəinki milli səviyyədə COVID-19-la mübarizədə səmərəli tədbirlər görür, eyni zamanda, regional və qlobal miqyasda da koronavirusa qarşı həmrəyliyin və əməkdaşlığın gücləndirilməsinə əhəmiyyətli töhfəsini verir.

# “Azərbaycanlılarla bağlı iddiaları Paşinyanın zəka qıtlığından irəli gəlir”

“Paşinyan kifayət qədər qeyri-adekvat bir şəxs olduğu üçün ondan hər şey gözləyirəm. Paşinyanın hazırki məqsədi diqqəti yayındırmağa xidmət edir. Onun babası ilə bağlı məsələlər gündəmə gəlib və buna görə də Paşinyan çox narahatdır. Bildiyimiz kimi Paşinyanın babası həqiqətən də faşist dəstələrində vuruşub. Əslində digər vacib bir məsələni də gündəmə gətirmək lazımdır. Belə ki, Paşinyanın babası ilə bərabər macar əsilli erməni Salasyan da faşist Almaniyasının tərkibində vuruşub. Bu tarixi faktdır və bunu danmaq mümkün deyil”. Bunu SİA-ya açıqlamasında politoloq Cümşüd Nuriyev deyib.



Politoloqun sözlərinə görə, azərbaycanlıların orada vuruşması məsələsinə gəldikdə isə faşistlərə əsir düşən hər bir millətdən olan nümayəndələri həm qorxudur, həm də onların ailələrin məhv edildiyini deyərək onları faşist dəstələrində savaşmağa məcbur edirdilər: “Bu əsir dəstələrinin tərkibində isə tək azərbaycanlılar yox, əsasən ukraynlar, belaruslar, baltikyanı ölkələrin hər birindən, qazaxlar, özbəklərdən ibarət əsir dəstələri olub. NKVD-nin smerş qrupları vardı və həm qruplar gedib bu cür əsirlər arasında ailələrinin SSR tərəfindən məhv edilməsi ilə əlaqədar informasiyalar yayırdılar. Azərbaycandan vuruşmağa gedənlərin çoxu kənd əhalisi idi və onlar 1937-ci il repressiyalarını görən şəxslər idi. Ona görə də onlar ailələrinin məhv edilə biləcəyinə şübhəsiz inanırdılar. Bu səbəbdən də elə həmin əsirlərə də SSR-nin dağılması maraqlı idi. Heç bir xalq deyə bilməz ki, onlardan kimsə Almaniyada SSR-yə qarşı vuruşmayıb”.

C.Nuriyev vurğulayıb ki, amma Azərbaycandan elə bir lider olmayıb ki, onlara rəhbərlik etsin: “Paşinyan Məmməd Əmin Rəsulzadə ilə şəkil montaj edib paylaşıb. Görün bu adam nə qədər qeyri-ciddi biridir və düşünün belə biri Ermənistanın baş naziridir. Əvvala bu şəkil fotoşopdur, ikincisi Məmməd Əmin Rəsulzadə əgər o hadisələrin içində iştirak etsəydi, Nrünberq məhkəməsində Salasyan yox, Məmməd Əmin Rəsulzadə oturardı. Məmməd Əmin Rəsulzadə o vaxt əsir düşən azərbaycanlıları Türkiyənin xətti ilə almanların əlindən alaraq nə qədər insan xilas edib. Məmməd Əmin Rəsulzadə əksinə o əsirləri qoymayıb ki, faşist dəstələrində vuruşsunlar. Onun da bir ideyası olub ki, mən istiqlalımız uğrunda mübarizə aparıram. Ona görə Paşinyanın bu addımı uğursuzluğa düçar olub. O adamdan hər şey gözləmək olar, çünki gecə yatır ağlına nə gəlirsə, səhər də onu edir. Bu adamın psixoloji problemləri var. Ona görə, Paşinyanın dedikləri, hansı addımı atması məni təəccübləndirmir. Çünki adam 2 ildi baş nazirdi və deyir ki, ortada Qarabağla bağlı danışıqlarda hər hansı bir sənəd yoxdur. Görün Paşinyan nə qədər məsuliyyətsiz, nə qədər geri zəkalıdır ki, bu tip çıxışlar edir. Azərbaycanlıların SSR-yə qarşı vuruşması və Rəsulzadə ilə bağlı iddiaları onun zəkasının qıtlığından irəli gəlir”.

***Aysel Məmmədova***

# Dünya iqtisadiyyatı koronadan nə vaxt qurtulacaq?



ABŞ-ın Federal Ehtiyat Sisteminin (FED) rəhbəri Jeromü Powel yeni növ koronavirus pandemiyasına görə, dünya iqtisadiyyatının bərpasının gələn ilin sonuna qədər davam edəcəyini açıqlayıb. SİA-nın xəbərinə görə, FED rəhbəri qeyd edib ki, bunun üçün ilk növbədə insanların inamı tam yerinə gəlməlidir: “İnsanların yenidən inamlı olması üçün də vaksinin hazır olmasını gözləməliyik”. O bildirib dünya iqtisadiyyatı ilə bağlı proqnozlar COVİD-19 pandemiyasına bağlıdır: “Dünyada pandemiya nə qədər tez nəzarətə alınarsa, müəssisələr o qədər tez fəaliyyətlərini bərpa edə biləcəklər: “Gələcək aylarda karantin rejiminin yumşaldılması nəticəsində insanların iş fəaliyyətinə dönməsi nəzərdə tutulsa da, həmin dövrdə pandemiya ilə bağlı II dalğa başlaya bilər: “Əgər dünyada II dalğa olmazsa, o zaman ilin sonunadək bu sahədə müəyyən irəliləyiş müşahidə etmək olar”,

Onu sözlərinə görə, insanlar xərcləmə davranışında diqqətli olacaq və iqtisadiyyatın bəzi sahələri daha yavaş-yavaş toparlanacaq: “İqtisadiyyatın tamamilə sağlamlaşdırılması üçün insanların etimadını tam şəkildə qazanmaq lazımdır. Bunun üçün peyvəndin çıxmasını gözləmək lazım gələ bilər”.

Peyvəndin vaxtının qeyri-müəyyən olduğuna diqqət çəkən Powel, bunun ən qısa müddətdə hazırlanacağına ümid etdiyini, insanların özlərini tam təhlükəsiz hiss edənə qədər iqtisadiyyatın çətinlik çəkəcəyini söyləyib. Hazırda dünyada pandemiya ilə bağlı gedən prosesləri “böyük ağrı və çətinliklər dövrü” kimi xarakterizə edən Powel, iqtisadiyyatın bərpa ediləcəyi, insanların tam şəkildə fəaliyyətlərinə qayıdacağı yalnız uzun və ən tezi isə ortamüddətli perspektivdə nəzərdə tutulub: “Bu, gələn ilin sonuna qədər uzadıla da bilər. Tam zamanı bilmirik. Bunun daha tez olacağını ümid edirik”.

***Nailə Məhərrəmova***

# “Cəmiyyətimiz ölkədə həyata keçirilən islahatları və korrupsiyaya qarşı mübarizə tədbirlərini alqışlayır”



*Milli Məclisin deputatı Azər Badamovun yap.org.az-a müsahibəsi*

***- Azər müəllim, bu gün ölkəmizdə koronavirus pandemiyasına qarşı ciddi mübarizə aparılır. Bu istiqamətdə görülən işlərin əhəmiyyəti haqqında fikirlərinizi bilmək istərdik...***

- Bu gün koronavirus pandemiyası ümumbəşəri bəlaya çevrilmişdir. Dünyanın inkişaf etmiş ölkələri bu xəstəlik qarşısında aciz qalmışdır. Ümumi dünya statistikasına diqqət yetirsək görərik ki, dünyada bu günə qədər koronavirusdan 300 mindən çox insan dünyasını dəyişmişdir. Biz isə bu xəstəliyin yayılmasını ölkəmizdə nəzarət altında saxlaya bildik. Xəstəliyin yayılma və ölüm hallarının aşağı səviyyədə saxlaya bilməyimizin əsasında dövlət başçımızın tapşırığı ilə vaxtında atılmış addımlar dayanır. ÜST koronavirusu qlobal pandemiya elan edəndən dərhal sonra biz ÜST-lə sıx əməkdaşlıq etdik. Ölkədə ciddi karantin rejimi tətbiq olundu, test nümunərinin analizi üçün müasir laborotoriyalar gətirildi, 20-dən çox xəstəxana pandemiyadan müalicəyə istiqamətləndirildi. Nazirlər Kabinetinin yanında Operativ Qərargah yaradıldı və gündəlik yoluxmaların dinamikasını təhlil edərək çox düzgün qərarlar qəbul olundu. Cənab Prezidentin sərəncamı ilə Koronavirusla Mübarizəyə Dəstək Fondu yaradıldı. Ölkə başçısının sərəncamı ilə TƏBİB-ə bu məqsədlər üçün müasir avadanlıq və tibb vasitələrin idxal ediməsinə 97 milyon manat vəsait ayrıldı. Qısa bir zamanda tibbi spirt, tibbi maska və xüsusi kombenizonların istehsalı sahələri yaradıldı. İnsanların hərəkətinə məhdudiyyətlər tətbiq olundu və s.

Ümumi olaraq qeyd etmək istəyirəm ki, qısa zaman kəsiyində COVİD 19-la mübarizəyə dövlətin bütün resursları səfərbər olundu. Məhz bunun göstəricisidir ki, biz Azərbaycanda pandemiyanın yayılma tempini azaldaraq yoluxmaları aşağı səviyyədə saxlaya bildik. ÜST bu gün pandemiyaya qarşı görülən tədbirlərin effektivliyinə görə Azərbaycanı nümunə göstərir.

***- Hazırki şəraitdə cəmiyyətdə vətəndaş həmrəyliyinin əhəmiyyəti nədən ibarətdir?***

- Koronavirusa qarşı mübarizədə effektiv nəticələrin əldə olunması üçün ancaq dövlətin səfərbər olunmağı kifayət etmir. Bu müharibədə mütləq şəkildə dövlətlə xalq əl-ələ verərək bir yerdə vuruşduqda qalib gəlmək mümkündür. Yəni, hər bir hərəkətdə ümummilli həmrəylik birinci yerdə dayanır. Bu həmrəylik pandemiyanın yayılma zəncirinin qırılmasında özünü göstərməli, həm də müəyyən məqamlarda nümayiş olunmalıdır. Pandemiyaya qarşı mübarizədə xalqdan ilk növbədə tələb olunan sosial məsafənin gözlənilməsi, şəxsi gigeyinik qayadalarına riayət olunması, tibbi maskanın taxılması və evdə qalmasıdır. Belə baxanda, bu ürək açan olmasa da o qədər də çətin tələblər deyil. Əgər biz pandemiyaya qalib gəlmək istəyiriksə bu işə səbrlə yanaşmalıyıq və həmrəylik nümayiş etdirməliyik. Koronavirus pandemiyası insanlarımızın həmrəyliyinin yoxlanılması üçün bir sınaq oldu.

Cənab Prezident Koronavirusla Mübarizəyə Dəstək Fondu yaratdı və bu fonda dövlət büdcəsindən 20 milyon manat vəsait ayırdı. Sonra isə cənab Prezident və Birinci vitse-prezident bir illik əmək haqlarını bu fonda ianə etdi. Ardınca, ölkədə vətəndaşlarımızın böyük həmrəyliyinin şahidi olduq . İnsanlar öz maddi imkanları daxilində fonda ianələr etməkdə davam etməkdədir və bu gün fondun vəsaitləri 113 milyonu keçmişdir. Həm də sosial vəziyyəti aşağı olan ailələrə imkanlı şəxslər tərəfindən ərzaq və gündəlik tələbat mallarının yardımlarında bir həmrəyliyini gördük. Sevindirici haldır ki, xalqımız çətin anlarda birləşə bilir və vətəndaş həmrəyliyini nümayiş etdirir.

***- Məlumdur ki, pandemiya dünya ölkələrinin sosial-iqtisadi həyatına ciddi təsir edib. Bu baxımdan, ölkəmizdə əhalinin sosial müdafiəsinin gücləndirilməsi yönündə işləri necə dəyərləndirirsiniz?***

- Çox düzgün qeyd edirsiniz ki, pandemiya dünya ölkələrinin sosial-iqtisadi həyatına ciddi mənfi təsir göstərmişdir. İlin əvvəlində 2020-ci ildə dünya iqtisadiyyatının 7%-ə qədər artacağı proqnozlaşdırıldığı halda, indi mənfi 0,3%-ə enəcəyi haqqında məlumatlar açıqlanır. Pandemiya dünyada ölkələrarası əlaqələrin məhdudlaşdırılmasına, bir çox istehsal sahələrinin bağlanmasına, işsizliyin artmasına və əhalinin sosial rifahının pisləşməsinə gətirib çıxarmışdır. Həm də, dünya bazarında neftin qiymətində kəskin azalmalar baş vermiş, bu da neft istehsalçısı olan ölkələrin gəlirlərinin kəskin azaltmışdır.

Təbii ki, Azərbaycan da neft istehsalçısı olduğundan bizim neft gəlirlərimiz də azalmışdır. Amma ölkə başçımızın uzaqgörən siyasəti sayəsində çətin dövrlərdə ölkədə iqtisadi fəallığının qorunması və sosial dəstək tədbirlərinin həyata keçirilməsi üçün ehtiyat yastığını yarada bilmişik. Həm də bu illər ərzində qeyri-neft sektorunun inkişafında irəliləyişlərə nail olmuşuq. Yola saldığımız 4 ayda ölkəmizdə iqtisadi artım 0,2%, qeyri-neft sənayemiz 13% artmışdır. İlin sonuna qədər bizdə də iqtisadi artımın aşağı enəcəyi gözlənilləndir. Amma bütün bunlara baxmayaraq, biz pandemiyanın təsirlərini minimumlaşdırmaq məqsədi ilə ölkədə iqtisadi fəallığının bərpa edilməsinə və əhalinin sosial rifahına dövlət dəstəyi proqramlarını icra edirik. Bu, pandemiyanın birbaşa təsir göstərdiyi sahələrə iqtisadi dəstəyinin göstərilməsini özündə ehtiva edir.

Fəaliyyətləri dayanmış sahibkarlıq subyektlərinə onların dövlət büdcəsinə ödədiyi vergilərin səviyyəsinə görə bir dəfəlik maliyyə dəstəyi göstərilir. Həm də, həmin müəssisələrdə iş yerlərinin bağlanmaması üçün karantin müddətində əmək haqlarının 250-712 manat intervalında dövlət büdcəsindən ödənilməsi həyata keçirilir. Dövlət sektorunda əmək fəaliyyətinə məhdudiyyət qoyulmuş 910 min şəxsin, qeyri-neft sektorunda isə 710 min şəxsin əmək haqları dövlət büdcəsi hesabına ödənilir. Bununla yanaşı iki ay ərzində 600 min işləməyən şəxsə 190 manat vəsait ödənilir. 90 min ödənişli ictimai iş yerləri yaradılmışdır. Ünvanlı sosial yardımı proqramının əhatə dairəsi genişləndirilmişdir. Özünəməşğulluq proqramına cəlb olunacaq ailələrin sayının 12 minə çatdırılması nəzərdə tutulur. Ahıl şəxslərə sosial xidmət təşkil olunmuş, aztəminatlı ailələrdə olan tələbələrin təhsil haqlarının ödənişini dövlət öz üzərinə götürmüşdür. Ümumilikdə sosial -iqtisadi proqramlarının həyata keçirilməsinə dövlət büdcəsində 3,5 milyard manat vəsait ayrıldı. Onu da qeyd etmək istəyirəm ki, pandemiyanın təsirlərini minimuma endirmək və əhalinin sosial -iqtisadi rifahına dövlət dəstəyi proqramların həcminə görə Azəirbaycan regionda lider ölkədir. Bu gün demək olar ki, hər bir vətəndaşımız bu proqramlardan yaralanır və çox yüksək dəyərləndirirlir. Xalq bir daha hiss etdi ki, dövlət hər zaman onun yanındadır. Cənab Prezidentə hər gün ünvanlanan təşəkkür məktubları da xalqın Prezidentinin siyasətindən məmnunluğun ifadəsidir.

***- Azərbaycanda bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə genişmiqyaslı islahatlar həyata keçirilir, həmçinin korrupsiyaya qarşı ciddi mübarizə aparılır. Bu barədə nə deyə bilərsiniz?***

- Ölkə başçısı cənab İlham Əliyev 2018-ci ildə yenidən Prezident seçiləndə andiçmə mərasimində islahatlarla bağlı anons vermişdi. Qeyd etmək istəyirəm ki, 2018-ci ildən başlanmış islahatlar prosesi ölkə həyatının hər bir sahəsini əhatə etdi. İnstisunal, kadr, struktur islahatlarından başlanmış bu proses hakimiyyətin hər üç qolunu əhatə etdi. Bu ilin fevralında Milli Məclisə seçkilər keçirildi və müasir çağırışlara cavab verən yeni parlament formalaşdı. Məhkəmə-hüquq sitemində də islahatlar davam etdirilir. Müasir çağırışlara cavab verən gənc, innovasiyalara yiyələnmiş, müasir təfəkkürlü və korrupsiyaya bulaşmamış kadrlarla dövlət idarəetmə sistemi yenilənir.

Məhz islahatların effektiv nəticəsidir ki, 2019-cu ildə dövlət büdcəsinə ancaq vergi və gömrük orqanlarından proqnozdan əlavə 1 milyard manatdan çox vəsait daxil oldu. İslahatlar nəticəsində iqtisadiyyat şəffaflaşır, korrupsiyaya və rüşvətxorluğa qarşı mübarizə tədbirləri genişlənir. Son vaxtlar Dövlət Təhlükəsizlik Xidməti və Baş Prokrurluğun Yanında Korrupsiaya Qarşı Mübarizə İdarəsi tərəfindən keçirilən həbslər də bu məqsədə xidmət edir. Artıq bu günün tələbləri dəyişilmişdir. Hardasa xalqın malına göz dikən məmur varsa ona qarşı ciddi tədbir görülür. Korrupsiyaya qarşı mübarizə tədbirləri kampaniya xarakterli deyil. Bu tədbirlər davamlı olacaqdır. Dövlət istəyir ki, hüquqları təmin olunmuş, korrupsiya və rüşvətxorluq minimuma endirilmiş cəmiyyət qurulsun. Ölkə başçısının qeyd etdiyi kimi, kim özünün əməllərində düzəliş edə bilmirsə, o bizimlə eyni yolun yolçusu ola bilməz. Sonda qısa olaraq qeyd etmək istəyirəm ki, dövlətin apardığı islahatlar prosesini və korrupsiyaya qarşı mübarizə tədbirlərini xalqımız, cəmiyyətimiz alqışlayır və bu, xalq-dövlət birliyini sarsılmaz edir.

## CISCO kimi nüfuzlu şirkətin Azərbaycanla əməkdaşlığı mühüm əhəmiyyətə malikdir

***CISCO şirkətinin təşəbbüsü ilə Azərbaycan Prezidenti İlham Əliyevlə bu şirkətin icraçı vitse-prezidenti və baş maliyyə direktoru xanım Kelli Kramer, vitse-prezidenti Qay Ditrix və CISCO rəhbərliyinin digər nümayəndələri arasında keçirilən videokonfransda vacib məsələlər müzakirə olunub. Bir sıra məsələlərin həlli baxımından aparılan müzakirələr önəmlidir.***



Bu fikirləri AZƏRTAC-a açıqlamasında Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədr müavini Sevinc Fətəliyeva deyib. S.Fətəliyeva bildirib ki, videokonfransda şirkətin icraçı vitse-prezidenti və baş maliyyə direktoru Kelli Kramer COVID-19 virusu ilə əlaqədar Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının və Qoşulmama Hərəkatının Zirvə görüşlərinin təşkil edilməsində Azərbaycan Prezidentinə liderlik səylərinə görə minnətdarlıq edib. Müzakirə olunan “Smart ölkə”, təhsil və kibertəhlükəsizlik məsələləri hazırkı dövrdə önəmlidir.

Deputat deyib ki, videokonfransda, həmçinin CISCO kimi nüfuzlu şirkətin Azərbaycanın müvafiq strukturları ilə çox uğurlu əməkdaşlıq həyata keçirdiyi vurğulandı. Şirkətin vitse-prezidenti bu əməkdaşlığın təcrübə qazanmaq baxımından əhəmiyyətini qeyd etdi. O, təmsil etdiyi şirkətlə “Quantelo” şirkəti arasında həyata keçiriləcək əməkdaşlığın perspektivləri barədə də danışdı, vahid məlumatlar sisteminin yaradılması istiqamətində görülən işləri qeyd etdi və bunun ümumi daxili məhsulun artımı, iş yerlərinin yaradılması və innovasiyaların tətbiq edilməsi işinə xidmət edəcəyini bildirdi. Dövlətimizin başçısı İlham Əliyev də qarşılıqlı əməkdaşlıqdan məmnunluğunu ifadə etdi. Prezident bildirdi ki, “Ağıllı şəhər” layihəsi sahəsində işlər yaxşı gedir. Dövlətimizin başçısı “Smart ölkə” ideyasını və digər təşəbbüsləri də dəstəklədiyini də bildirdi.

S.Fətəliyeva texnologiyalar dövründə bu kimi layihələrin ölkəmizə böyük faydalar gətirəcəyini diqqətə çatdırıb. O, bu baxımdan, CISCO şirkəti ilə əməkdaşlığın əhəmiyyətli olduğunu vurğulayıb.

## DİN jurnalistlərə və sosial şəbəkə istifadəçilərinə müraciət etdi




“Kütləvi informasiya vasitələrinin nümayəndələrindən və sosial şəbəkə istifadəçilərindən xahiş edirəm ki, daxili işlər orqanları əməkdaşlarının, o cümlədən Daxili Qoşunların hərbi qulluqçularının xidməti fəaliyyətinə dair qeyri rəsmi mənbələrdən əldə etdikləri məlumatları, anonim çəkilmiş foto-video görüntüləri Daxili İşlər Nazirliyinin Mətbuat Xidməti ilə dəqiqləşdirsinlər”. Bu barədə SİA-ya Daxili İşlər Nazirliyinin (DİN) Mətbuat Xidmətinin rəisi Ehsan Zahidov bildirib.

“Hesab edirəm ki, razılaşdırılmış, rəsmi münasibət bildirilmiş məlumatların, foto-videoların çapı KİV ilə DİN-in Mətbuat Xidməti arasında olan işgüzar əlaqələrin inkişafı, eləcə də ictimaiyyət üçün daha faydalı ola bilər. Əminəm ki, hörmətli media nümayəndələri və sosial şəbəkələrdə aktiv olan vətəndaşlarımız mənim bu müraciətimi anlayışla qarşılayacaqlar”, - E.Zahidov deyib.

# "Israel HaYom" qəzeti: **Ermənistanda faşizmin tərifinin göylərə qaldırılması və qəhrəmanlaşdırılması Holokostun xatirəsinə hörmətsizlikdir**

***Bir neçə gün bundan əvvəl dünya birliyi faşizm üzərində Böyük Qələbənin 75 illiyini ağır pandemiya şəraitində qeyd etdi. Bizim hamımızı ortaq keçmişimiz birləşdirir və biz müharibə illərində babalarımızın, ulu babalarımızın şücaətinə, qəhrəmanlığına layiq olmalıyıq.***




AZƏRTAC xəbər verir ki, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin İsraildəki nümayəndəliyinin rəhbəri, beynəlxalq münasibətlər sahəsində tanınmış israilli ekspert Arye Qutun İsraildə çıxan nüfuzlu "Israel HaYom" qəzetində dərc olunmuş məqaləsi bu barədədir.

İsrail sakini və sovet ordusu zabitinin nəvəsi kimi öz babasına görə qürur duyduğunu bildirən Arye Qut vurğulayır: "Lakin mənim babam qələbələrlə yanaşı, yəhudi xalqı üçün dəhşətli, dözülməz faciə olan Holokost soyqırımını da görüb. Mən Holokost barədə ilk dəfə hələ uşaq ikən öz babamdan öyrənmişəm. Həmin soyqırımında mənim babam müasir Ukrayna ərazisində bütün ailəsini, bütün doğmalarını itirib. babam Yalnız o vaxt cəbhədə olduğuna görə sağ qalıb. O, öz Vətənini müdafiə edib, amma doğmalarını müdafiə edə bilməyib. Vəhşiləşmiş, qəddar faşist rejimi tərəfindən yəhudi xalqının kütləvi şəkildə məhv edilməsi ürəkağrısı, iztirab, alçaldılma, təhqir olunma deməkdir".

Ekspert "Israel HaYom" qəzetində qeyd edir ki, ən qəribə əhvalat bir neçə gün bundan əvvəl baş verib. Ermənistanın indiki baş naziri "facebook" şəbəkəsində öz babasının fotoşəklini paylaşıb. Arye Qut vurğulayır: "Xatırladaq ki, 9 May ərəfəsində Ermənistanın baş naziri Nikol Paşinyan öz babası Nikol Paşinyanın fotoşəklini paylaşıb və belə bir post yazıb: "Nikol Paşinyan, 1913-1943. 138-ci atıcı diviziyanın 554-cü atıcı alayında xidmət edib. Vətən uğrunda həlak olanlara əbədi eşq olsun".

Bu post məni təəccübləndirdi. Çünki məlum olub ki, Ermənistanın indiki baş naziri Nikol Paşinyanın babası Nikol Paşinyan İkinci Dünya müharibəsi illərində faşistlər və nasistlərlə əməkdaşlıq etmiş kollaborasionist olub".

İsrailli ekspert MDB-nin Aşqabad Zirvə görüşündə Azərbaycan Prezidenti İlham Əliyevin sözlərini sitat gətirir. Həmin Zirvə görüşündə Nikol Paşinyan faşist Njdeni sovet dissidenti Soljenitsin ilə müqayisə etməyə çalışarkən fiaskoya uğrayıb.

Azərbaycan Prezidenti vurğulayıb: "Əvvəlki iqtidar Yerevanın mərkəzində faşist cəllad və satqın, Qaregin Njde ləqəbi ilə alman faşistlərinə xidmət etmiş Qaregin Ter-Arutyunyana heykəl qoymuşdu. Təəssüf ki, Ermənistanın yeni hakimiyyəti bu heykəli götürmədi. Hesab edirəm ki, MDB məkanında faşizmin qəhrəmanlaşdırılmasına yer yoxdur".

Beynəlxalq münasibətlər sahəsində israilli ekspert Arye Qut vurğulayıb: "Hesab edirəm ki, İlham Əliyev öz ölkəsinin əsl lideri kimi hərəkət edib. O, bütün MDB ölkələrinin prezidentləri arasında birinci olaraq Ermənistanın baş nazirinin üzünə deyib ki, onun ölkəsi artıq neçə ildir faşist və antisemit Qaregin Njdenin qəhrəmanlaşdırılması ilə məşğul olur".

İsrailli ekspert yazır ki, xalqların öz tarixini, tarixi keçmişini şərh etmək və öz milli qəhrəmanlarını xatirəsini əbədiləşdirmək kimi suveren hüquqlarına heç kəs müdaxilə etmir. Arye Qut yazır: "Lakin Prezident İlham Əliyev MDB-nin Zirvə görüşündə əsl həqiqəti deməyə bilmədiyi kimi, biz də susmamalıyıq. Dəhşətli Holokost cinayətlərində əli olmuş insanlar milli qəhrəmanlara çevriləndə biz susmamalıyıq. Üç il bundan əvvəl Yerevanda nasistlərin əlaltısı, faşist və antisemit Qaregin Njdeyə heykəl qoyulmasına biz israillilər necə münasibət bildirməliyik? Ölkə bəşəriyyət əleyhinə cinayətdə ittiham edilmiş faşist canini özünün qəhrəmanı adlandıra bilərmi? Erməni faşist və antisemit general Qaregin Njdenin xatirəsinin əbədiləşdirilməsi biabırçılıq və Holokost qurbanlarının xatirəsinin təhqir edilməsi deməkdir. Şəxsən mənim üçün, babasının bütün ailə üzvləri Ukraynada faşistlər tərəfindən məhv edilmiş bir insan üçün bu, dözülməz ürəkağrısıdır".

İsrailli ekspert "Israel HaYom" qəzetində yazır: "Bu gün artıq gizli deyil ki, Ermənistanda faşizm ideologiyası, faşist Almaniyası ilə sıx əməkdaşlıq etmiş erməni faşist və nasistlərin qəhrəmanlaşdırılması dövlət səviyyəsində təbliğ edilir. Bu Cənubi Qafqaz ölkəsində faşizmin, antisemitizmin və neonasizmin populyarlaşdırılması dövlət siyasətinin tərkib hissəsinə çevrilib. Ən dəhşətlisi, ən hiddətləndiricisi odur ki, "Njdeizm" adlı faşist ideologiyası tədris müəssisələrinin proqramına daxil edilib və gənc nəsil bu "dəyərlər" ruhunda tərbiyə edilir".

Arye Qut yazır: "Faşist və antisemit general Qaregin Njdenin heykəlinin açılış mərasimində Ermənistanın keçmiş prezidenti Serj Sarkisyanın və keçmiş müdafiə naziri Seyran Ohanyanın iştirak etməsi və üstəlik, Ermənistanın indiki baş naziri Paşinyanın Qələbə Günündə öz faşist-kollaborasionist babasının fotoşəklini paylaşması faktı bir daha onu təsdiq edir ki, Ermənistanın istər keçmiş, istərsə də indiki liderləri özlərini erməni faşist və antisemit Njdenin əsl və həqiqi varisləri hesab edirlər".

Arye Qut vurğulayır: "Yəhudi xalqı İkinci Dünya müharibəsi dövründə 20 minlik erməni legionunun qəddarlığını heç vaxt unutmayacaq. Bu legionu yaradanlardan biri faşist Njde olub. Arxiv sənədləri ilə təsdiqlənən tarixi faktlar var. General Njde başda olmaqla erməni legionunun məqsədi yəhudiləri və alman ordusu üçün "yararsız olan" başqa xalqları məhv etmək idi. Məhz erməni legionunun sayəsində Simferopol, Yevpatoriya, Aluşta, Kerç və Feodosiya, habelə Qərbi Krımın digər rayonları yəhudilərdən tamamilə təmizlənmişdi".

İsrailli ekspert qeyd edir ki, bütün bunlardan sonra biz müasir Ermənistanda erməni faşist və antisemitin təriflənərək milli qəhrəman dərəcəsinə çatdırılmasına laqeyd başa bilərikmi? Müasir Ermənistanın bu siyasətini ləng təsir edən bomba adlandırmaq olar, çünki bu ideologiya əsasında böyüyən gənclər gələcəkdə faşizm və terrorizm əməllərini davam etdirəcəklər.

Arye Qut nüfuzlu "Israel HaYom" qəzetində dərc edilmiş məqələsini bu sözlərlə bitirir: "Ermənistanın bu dövlət siyasəti İkinci Dünya müharibəsi zamanı faşizmə qarşı mübarizədə həlak olmuş milyonlarla insana, onların yaxınlarına və veteranlara, xüsusən faşizm üzərində Qələbə qazanılmasında müstəsna xidmətləri olmuş keçmiş SSRİ vətəndaşlarına ifrat hörmətsizlik nümunəsidir. Burada belə bir sual yaranır: Doğrudanmı ermənilərin faşist Njdedən başqa qəhrəmanları olmayıb?".




## "Lenta.ru": Paşinyanın susması Njdenin xatirəsinin əbədiləşdirilməsinə dair mövqeyinə etiraz etməmək cəhdi kimi görünür

***Rusiyanın "Lenta.ru" internet-nəşrinin dərc etdiyi "Babanın sirri" adlı materialda müəllif Konstantin Lyapunov Nikol Paşinyanın babasının həqiqətdə kimin tərəfində vuruşmasını araşdırır.***

Materialda qeyd olunur ki, Ermənistanın baş naziri Nikol Paşinyanın babasının Böyük Vətən müharibəsi illərində faşistlərlə ehtimal olunan əməkdaşlığı səbəbindən baş verən qalmaqalın Rusiya mediasında və beynəlxalq KİV-lərdə müzakirəsi davam edir.

AZƏRTAC xəbər verir ki, "Memorial" ümumiləşdirilmiş məlumat bankının informasiyasına görə hansısa Nikolay Paşinyan həqiqətən alman vermaxtının erməni legionunda xidmət edən sıravi əsgər kimi Qızıl Orduya qarşı vuruşub və 1943-cü ildə həlak olub.

Məlum olduğu kimi, mayın 9-da Ermənistanın baş naziri özünün "facebook" səhifəsində babasının fotoşəklini bölüşüb. Erməni jurnalistlər Paşinyanın babası barədə informasiyanı yoxlayaraq, faşistlər tərəfində vuruşmuş hansısa Nikolay Paşinyanı tapıblar.

Baş nazir özü danışıb ki, babası Nikol Paşinyan cəbhəyə gedəndə onun atasının cəmi bir yaşı vardı. Ailədə yalnız bir neçə fotoşəkil və babası haqqında az sayda söhbətlər yadda qalıb. Baba Nikol Paşinyanın döyüş yolu barədə yalnız bu məlum idi ki, o, 138-ci diviziyanın 554-cü atıcı alayının serjantı olub. Bəzi sənədlərdə onun 1943-cü ilin fevralında həlak olması, digər sənədlərdə - itkin düşməsi göstərilir. Bir versiyaya görə Stalinqrad yaxınlığında, digərlərində - Krımda. Nəvə Paşinyan belə vəziyyətdə susur və danışmağa tələsmir ki, bu da açıq-aşkar onun xeyrinə deyil.

Nəşr yazır ki, vermaxtın erməni legionu respublika tarixində kədərli səhifə olaraq qalmaqdadır. İlkin olaraq bu qruplaşmanın sayı 8 min nəfər təşkil edib, daha sonra 30 minədək artıb. Bölmənin əsas hissəsinə Qızıl Ordunun düşmən tərəfinə keçən döyüşçüləri, bir qayda olaraq, hərbi əsirlər daxil idi. Legiona Drastamat Kanayan (general Dro kimi məşhur olan) rəhbərlik edirdi, legionerlərin təlimləri isə SS-dən olan hərbi rəislərin nəzarəti altında keçirdi. Nasistlər erməniləri Almaniyanın qələbəsindən sonra Ermənistana müstəqillik vermək kimi vədlərlə legiona cəlb edirdilər.

Müəllifin fikrincə, Paşinyanın əcdadı ilə bağlı əhvalat erməni hakimiyyətinin digər hərəkətləri ilə də mənfi çalarlar kəsb edir. Bunların ən parlaq nümunələrindən biri - Üçüncü reyxlə əməkdaşlığı sübuta yetirilmiş Qaregin Njdenin abidəsi ilə bağlı insidentdir. 1940-cı ildən başlayaraq o, erməni batalyonlarının yaradılmasında vermaxta kömək edib, daha sonra Berlində yaranmış erməni milli şurasına daxil olub. Nəticədə o, həbs edilib və ömrünü Vladimir həbsxanasında başa vurub.

Məqalədə qeyd olunur ki, "əgər əvvəllər Njdenin abidələrinin qorunub saxlanmasına münasibətdə Paşinyanın mövqeyi sadəcə erməni əhalisinin ictimai rəyinə elementar hörmət hesab edilirdisə, indi baş nazirin babası ilə bağlı ziddiyyətli əhvalat fonunda bu mövqe başqa cür rəng alır". "Əgər baş nazir Njdeyə münasibətdə öz mövqeyi üçün müntəzəm olaraq tarixi arqumentlər tapırsa, o zaman niyə o, öz babasına yanaşmada ikimənalılığa yol verib? Axı, hökumət başçısının arxiv məlumatlarını sorğulamaq üçün bütün imkanları var. Onun tərəfindən rəsmi reaksiyanın olmaması getdikcə daha çox sual doğurur: bir tərəfdən inamsızlıq artır, digər tərəfdən də Paşinyanın susması Njdenin xatirəsinin əbədiləşdirilməsinə dair mövqeyinə etiraz etməmək cəhdi kimi görünür. Baş nazirin babasının əhvalatına düzəlişlə bağlı elə hökumətin digər hərəkətləri də bir qədər ayrı cür görünür. Məsələn, Ermənistanın "Mənim addımım" adlı hakim blokundan olan deputatlar Böyük Vətən müharibəsi veteranlarına aylıq fəxri ödənişlərin artırılması barədə qanun layihəsinin iclasın gündəliyinə salınmasından imtina ediblər. Mayın əvvəlində bu xəbər demək olar ki, diqqətdən kənarda qalırdı, indi isə bu məsələni məhz nasizmin tərəfdarlarına münasibət kontekstində müzakirə etməyə başlayıblar", - deyə müəllif yazır.

# “Eşkiyaların” sosial şəbəkə macəraları

*Və ya “Milli Şura”nın süqutundan hansı nəticələri çıxardıq?*

***İctimai rəy son bir günlər “Milli Şura”nın “zoom” - virtual iclaslarında adıçəkilən qurum təmsilçilərinin, rəhbərliyinin hansı “səviyyəyə” malik olduqlarının növbəti dəfə şahidi oldu. İlk başdan qeyd etmək olar ki, oraya toplaşanların müxtəlif hadisələrə normal yanaşmaq imkanları ümumiyyətlə sıfıra bərabərdir. Humanizm prinsiplərindən tutmuş siyasi davranışlara və s. çoxsaylı amillərə qədər hər şeyin sözün əsl mənasında əxlaqsızlıq, özündənmüştəbehlik, ironiya üzərində qurulan “Milli Şura” rəhbərliyindən zatən başqa hər hansı cəhətləri gözləməyə də dəyməzdi. “Yalnız biz haqlıyıq” tipli hay-həşirlə özlərini zorla siyasi gündəmdə sırımağa çalışan “başbilənlər” bu dəfə də rüsvay oldular.***

### Bu yığnaq daim “xalq”, “millət” pərdəsi altında xalq faktorundan sui-istifadə edərək, əslində özlərini xalqdan təcrid edib

SİA araq xatırlada bilərik ki, bu günə qədər başda AXCP sədri Əli Kərimli olmaqla onların hər birinin - Cəmil Həsənlinin, Gültəkin Hacıbəylinin, Vidadi Mirkamalın, artıq istefa vermiş Eldəniz Quliyevin, Rafiq Manaflının və başqalarının ayrı-ayrılıqda cəmiyyətdə ikrah oyadacaq əməlləri dəfələrlə ifşa olunub. Ən başlıcası isə, bu yığnaq daim “xalq”, “millət” pərdəsi altında xalq faktorundan sui-istifadə edərək, əslində özlərini xalqdan təcrid edib. Xalq onlar üçün sadəcə, uğursuz mitinqlər, aksiyalar üçün lazımdır və bu reallıq bir daha özünü sözügedən “zoom” toplantılarında sübuta yetirmiş oldu. Misal üçün, çoxsaylı ayamalarına “eşkiya” (quldur) ləqəbini də qazanan bu yığnağın həmin ləqəbi necə qazanmasını ardıcıllıqla bir daha təhlil edə bilərik. Beləliklə xatırladaq: qurumun əsas idarəçisi - AXCP sədri Əli Kərimli virtual toplantılarında bildirib ki, axşam “Osmanqızı” internet televiziyasına müsahibə verəcək. Koordinasiya mərkəzinin üzvü Vidadi Mirkamal isə deyib ki, müsahibəni bir qədər tez vermək lazımdır: “Bu gün “Eşkiya dünyaya hökmdar olmaz” serialı veriləcək. Saat 21:00-da anonsu, 22:00-da serial başlayır. İnsanların 90 faizi ona baxır. Müsahibəni tezləşdirmək lazımdır...”

Ə.Kərimli “O nədir, nə dediniz?” deyə sual ünvanlayıb. V.Mirkamal da bildirib ki, həmin serialı Türkiyə yayımlayır: “Bu serial müddətində müsahibə olarsa, baxış azalacaq”. AXCP sədri isə gülərək “İşimizə bax daa bizim” deyə replika atıb. “Milli Şura”nın koordinasiya mərkəzinin digər üzvü G.Hacıbəyli isə “Bir millət ki “Eşkiya”ya baxacaq, onda getsin...” deyərək, təhqirsayağı münasibət bildirib.



### Serialı Əli Kərimlinin sərsəm fikirlərinə dəyişmək istəməyən trolları

Bəs buradan hansı məqamları nəticə olaraq çıxara bilərik? İlk öncə, sübut olunur ki, “Milli Şura”nın tərəfdarları belə, adi bir serialı onlardan daha üstün tuturlar və Ə.Kərimlinin, yaxud digərlərinin harada nə danışmaları onlar üçün heç bir maraq kəsb etmir. Eyni zamanda, o da bəlli olur ki, onların trolları da layklar qoymaq, rəylər yazmaq üçün maraqlı deyillər və hətta serialın bir saniyəsini belə, heç vaxt Ə.Kərimlinin sərsəm fikirlərinə dəyişməzlər. Yəni bu faktdır və belə olmasa idi, V.Mirkamal bəlli fikrini toplantı iştirakçılarına çatdırmazdı. Demək, buradan bir daha aydın olur ki, onar üçün xalq amili mövcud deyil və xalq öz sosial-məişət həyatını bunların axmaq, sərsəm fikirlərinə görə dəyişməli, zorla “Osmanqızı” və s. kimi internet televiziyalarındakı çıxışlarına baxmalı, üstəlik bunu etməsələr, təhqirlərə məruz qalmalıdırlar (?!-R.R.)

Gültəkin Hacıbəyli sübut etdi ki, onun tin jarqonu ilə danışan küçə uşaqlarından qətiyyən heç bir fərqi yoxdur

Əbəs deyil ki, bütün baş verənlərdən sonra ölkənin iqtidarlı-müxalifətli şəxsləri, habelə sadə ictimai rəyi onlara qarşı haqlı ittihamlar irəli sürür, hiddət bildirirlər. Çünki belə davranış yalnız xuliqan, tərbiyəsiz, əxlaq sarıdan kasad olan fərdlər tərəfindən göstərilə bilər. Bu gün özünü az qala “Müqəddəs Tereza ana”, “əzabkeş” və “məsum” Azərbaycan qadını kimi sırıyan G.Hacıbəyli sübut etdi ki, onun tin jarqonu ilə danışan küçə uşaqlarından qətiyyən heç bir fərqi yoxdur. Çünki fakt budur ki, məşhur serialı izlədiyinə görə “Azərbaycan xalqının canı cəhənnəmə”, yaxud “getsin hoppansınlar” deməkdən belə çəkinmir!

### Cəmil Həsənli ABŞ-da hansı qadınla “elmi işlə” birgə məşğuldur?

Qoca professor C.Həsənli isə yuxarı başda oturaraq, kadra düşən qadının kimliyini gizlədəndən sonra bütün olanlardan razı qaldığını bildirir. Əslində bir müddət sonra C.Həsənli buna da öz təbirincə aydınlıq gətirməli olacaq, həmin qadının “elmi işində” “referant” olduğunu iddia edəcək, hətta “Bir cənub şəhərində” adlı filmində olduğu kimi, “klyanus ya yeşo malçik” ifadəsini işlədərək, “yorğa at” olmadığını, əksinə özünün nə qədər “təmiz”, “vicdanlı” olması görüntüsünü yaradacaq. Yəni onun ABŞ-da heç də “elmi işlərlə” məşğul olması ümumiyyətlə inandırıcı görünmür. Ən gülməlisi isə budur ki, sözügedən yığnağı “iş başına”, “klaviatura arxasına” çağırıb, G.Hacıbəylinin “sentyabrda hakimiyyətə gəlmək” utoyiasını təbliğ etmək təklifini verir.

### Əli Kərimlinin “zaryadkasını” hakimiyyət bitirib?

Daha bir sirk şousu özünün “bkokadada” olduğunu bağıran, ancaq “zoom” toplantıya qatılan, ardınca isə “zaryadkasının” qurtardığını deyərək, aradan çıxan Ə.Kərimli ilə bağlıdır. Ona həmin vaxt imkan verilsəydi, hətta “zaryadkasının” bitməsini belə, dərhal hakimiyyətin üzərinə yıxar, bu dərəcədə də həyasızlığa yol verərdi. Bəli, nəticə etibarı ilə əminliklə deyə bilərik ki, söyüş şəbəkəsinin başında bu ünsürlər yığnağı dayanır. Sübut olundu ki, yalnız üzə çıxan bu toplantı görüntüləri deyil, əvvəlki toplantılarında da bunlar küçə təfəkkürü ilə çıxışlar ediblər. Artıq bu ənənə çoxdandır ki, varıymış, sadəcə indilərdə üzə çıxmağa başladı. Üzə çıxdı və ifşa olundular. İndi qalır onların yalanlarına, şərböhtanlarına illərdir ki, inanan kəsimə. O kəsimə ki, haray-şivən “liderlərinin” bataqlıq girdablarında ilişib-qalıblar - onlar anlamalı və dərk etməlidirlər ki, bu ünsürlərlə yola çıxılmaz, bu yol onları bilavasitə əxlaqsızlığa, siyasi məhvə doğru sürükləyir.

**Rövşən RƏSULOV**

# “Beşinci kolon”un ən “parlaq” siması - Xədicə İsmayıl

*Yaxud erməniyə bütün mənliklərini verən curnalist...*



***Bu sözü deməliyəm, bəlkə də bundan da kəsərli söz deməliyəm. Özünü “araşdırıcı jurnalist” hesab edən, bütün varlığını erməniyə satan Xədicə İsmayıl kimi əxlaqsızlara daha kəsərli sözə layiqdir. Çünki hər zaman şeyini erməniyə verən əxlaqsızlıq mənbəyi olan X.İsmayıl həmişə kimliyini dönə-dönə göstərib. Bir məqamı oxucularımıza xatırlatmaq istərdim.***

Doğrudur ermənixislətli bu mənəviyyatsız yaşadığı ömründən də çox bağışlanılmaz satqınlıq, cinayətkarlıq və əxlaqsızlıqlar edib və etməkdədir. Ancaq bu panademiya ərəfəsi Xədicə İsmayılın sosial şəbəkələrdə Ramil Səfərvun biabırçı cinayət törətməsi ilə bağlı çıxışlar etməsini hələ də unuda bilmirəm. O iddia edirdi ki, Azərbaycan hakimiyyəti guya Ramil Səfərovun üzərindən seçkiqabağı xal qazanıb. Belə bir əxlaqsızın “jurnalist” adını daşıması bir jurnalist kimi, ümumiyyətlə bütün jurnalistlərə təhqirdir. Doğrudur, X.İsmayılın bu sözləri sosial şəbəkə istifadəçiləri tərəfindən böyük etirazla qarşılandı.

### <u>Hafiz Hacıyev:</u> “Qəhrəmanlarımızı təhqir edən damarlarında erməni qanı axan Xədicə İsmayıl kimi əxlaqsızlar məsuliyyətə cəlb edilməlidir”

Müasir Müsavat Partiyasının sədri Hafiz Hacıyev bütünlüklə qanı, əqidəsi ermənioları əxlaqsız, mənəviyyatsız Xədicə İsmayılın Ramil Səfərov haqqında səsləndirdiyi fikirlərə münasibət bildirərək bildirib ki, qəhrəmanlarımızı təhqir edən damarlarında erməni qanı axan X.İsmayıl kimi əxlaqsızlar məsuliyyətə cəlb edilməlidir: “Bu gün Azərbaycana qarşı böyük ideoloji hücum və bu hücumun başında erməni mafiyası, diasporası durur. Burda da Xədicə İsmayılova kimilərdən istifadə edirlər. Mübariz İbrahimov və Ramil Səfərov kimi qəhrəmanları təhqir etmək, Azərbaycan ordusunu təhqir etmək deməkdir. Bunlar qarışıqlıq yaratmaqdan ötrü bu yollara əl atırlar və istəyirlər ki, Azərbaycanda qarışıqlıq yaransın. Eyni zamanda Azərbaycan ordusunu gözdən salmağa çalışırlar. Bunların fikrincə Azərbaycan ordusu ermənilərə güllə atmamalıdır. Güllə atanları da Xədicə kimilər düşmən elan edir. Ona görə də düşünürəm ki, bunlar haqqında ciddi tədbir görmək lazımdır. Bu adamlar bizim Milli Qəhrəmanlarımızı təhqir edirsə, onların valideynləri məsələ qaldırıb prokurorluğa şikayət etsinlər. Biz də görək ki, bunlar kimdi ki, xalqımızı qəhrəmanlarını təhqir edirlər. Bunlar tək deyil, onların dalında duran müxalif qüvvələr var. Çünki onlar özləri də görürlər ki, Ali Baş Komandan ciddi göstərişlər verir və ona görə də narahatdırlar. Bunların bir tərəfi gedib ermənilərə çıxır. Əslində bunlara Azərbaycanın havasını udmağı da qadağan etmək lazımdır. Mən düşünürəm ki, bu cür əxlaqsızlığa yol verməK olmaz”.

### Qəbuledilməz sayılan addımları atmaq Xədicəyə “bir qurtum su içmək” kimi asandır

Bəli, bu dünən də belədir, bu gün də. Bu gün dünya koronavirusla mübarizə apardığı zaman X. İsmayıl da yenə də öz əsl simasını nümayiş etdirməkdədir. Bu yerdə soruşmaq istərdim: Axı, sən kimsən, Xədicə İsmayıl: ermənilərin sözçüsü, yoxsa?.

Qrantyeyən jurnalist və “hüquq müdafiəçisi”, xarici kəşfiyyat orqanlarının agenti, ermənilərin tezisləri əsasında fəaliyyət göstərən təxribatçı, bəlkə hamısı?

Bəli, hamısı! Azərbaycanda “beşinci kolon” təmsilçilərinin ən “parlaq” simalarından olan Xədicə İsmayılın fəaliyyətinin nüvəsində hansı məqsədlərin yatdığı, onun bəzi “araşdırmalarında” hansı mənbələrdən yararlandığı və bu cızma-qaraların ərsəyə gəlməsində xarici xüsusi xidmət orqanlarının hansı rol oynadığı daha parlaq cizgilərlə ifadə olunur. Sirr deyil ki, Xədicə İsmayıl hər platformada guya Azərbaycan hökumətinə müxalifətdə olduğunu iddia etsə də, əslində, xaricdən aldığı təlimatlar əsasında birbaşa dövlətə qarşı fəaliyyət göstərir. Ermənilərlə əməkdaşlıq etmək onun tərcümeyi-halından qırmızı xətlə keçir. Çünki normal halda etik baxımdan qəbuledilməz sayılan addımları atmaq Xədicəyə “bir qurtum su içmək” kimi asandır. Bu o X.İmsayıldır ki, uzun illər eyni cəbhədə yer aldığı, ötən ilin oktyabrında isə “siyasi məhbus” məsələsində üz-üzə gəldiyi, hətta “ağılsız ambisioz” adlandırdığı Əli Kərimli və Cəmil Həsənli ilə 4-5 ay sonra mitinqdə çiyin-çiyinə “poz verməsi” Xədicə üçün qətiyyən xəcalət çəkiləcək bir nüans deyil. Yetər ki, maraqların uzlaşa biləcəyi bir nöqtə tapmaq mümkün olsun. Xədicənin ermənilərlə mənafelərinin üst-üstə düşdüyü məqamlar isə, görünür, yetərincədir. Və onlar hər kəsdən şəffaf olmağı, cəmiyyətə hesabat verməyi umduqları halda, özləri bu yöndə çağırışları süngü-bıçaqla qarşılayırlar. X.İsmayıl belələrindəndir.

### Abırsızın abırı olmaz

Bu aksiomadır. Ancaq qəribəsi odur ki, belə abırsızlar başqalarından siyasi ləyaqət tələb edir. Özünü “araşdırıcı jurnalist” adlandıran Xədicə İsmayı kimi fərdlər. Belə ki, koronavirusla mübarizə aparıldığı bir zamanda X.İsmayıl yeni “planlarını” həyata keçirmək üçün əlinə fürsət düşdüyündən başladı özü kimi 5-3 şikəst təfəkkürlüləri ətrafına toplamağa və AXCP sədri Əli Kərimlinin səsinə səs verərək “mitinq, yürüş çağırışı” etməyə. Nə deyəsən belələrinə. Dünən “ağılsız ambisioz” adlandırdığı Əli Kərimliyə bu gün “arxa çıxır”. Bu da təəccüb doğurmur. Ən maraqla məqam isə, Azərbaycan dövlətçiliyinə qarşı xüsusi aqressiyası ilə seçilən və indi də həmin aqressiyasını radikal müxalifətin qanunsuz keçirdiyi mitinqlərdə polislərə “mədəniyyət” dərsi verməsidir. X.İsmayılın “demokratmiyadan” dəm vurması nə qədər abırsız və saxtakar olduğunu göstərir. Kim, kim Xədicə İsmayıl. Xədicə İsmayıl mədəniyyət hara, demokratiya hara. Özü kimi 2-3 nəfər satqın gənclərə “jurnalist geyimini” geyindirərək dövlətin ünvanına özünə layiq olan əxlaqsız sözləri təkrarlayanlar: “mədəniyyətli olun”, “demokratiya budur” tənəli sözlər işlətməklə özünü nə hesab edir? Ancaq anlamırlar ki, Xədicə kimi jurnalistin “tələbəsi” də özü kimi olacaq. Mən də söz danışdım da. Şikəst təfəkkürlü deyirəm, bu şikəst təfəkkürlü qrant dəllaları vicdan, düzgünlük, müqəddəslik, abır nə demək olduğunu bilirlərmi? Heç vaxt anlaya bilməz! Çünki ictimai fikrə uğursuz mənfi təsir göstərməklə məşğul olan Xədicə İsmayıl kurtizan həyasızlığı xarakterini bütün gücü ilə öz timsalında göstərən, sosial şəbəkələrdə təhqiramiz epiqramlar yazıb onları tirajlamaqdan o yana keçməyən iyrənc satqındır. Xədicənin tarixçəsi şəxsi ambisiya və iddiaların sublimasiyasıdır. Eybəcərin eybəcəri olan bu o Xədicə İsmayılovadır ki, bütün fəaliyyəti böhtan və yalanlar üzərində qurulub. Budur, şikəst təfəkkürlü satqın Xədicə İsmayıl! Bədbəxtsiniz! Çünki hər bir siyasi proseslərdə hakimiyyət xalqla hesablaşmır, xalqla bir yerdə bu qələbələri qazanır. Həmin qələbələri ki, nəticədə yüşürlərdən sosial şəbəkələrə keçən sizin kimi erməni üfunəti verən şikəst təfəkkürlü Xədicə İsmayıl kimilər elə qışqıra-qışqıra qalalacaqlar, necə ki qalırlar da!

Bu yerdə Onori Balzakın bir sözünü yadıma düşdü: “Həyat məndən fahişə düzəltdi. Mən isə həyatın özünü fahişəxanaya çevirəcəyəm”. Budur, X.İsmayılın jurnalistika adını ləkələməsi. Qrantları bahalı “CİP”lərə çevirən X.İsmayıl kimilərin özünü “jurnalist” adlandırması bir jurnalist kimi məni göynədir. Çünki “qrant” Xədicə xaricdən pul alıb, hakimiyyətə qarşı çirkin kampaniyaların təbliğatçısı özünü “vicdanlı insan” kimi saysa da, bu, dəvəquşunun başını kolda gizlətməsinə bənzəyir.

**Rəfiqə Hüseynova**

# Müxalifətin yeni "taktika"sı!



***Siyasət, mənim zənnimcə, bütün peşələrdən bir pillə üstündü. Nədənini deyim, siz də görün haqlıyam, ya yox? Nədəni də ibarətdi ondan ki, bütün peşələrdə çalışanlar peşəsinin ustasıdırsa, məhz həmin peşənin əhatə elədiyi dar çərçivədə müvəffəqiyyət qazanır. Yaxud əksinə, peşəsini zəif biləndisə, yenə həmin dar çərçivədə müvəffəqiyyətsizliyə uğrayır və bundan zərər çəkənlərin də dairəsi dar olur.***

Bir az açıq deyim ki, hər kəs başa düşsün. Tutaq ki, pis memar pis bir bina tikir, pis müəllim bir neçə yüz şagirdin gələcəyinə, pis həkim bes-on xəstəninn sağlamlığına zərər vurur və sairə. Pis siyasətçinin isə vurduğu zərərin miqyası bütöv bir xalq, bir millət, bir dövlət olur. Buna dair uzaqa getmədən elə öz yaxın tariximizdə o qədər faktlar var ki, onları sadalasam çox vaxt aparar. Odur ki, təfərrüata varmadan bunları yazmaqda məqsədimin üstünə gəlirəm.

Bizim ölkədə, maşallah olsunmu deyim, olmasınmı deyim, bilmirəm, onu oxucu qərar versin, o qədər siyasət peşəsini seçənlər var ki, hətta son illərin ən arzulanan peşəsi olan şoumenliyi də ötüb. Kiçik bir məmləkətdə 70-dən artıq partiyanın olması faktı dediyimizin təstiqi üçün kifayətdir. Olsun, nə deyirik? Demokratik cəmiyyətdi, kimin siyasətlə məşğul olmaq istəyi varsa buyursun. Amma, ay qardaşım,məşğul olacağın bu peşəni seçirsənsə, heç olmazsa onun əlifbasını öyrən də...

Bir siyasət ki, milləti aşağılamaqla, insanların mənəviyyatını cılızlaşdırmaqla qurulacaq,bunun ümumən millətə vurduğu zərbənin miqyasını ölçmək mümkünmü? Belə fəaliyyət siyasət deyil, 5-ci kalonluq fəaliyyətidir. Yəni dövlətə də zərər gəlsin, millətə də zərbə dəysin, insanlar da cılızlaşsın, fərqində deyillər, taki onların istədiyi olsun. İstədikləri də nədir, bu iqtidar pisdi, getsin, biz yaxşıyıq, biz gələk! Lənət şeytana, demişdim e... Yaxşı olan "yaxşı" olduğunu əməlləri ilə göstərər, sübut edər, millət də onun həqiqətən yaxşı olduğunu qəbul edər və dəyər ki, bu, indiki iqtidardan yaxşıdı, qoy gəlib olsun iqtidar.Səsini verər, gətirər eliyər onu iqtidar. Amma bu 5-ci kalondakılar başqa yol seçiblər. Nədi bu yol, indi deyim, siz də bilin. Rəhmətlik Molla Nəsrəddin bir gün uzunqulağını (Yəni, ayıb olmasın, eşşəyini) minib, oğluna da heyvanın buruntağını verib kəndin içi ilə gedirmiş. Camaat ona gülüb deyir ki, uşaq piyada gedir, yekə kişi minib uzunqulağa. Molla oğlu ilə yerini dəyişir. Bu dəfə deyirlər ki, qoca kişi piyada gedir, cavan oğlan minib uzunqulağa. Belə olanda ikisi də minir uzuqulağın belinə. Yenə lağa qoyurlar, deyirlər, yazıq heyvan, insafsızlar ikisi birdən minib belinə. Düşüb piyada gedirlər, indi də deyirlər ki, iki adam piyada gedir, uzunqulağa minməyə qıymırlar. Axırda Molla deyir: A bala, kömək elə, bu heyvanı alım dalıma, bəlkə bunların sözü kəsilə!

Bax bizim özünü siyasətçi adlandıran bəzilərinin fəaliyyəti həmin o mollaya söz toxuyan adamların səviyyəsindən bir addım da irəli deyil. Bu hakimiyyətə irad tuturdular ki, korrupsiyaçı məmurları niyə saxlayır vəzifədə? Onların dediklərinə görə yox, ümumən cəmiyyətin sağlamlaşdırılmasını özünə prioritet seçən hakimiyyət başlayır böyük islahatlara və belə məmurlara xalqdan və dövlətdən oğurladıqlarını qusdurmağa. İndi də başlayıblar ki, hakimiyyət indiyə kimi hara baxırdı, nə bilim niyə indiyə kimi bu məmurları vəzifədə saxlayırdı? Sanki dövlət idarə etmək eləcə dəm-dəm halvasıdı ki, kim ayağın yan qoydu işdən qov, həbs elə. Bir kadrın yetişməsinə dövlət illər sərf edir, yolunu azanı yoluna qaytarmağa çalışır, yoluna qayıtmayanı da... Bu bir yana, özünü siyasətçi adlandıran bu oyunbazlar bar-bar bağırırdılar ki, insanlara pandemiya dövründə yardım edilməlidi. Dövlət əvvəl 200 min, sonra isə 600 min vətəndaşa yardım etməyə qərar verdi. Bu dəfə başladılar cəmiyyətdə yardım istəyib ala bilməyənlərin axtarışına. Harda birini tapırlarsa, tez kameranı tuşlayıb, mikrofonu dürtüllər ağzına ki, söy bu iqtidarı. O da bisavad adamdı, elə bilir ki, burdan söyən kimi gətirib 190 manatı basacaqlar cibinə.

Sosial şəbəkələrdə etiraz yazırıq, 5-ci kalonun trolları hücum çəkir üstümüzə. Susursan için özünü yeyir. Atalar demiş, desəm öldürərlər, deməsəm özüm öllən! O gün bir 30-35 yaşlarında cavan oğlan da çıxıb efurdən dad döyürdü ki, ay dadi-bidad, mənim maşınım var deyə mənə 190 manatı vermirlər. Dözmədim, yazdım ki, sənin yaşında cavan oğlan gərək belə məqamlarda əlsizə, ayaqsıza, ərsiz qadınlara kömək eləsin, utanmırsan bu çıxışından? Pa... At getdi, örkən də düşdü dalına. Tələt yazdı, Faiq bağırdı, Aslan diş qıcadı... Trollar başladı hücuma. O saat anladım ki, bu torbanı boynuna salan cavan oğlan bura özbaşına çıxmayıb...

Yəni dediyim odur ki, belə 5-ci kalonluq edən siyasətçinin fəaliyyəti millətə nə boyda zərər vurduğu göz önündədi. Hamı bunu görür və anlayır.Amma hamı da susur. Bax bu susmaq bizim bu kalonu yaradan və idarə edənlərin planları nəticəsində dövlətə və millətə xələl gətirilməsinə göz yummağımızdır ki, onun da ən ağır zülmünü gələcək nəsillər çəkə bilər. Gələcəyimiz naminə belələrinə göz yummayaq ki, bəlkə özlərinə çəkilələr.

**Təhmasib Novruzov**

## "Son video konfrans "Milli Şura" üçün rəzalət idi"



***Azərbaycan dövlətinə, xalqına radikal, xəyanətkar mövqe bəsləyən, özlərini "Demokratik Qüvvələrin Milli Şurası" adlandırılan və əsasən xarici ölkələrdə yaşayan, xarici düşmən qüvvələrinə bağlı olan, eyni zamanda Azərbayana qarşı düşmənçilik siyasəti aparan marginal qrup növbəti dəfə özünü ifşa etdi.***

Bu sözləri SİA-ya müsahibəsində politoloq Yusif Bağırzadə deyib. Politoloq qeyd edib ki, "Milli Şura"nın Koordinasiya Mərkəzinin son video konfransı sözün əsl mənasında rəzalət idi və həmin rəzalətdən sonra nəinki istefa verən iki şəxs, elə başda Gültəkin Hacıbəyli olmaqla hamı istefa verməli idi.

"Nə qədər etiraf etməsələr də onlar da gözəl anlayırlar ki, özlərini rüsvay ediblər. Bircə video konfransla cəmiyyətin ciddi qınağına tuş gəliblər və özlərinin əsl mahiyyətlərini ortalığa qoyublar. Bunun nəticəsidir ki, konfransda iştirak edən insanların bir-birinə qarşı münasibəti, dialoq zamanı istifadə etdikləri qeyri-etik ifadələr cəmiyyət tərəfindən ikrah hissi ilə qarşılanır.

Özünü ziyalı, siyasətçi hesab edənlər çıxıb əxlaqi, milli, mənəvi, insani dəyərlərə zidd olan iyrənclikləri kimlərəsə xoş gəlmək üçün müdafiə edirlərsə onlardan cəmiyyətə hər hansı bir fayda gözləməyə dəyməz. Bu gün özlərini demokratik qüvvə sayıb meydana atılanların illərdir ki, eyni ittihamlarla, eyni sözlərlə xalqı necə aldatdığının şahidiyik. Anti-Azərbaycançı şəbəkənin maliyyə dəstəyi ilə ölkədə ictimai-siyasi sabitliyi pozmaq onların apardıqları "siyasət"in ana xəttini təşkil edir. Bir-birini ittiham, şantaj edərək satqın, xəyanətkar adlandıran dağıdıcı müxalifət partiyalarının funksionerləri heç vaxt nəyəsə nail ola bilməyiblər və bundan sonra da nəyəsə nail olmaları mümkün deyil.

Tutduqları yol bəlli, apardıqları siyasət və gördükləri işlər ictimaiyyətin gözü önündədir. Son prezident seçkisində iflasa uğrayan bu şəxslərə elə əsl qiyməti fevralın 5-də Heydər Əliyev Mərkəzində regionların sosial-iqtisadi inkişafı dövlət proqramlarının icrasına həsr olunan konfransda çıxış edən Cənab Prezident İlham Əliyev verdi. Dövlət başçısı bildirdi ki, Azərbaycanda daxili vəziyyət çox sabitdir. Sabitliyi qoruyan əsas şərtlər xalqla iqtidar arasındakı birlikdir, xalqın görülən işlərə dəstəyidir, inamıdır", deyə Yusif Bağırzadə bildirib.

**Müəllif: İnam Hacıyev**

# Elşən Musayev: "Milli Şura"nın son videokonfransı həqiqətən rəzalət idi"

Müsahibimiz Demokratik Maarifçilik Partiyasının sədri, millət vəkili Elşən Musayevdir



***- Elşən müəllim, "Milli Şura"nın məlum biabırçı konfransından sonra qurumun üzvü Eldəniz Quliyev "Milli Şura"dan istefa verdi. Bunu artıq "Milli Şura"nın növbəti parçalanması kimi qiymətləndirmək olar?***

- Nəinki Eldəniz Quliyev, artıq Rafiq Manaflı da istefa verib. Güman edirəm ki, hələ növbəti istefalar da olacaq. Çünki "Milli Şura"nın Koordinasiya Mərkəzinin son video konfransı həqiqətən rəzalət idi və həmin rəzalətdən sonra nəinki adını sadaladıqlarım, başda Gültəkin Hacıbəyli olmaqla hamı istefa verməli idi. Amma hələ ki, 2 nəfər özündə bu cəsarəti tapıb. Qalanları isə isterik vəziyyətdə ya kənara hücum edirlər, ya da ətrafdakılara. Tam bitiblər. Gözəl anlayırlar ki, özlərini rüsvay ediblər. Bircə video konfransla cəmiyyətin ciddi qınağına tuş gəliblər, quyunun dibinə düşüblər, əsl mahiyyətlərini ortalığa qoyublar və məlum vəziyyətdən çıxış yolu tapa bilmirlər. İndi yəqin düşünürlər ki, bir - iki üzvü qurban verməklə mövzudan yayınmaq olar. Yəni, nəzərdə tutulan budur. Amma alınmayacaq. Ona görə ki, "Milli Şura" düzənlədiyi son videokonfransla çox böyük skandala imza atdı, özü-özünü ifşa etdi, səviyyəsizliyini, iç üzünü göstərdi. Əslində həmişəki hallarıdır, sadəcə bu dəfə necə deyərlər, lap pis yerdə axşamlayıblar, daha dərin batıblar.

**"Milli Şura" tam dağılsa da, Əli Kərimli-Gültəkin Hacibəyli cütlüyü həmişə arsız-arsız ortalıqda var-gəl edəcək"**

***- Videokonfransda tərəflər bir-birini satqınlıqda, xəyanətdə günahlandırdılar və Gültəkin Hacıbəyli sərt şəkildə əqidə dostlarına qarşı ittihamlar irəli sürdü. Bu qarşılıqlı ittihamlar daha da dərinləşəcəyini demək olar?***

- Gültəkin Hacıbəyli Azərbaycan siyasətinin ən cığal, ən cır və ən qeyri-praqmatik fiqurudur. Adamın ambisiyası o qədər böyük və hüdudsuzdur ki, həmin ambisiyaları realizə etməkdən ötəri bütün dəyərləri satar, bütün qırmızı xətləri keçər. Üstəlik, olduqca "qırmızı" tipdir. Ona görə də baxarsız, hamı istefa versə də, "Milli Şura" tam dağılsa da, Əli Kərimli-Gültəkin Hacibəyli cütlüyü həmişə arsız-arsız ortalıqda var-gəl edəcək. Çünki adətkardırlar bu duruma. Çünki siyasətdə zaman-zaman min sifətə, min obraza, min dona giriblər. Bu da olsun min birinci. Onlara nə fərq edər ki? Üz yox, abır yox, utanmaq yox, kompleksə girmək yox. Həmişə getdikləri yol xəyanət yolu olub. Daim hərraca çıxıblar ya da çıxarılıblar. Həmişə kim daha sərfəli pul, qrant təklifi veribsə o tərəfə dığırlanıblar. İndi kükrəyir Gültəkin. Özünü sığortalamağa çalışır. Aqressiya püskürərək günahı boynundan atmağa çalışır. Fəqət, çifayda. Onun xislətinə artıq hər kəs bələddir. Hamı bilir və fərqindədir ki, bu adam komanda ruhunda olan biri deyil. Eqaistdir. Harda olursa olsun, vəziyyət özünə sərf etmədisə hər kəsi anındaca güdaza verəcək xarakterə sahibdir. Və mən əsas bilirsinizmi hansı məqamı gözləyirəm? - Bu naqisin öz tayı olan başqa bir naqisə - Əli Kərimliyə üsyan qaldıracağı günü. Bax əsl tragikomediya onda olacaq. Əsl fırtına onda qopacaq. İki minsifət tutuşacaq bir-biri ilə. Açıb-tökəcəklər sandıqdakı pambığı. İndi isə hələ başları qarışıb, ətrafdakıları sıradan çıxarmağa. Hazırda elə Gültəkini qızışdıran çox güman ki, Əli Kərimlidir. Öz köhnə metodlarını ona öyrədir. Ayrıca, siz sualınızda xüsusi vurğu ilə qeyd etdiniz ki, Gültəkin Hacıbəyli öz əqidə dostlarına qarşı ittihamlar irəli sürür. Oysa, bilin və agah olun: Gültəkin Hacıbəylinin əqidə anlayışından xəbəri belə yoxdur. Əqidəsi olmayanın isə əqidə dostu olmur.

**"Bu minsifətdən hər şey gözləmək olar"**

***- Sizcə, "Milli Şura" da baş verən qarşıdurmalar Əli Kərimlinin hazırladığı bir layihə ola bilər?***

- Əli Kərimli daim və hər zaman bütün qurduğu planlarla bərabər fiaskoya uğrayan adamdır. İndi bilmirəm nə düşünür, yenə nə düzüb-qoşur, yekunu nəyə hesablayıb, ümumiyyətlə nəsə plan qururmu- qurmurmu? Gerçəkdən ehtimal belə edə bilmirəm. Amma bildiyim tək həqiqət budur: adam nə edirsə yanlış edir, yaramazca edir, xəbiscə edir. Ola bilsin, "Milli Şura"da özünə yeni rəqib görüb, onu bitirir. Ola bilsin, elə Gültəkinin özünü çıxdaş eləmək istəyir, ola bilsin Eldəniz Quliyevi qəsdən danışdırıb, sonra videonu yayıb, onu sıradan çıxarır. Əlqərəz, ehtimallar çoxdur və hüdudsuzdur. Bu minsifətdən hər şey gözləmək olar. O, öz lideri Əbülfəz Elçibəyə xəyanət edən insandır. Beləsinin edə bilməyəcəyi nəsə varmı? Əli Kərimlinin ümumiyyətlə bu günə qədər etmədiyi rəzillik qalıbmı? Yox, təbii. Bu səbəbdən, hər şey mümkündür. Üstəlik, Kərimlinin bu məqamda gizlənib müzakirələrdən kənar qalması, qınından çıxmaması, fikir bildirməməsi də şübhələr yaradır. Adam siyasi buqələmundur. Bilmək olmur bu gün hansı rəngdədir, sabah hansı rəngdə olacaq.

**Gülyana**

# Oğurluq erməni mədəniyyəti

***Azərbaycanın mədəni sərvətlərinin, irsimizin erməniləşdirməsi meyllərinin, erməni əqli oğurluqlarının kifayət qədər qədim tarixi vardır. Bunların kökündə ermənilərin Azərbaycana ərazi iddiaları durur. Çünki ərazi iddialarını əsaslandırmaq üçün torpağın əsil sahibinin maddi və qeyri-maddi (mənəvi) irsinə sahib çıxmaq lazımdır.***

Erməniləşdirilmə xətti isə bir neçə mərhələ yolunu keçir, o cümlədən yiyələnmə (mənimsəmə), özününküləşdirmə və nəhayət erməniləşdirmə. Bu məqsədlə Azərbaycan dilini bilən, heç də müvafiq istedaddan məhrum olmayan erməni ifaçıları, müğənniləri və s. Azərbaycan əsərlərini orijinalda qavrayıb, geniş şəkildə istifadə, ifa edirlər. Daha sonra daha geniş erməni kütləsini (erməni əhalisini) yiyələnmə prosesinə cəlb etmək üçün Azərbaycan nümunələri erməni qrafikasında yazıya alınır. Bundan sonra həmin nümunələr erməni dilinə tərcümə olunaraq, erməni əlamətləri qoşulur, maksimum dərəcədə erməni mühiti (obrazlar, personajlar, adlar, coğrafi məntəqələr və s.) yaradılmaqla Azərbaycan nümunələri təhrif olunur.Beləliklə, yiyələnmə, mənimsəmə mərhələsi qarət edilmək, saxtalaşdırmaq, plagiat, təhrif olunmaqla müşayiət olunan geniş istifadə mərhələsidir, özü də bunlar yad olan əqli nəticələrin kütləvi erməni şüurunun özününkü kimi qəbul etməsinə və qavramasına yönəldilmişdir. Folklor mənəviyyatımızın güzgüsü, milli dəyərlərimizin və adət - ənənələrimizin göstəricisi, mədəni sərvətimizin ayrılmaz tərkib hissəsidir. Folklor, öz-özlüyündə qədim bir mədəni ənənədir. Bu canlı ənənə "qocalmır", çünki folklor daim inkişafdadır. Çünki hər zaman xalqımızın mədəniyyətinin qəlbi onun qəlbinin mədəniyyəti kimi çıxış etmişdir. Digər tərəfdən bizim qədim folklor ənənələrimiz ümumbəşəri dəyərlər sırasına daxildir və dünya mədəniyyətinin varidatıdır. Bununla yanaşı, "Azərbaycan folkloru nümunələrinin hüquqi qorunması haqqında" Qanuna əsasən, Azərbaycanda folklora əqli mülkiyyət kimi, millətimizə məxsus əqli mülkiyyətin yeni, qeyri - ənənəvi növü kimi baxılır. Bu isə o deməkdir ki, biz folklor nümunələrimizə münasibətdə, həm də hüquqi müstəvidən, müstəsna hüquqlar mövqeyindən çıxış edirik. Həmin müstəsna hüquqların, yəni əqli mülkiyyətin hüquq sahibi isə Azərbaycan xalqıdır. Odur ki, Azərbaycan folklor nümunələrindən hər hansı şəkildə istifadə, Qanunda təsbit olunmuş tələblərin yerinə yetirilməsi ilə həyata keçirilməlidir. Bu tələblər hansılardır? Əvvəla, istifadə olunan folklor nümunəsinin təyinatı və məqsədi dəyişdiriləndə bədii forması işləndikdə, onun təbii mahiyyət və məzmununa heç bir halda xələl gətirilməməlidir. İkinci tələb isə ondan ibarətdir ki, istifadə zamanı folklor nümunəsinin dürüst mənşəyi, xalqımıza mənsub olduğu, mənbəyi mütləq göstərilməlidir. Qanunla nəzərdə tutulmuş tələblərin pozulması hüquqi məsuliyyət törədir. Belə ki, folklora əqli mülkiyyət kimi yanaşma onun qorunub - saxlanması, yayılması və zənginləşməsi üçün əlavə imkanlar yaradır. Çünki yaşadığımız xxi əsrin iqtisadiyyatı isə əqli mülkiyyətə əsaslanır və onda cəmləşən intellektual kapital əsas valyuta kimi çıxış edir. "İnsan ruhunun arxeologiyası adlanan folklor"un, mühüm milli özünəməxsusluğunu yaşadan bu alətin qorunub-saxlanmasının kulturoloji və humanitar baxımdan vacibliyi ilə yanaşı, müasir araşdırmalara əsasən, mühüm təbii - elmi əsasları da vardır. Həmin mədəni ənənənin "instinkt və idrak" arasındakı təbii yaranma və inkişaf yolu müəyyən ərazidə iqlim, flora, faydalı qazıntıların yoluna bənzərdir və tarixi prosses bu ənənəni vacib resursa və milli sərvətin dəyərli hissəsinə gətirib çıxarır. Və bu mənəvı sərvətin iqtisadi rolu heç də təbii sərvətlərin rolundan kiçik deyil. Belə ki, folklorun hüquqi qorunması canlı ənənələrin və mədəni varisliyin qorunması ilə yanaşı, gələcək inkişafımızın, xalqımızın rifahının qorunması deməkdir. Bir sözlə, inkişafda və zəngin ənənəyə malik olan dövlətimiz üçün folklorumuzun qorunması böyük əhəmiyyət kəsb edir.

"Böyük Ermənistan" xülyası ilə yaşayanlar tərəfindən oğurlanmış xalqımıza məxsus təzahürlər də "böyük erməni mədəniyyətinin" dəlilləri kimi göstərilir. Konkret folklor nümunələrimizin bir neçə mənimsənilmə və oğurluq "mərhələsinə" nəzər salaq.

Qədim dövrlərdən gələn Daş-balıq, Daş-qoç, Daş-at abidələrimizi özünküləşdirən, qədim Alban torpaqlarını və abidələrini "Şərqi Ermənistan" ərazisinə çevirmək istəyən saxtakarlar tariximizin xristiyan dövrünün kilsələrini, stella və xaçdaşları, nişan-daşları və başdaşları və bunlarda həkk olunmuş milli dekorumuzu, habelə digər maddi abidələrimizi mənimsəməklə yanaşı Musa Kalanqatlının "Alban tarixi"-ni, Karakos Gəncəlinin "Tarix"ini, Muxtar Kosanın "Alban xronikasını" və "Adət hüququ"na aid Qaydaları da erməniləşdirdilər. Hətta qədim türk kökündən gələn, Gəmiqaya yazıları ilə səsləşən alban əlifbası və yazısını alban dilini bilməyən erməni Mesrop Maştosun adına bağladılar.

Özününküləşdirmə mərhələsində özününküləşdirilmiş Azərbaycan orijinal nümunələri, onların dəyişdirilmiş erməni variantları maddi daşıyıcılara köçürülərkən, süni surətdə qədimləşdirilir, fond və arxivlərdə yerləşdirilir və son nəticədə müxtəlif xarici mənbələrdə erməni əqli istehsalı kimi təqdim (çap, dərc və s.) olunur. Bununla bərabər, bunların təsdiqi üçün "elmi" tədqiqatlar, araşdırmalar aparılır və bunların erməni mənsubluğu, mənşəyi, qədimliyi barədə "elmi" əsərlər yazılır, "elmi" nəticələr çıxarılır.Beləliklə bu mərhələ oğurluğu pərdələyən, "elmi" dayaqları formalaşdıran və "maddi" sübutlar yaradan özününküləşdirmə mərhələsidir.

Erməniləşdirmə mərhələsinin səciyyəvi xüsusiyyətləri artıq oğurlanmış (mənimsənilmiş, özününküləşdirilmiş) nümunələr haqqında onun əsil sahibləri ilə diskussiyalar açmaq, artıq yaradılmış "dəlillər" və "araşdırmalara" istinad etməklə həmin nümunələrin erməni mənşəyini göstərmək, geniş informasiya təbliğatı vasitəsilə beynəlxalq ictimai və elmi rəyi çaşdırmaq, azdırmaqdan ibarətdir. Bununla yanaşı yalançı, quraşdırılan "dəlil və araşdırmalara" əsaslanan yeni informasiya, o cümlədən "elmi" mənbələrin yaradılması və çoxaldılması prosesi təşkil edilir. Saxta kökündən çıxan, biri-birinə istinad edilən uydurma "dəlillər" ardıcıllığın yaradılmasıdır.Beləliklə, bu mərhələ riyakarlıq, "fariseyçiliklə" müşayiət olunan, "oğru elə bağırdı ki, doğrunun az qala bağrı çatladı", "qara məni basınca, mən qaranı basım" prinsiplərə əsaslanan mərhələdir.

Rusiyanın "Telekafe" kanalında yayımlanan "Puteşestvie za vkusom" verilişinin 2017-ci ilin 8 yanvar tarixində efirə gedən "erməni mətbəxinə" həsr edilən buraxılışında görkəmli Azərbaycan bəstəkarı Ələkbər Tağıyevin bəstələdiyi "Sən gəlməz oldun" mahnısının musiqisi fon musiqisi kimi səslənib və həmin musiqinin erməni musiqisi olduğu barədə təəssürat yaradılıb:

""Sən gəlməz oldun" adlı mahnı tanınmış Azərbaycan bəstəkarı Ələkbər Tağıyevin ən məşhur mahnılarından biridir. Musiqisi bəstəkar Ə. Tağıyevə, sözləri isə Mədinə Gülgünə aid olan "Sən gəlməz oldun" mahnısı 1973-ci ilin 15 mart tarixində Müəllif Hüquqları Agentliyində (Agentlik həmin vaxt Ümumittifaq Müəllif Hüquqları Agentliyinin Azərbaycan Respublikası Şöbəsi adlanırdı) qeydiyyata (uçota) alınıb və Azərbaycan musiqi kimi tanınır. Bütün arxiv sənədlərindən də göründüyü kimi "Sən gəlməz oldun" mahnısı Azərbaycan müəlliflərinə məxsusdur və ermənilər yalnız bu mahnının musiqisini ifa edirlər. Lakin mahnının müəlliflərinin adlarının və mənşəyinin göstərilməməsi ermənilər tərəfindən beynəlxalq hüquq normalarının kobud şəkildə pozulması deməkdir. Ermənilərin başlıca prinsipi: musiqinin mənbəyini göstərmədən erməni ifaçılarını iri planda nəzərə çarpdırmaqdır".

Agentlik bəyan edib ki, Ələkbər Tağıyevin varisi, oğlu Xaliq Tağıyev də qeyd edilən musiqinin ifa olunması üçün ifaçı C.Qasparyan tərəfindən onlardan icazə alınmadığını bildirib:

"Ümumiyyətlə, Ələkbər Tağıyevin "Sən gəlməz oldun" mahnısı da tək Azərbaycanda deyil, ölkə xaricində də məşhurdur. Belə ki, Belarus müğənnisi, "Byanka" adı ilə tanınan Tatyana Eduardovna Lipniçkaya və Özbəkistan müğənnisi, "Soqdiana" adı ilə tanınan Oksana Vladimirovna Neçitaylo Azərbaycan bəstəkarı Ələkbər Tağıyevin bəstələdiyi "Sən gəlməz oldun" mahnısının musiqisindən qeyri-qanuni istifadə ediblər. Həmin vaxt da Müəllif Hüquqları Agentliyi məsələnin həllində səlahiyyətləri çərçivəsində tədbirlər həyata keçirib, Belarus və Özbəkistanın aidiyyəti orqanları ilə danışıqlar aparıb.

Azərbaycan xalqına məxsus olan musiqi əsərləri, folklor nümunələri və digər qeyri-maddi mədəni irs nümunələri uzun illərdən bəri ermənilər tərəfindən zaman-zaman oğurlanır, mənimsənilir və erməni nümunələri kimi təqdim olunur. Buna misal olaraq, ermənilər Azərbaycanın "Sarı gəlin", "Süsən - sünbül" və onlarca digər xalq mahnılarını, "Yallı", "Vağzalı", "Köçəri", "Uzundərə", "Mirzəyi" rəqslərini, qədim musiqi alətlərimizi (tar, balaban, zurna), hətta məşhur Azərbaycan bəstəkarlarından Üzeyir Hacıbəylinin, Qara Qarayevin, Fikrət Əmirovun əsərlərini, eləcə də müasir bəstəkarlarımızın mahnılarını erməni nümunələri kimi təqdim etməyə cəhdlər göstərirlər. Qeyd edilən faktlarla bağlı Müəllif Hüquqları Agentliyi tərəfindən mübarizə aparılıb və bu iş indi də davam etdirilir. Belə ki, hər bir erməni oğurluğu barədə araşdırmalar aparılıb, oğurlanmış əsərlərin Azərbaycan xalqına məxsus olması barədə Agentlik tərəfindən geniş,tarixi əsaslara söykənən arayış hazırlanıb kütləvi informasiya vasitələrində yayılıb və bu barədə Ümumdünya Əqli Mülkiyyət Təşkilatına məktub göndərilib.

***Vahid Ömərov***
***Fəlsəfə üzrə fəlsəfə doktoru, dosent***

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

# SƏS

Son səhifə

19 may

## Ürəyi gücləndirən ən faydalı qida hansıdır?



Ürək üçün ən faydalı məhsul qozdur. Bu barədə Harvard Xalq Sağlamlığı Məktəbinin tibb elmləri doktoru Marta Guaş Ferre "Lavanguardia" portalına məlumat verib. Mütəxəssisin fikrincə, bu məhsulun tərkibi digər çərəzlərdən fərqli olaraq daha çox alfa-linolenik turşu ehtiva edir. "Müxtəlif araşdırmalar qozun lipid profilini yaxşılaşdıraraq ürək xəstəliklərindən qoruya biləcəyini göstərib", - deyə ekspert əlavə edib.

Bundan əlavə, mütəxəssis məhsulun antioksidant və iltihab əleyhinə xüsusiyyətlərini də vurğulayıb. Bundan əvvəl Yunanıstanın Arokopio Universitetinin alimləri tərkibində D vitamini olan qidaların ürəyə qoruyucu təsir göstərə biləcəyini bildirmişdi. D vitamini çatışmazlığı kişilərin 12-24, qadınların isə 10-14 faizində ürək-damar hadisələri (infarkt və insult) yaradır.

## "Qalatasaray"ın prezidenti yenidən əməliyyat olundu




***"Qalatasaray"ın prezidenti Mustafa Cengiz yenidən xəstəxanaya yerləşdirilib. Qol.az Türkiyə mətbuatına istinadən xəbər verir ki, klub rəhbərinin halı qəflətən pisləşdiyindən o, növbəti dəfə əməliyyat olunub. Cengizin mədəsində qanaxma olduğu bildirilib.***

Qeyd edək ki, aprelin 30-da halsızlıq və yorğunluq səbəbindən xəstəxanaya yerləşdirilən Mustafa Cengiz mayın 7-də əməliyyat olunmuşdu.

## Ötən il Azərbaycanda qızılcadan 3 nəfər ölüb

2019-cu ildə Azərbaycanda 337 nəfər qızılca xəstəliyinə tutulub. Bu barədə Dövlət Statistika Komitəsindən APA-nın sorğusuna cavab olaraq bildirilib. Məlumata əsasən, xəstəliyə tutulanlardan 196 nəfəri kişi, 141 nəfəri qadındır. Onlardan 62-si 18 yaşadək, 275-i isə 18 və yuxarı yaşda olan şəxslərdir. Ötən il qızılcadan ölənlərin sayı isə 3 nəfər olub. Bildirilib ki, qızılca ilə xəstələnmə halları Bakı şəhəri və Abşeron rayonunda qeydə alınıb.



## Dibala daha 3 il "Yuventus"da

"Yuventus" hücumçusu Paulo Dibala ilə yeni müqavilə imzalayacaq. "La Gazzetta dello Sport"un yaydığı məlumatda deyilir ki, 26 yaşlı oyunçunun yeni müqaviləsi 2025-ci ilin yayına qədər nəzərdə tutulub.



## Bakıda taksi sürücüsünü bıçaqla hədələyib 20 manatını aldılar!

Bakının Binəqədi rayonunda quldurluq hadisəsi baş verib. XəzərXəbər xəbər verir ki, mayın 16-da saat 3 radələrində Abşeron rayonunun Gənclər şəhərciyi ərazisində rayon sakini X.Quliyevin idarə etdiyi "Daewoo" markalı avtomobilə sərnişin qismində oturmuş şəxsin M.Ə.Rəsulzadə qəsəbəsinə gedəcəyini bildirməsi, həmin ünvanda isə sürücünü bıçaqla hədələyərək 20 manatını alması barədə Binəqədi rayon Polis İdarəsinin 4-cü polis şöbəsinə məlumat daxil olub.

Polis əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində quldurluğu törətməkdə şübhəli bilinən Sabirabad rayon sakini S.Ağayev müəyyən edilərək saxlanılıb. Faktla bağlı araşdırma aparılır.




## Sabunçu rayonunda oğurluqla məşğul olan şəxslər tutulublar

Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Sabunçu rayonu ərazisindəki iki evdən ümumilikdə 2230 manat, 2000 ABŞ dolları məbləğində pul və 5300 manat dəyərində qızıl-zinət əşyaları oğurlamaqda şübhəli bilinən İsmayıllı rayon sakini E.İsayev Rayon Polis İdarəsinin 12-ci polis şöbəsi əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində saxlanılıb.

Sabunçu Rayon Polis İdarəsinin 15-ci polis bölməsinin əməkdaşları isə rayon ərazisindəki mənzillərin birindən noutbuk və 1300 manat dəyərində qızıl-zinət əşyaları oğurlamaqda şübhəli bilinən Bakı şəhər sakini, əvvəllər məhkum olunmuş N.Xəlilovu yaxalayıblar. Hər iki faktla bağlı araşdırma aparılır.



## Məşhur musiqiçi velosipeddən yıxılıb öldü

Britaniyanın məşhur "The Pretty Things" musiqi qrupunun qurucularından biri və vokalçısı Fil Mey bədbəxt hadisə nəticəsində yaralanıb və yerləşdirildiyi "Queen Elizabeth" xəstəxanasında ölüb. 75 yaşlı Fil velosipeddən yıxılaraq ayağını ciddi zədələyib. Bundan sonra xəstəxanada onun bud nahiyəsində mürəkkəb cərrahi əməliyyat aparılıb, lakin yaranmış ağırlaşmalar musiqiçinin ölümünə gətirib çıxarıb.

Qeyd edək ki, "The Pretty Things" qrupu 1963-cü ilin sentyabrında yaradılıb. Fil Mey və gitaraçı Dik Teylor kollektivin əsasını təşkil ediblər. 2020-ci ildə qrupun yeni albomu işıq üzü görməli idi.

Baş redaktor:
Bəhruz Quliyev
Baş redaktorun müavinləri:
Valeh Məhərrəmli
Fətulla Həsənov

Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
Tel:598-33-90 Faks:493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur
Tiraj: 4600